# Redaktor guşəsi

## Ədəbiyyatın mətbuatla vəhdəti

Ədəbiyyatın mətbuatla münasibəti necə olmalıdır? Mətbuat ədəbiyyatın işinə yarayırmı? Ümumiyyətlə, ədəbiyyat-mətbuat münasibətləri özü-özlüyündə tənzimlənməlidirmi?

Ciddi ədəbiyyatla məşğul olanları bu suallar daimi düşündürüb. Hətta çiçəklənmə dövrünü yaşayan Azərbaycan ədəbiyyatı son otuz ildə, xüsusən, müstəqillik dövründə mətbuatın geniş imkanlarından yararlana bilməyib deyə müəyyən geriləmələr, axsamalar olduğunun fərqində deyil. Bu məsələ həm istiqamətləndirilmir, həm də özü-özlüyündə tənzimlənə bilmir. Mətbuatın başına gətirilən oyunlar da ədəbiyyatın çiçəklənməsinə əngəllər yaradır. Yaz aylarında ağaclar çiçəkləyəndən sonra qarın yağması təbiətə necə ziyan vurur, ağacları meyvəsiz qoyursa, mətbuatın başına gətirilən oyunlar nəticəsində də çanaq ədəbiyyatın başında sınır.

Beləliklə, mətbuat ədəbiyyata ilk növbədə təbliğat üçün lazımdır. Kiçik xəbərlər vasitəsilə insanlar bir çox nəsnələrdən xəbər tuturlar, o cümlədən ədəbiyyatın varlığından məlumatlı olurlar. Mətbuat səhifələrində ədəbi nümunələr, həmin nümunələrdən hissələr geniş auditoriyalara çatdırılır, müzakirəyə çıxardılır. Ədəbiyyat haqqında yazılan rəylər, resenziyalar, təhlillər mətbuat səhifəsində yayımlanır. Ən vacibi isə mətbuatda yayılmış hansısa hadisə ədəbiyyatda bir povestin, romanın yaranması üçün təkan sayıla bilər.

Mətbuat özlüyündə çoxşaxəlidir və bu çoxşaxəlilikdə də bir mübarizə gedir. Bunu bəziləri tənzinlənmə, təkmilləşmə hesab eləsə də, əslində, belə deyildir. Bir vaxtlar ekran yazılı mətbuatı sıxışdırırdı. İnsanlar daha çox televiziya xəbərlərinə baxmağa üstünlük verirdilər. Elə indinin özündə də blogerlər (Jurnalistikada yeni vəzifə) xəbərlərini, təhlil və şərhlərini efir vasitəsi ilə çatdırmağa üstünlük verirlər. Elə ədəbiyyata münasibət də bu cürdür, adam filmə baxmağı roman oxumaqdan üstün sayır. Saytlar qəzetləri dalana dirəyib. Nəyin yaxşı, nəyin pis olduğunu zaman göstərəcək. Bu gün isə yazılı mənbə kimi ədəbiyyat və qəzetçilik mətbuatı öz üstünlüyünü saxlamaqdadır. Elektrik, internet olmayan yerdə yalnız kitablar və qəzetlər kara gəlir.

Ədəbiyyatın mətbuatla vəhdəti insanlar üçün çox vacibdir, lap çox...

**Əli BƏY AZƏRİ,**
**Baş redaktor**

**XƏZAN**
*Ədəbi-bədii jurnal*
C8, N6, 2023
iyul, 2023

**Baş REDAKTOR:**
**Əli BƏY AZƏRİ**

**Buraxılışa MƏSUL:**
**Elvin İNTİQAMOĞLU**

**Redaksiya heyəti:**
Şahməmməd Dağlaroğlu, Xaliq Azadi, Məhəmməd Əli, Rəşid Bərgüşadlı, Damət Salmanoğlu, Budaq Təhməz, Hafiz Əlimərdanlı, Elvin İntiqamoğlu, Təranə Dəmir, Gülnarə İsrafil Minarə Sığnaq, Ələsgər Talıboğlu, Zaur Ustac, Əyyub Türkay

**Baş redaktorun MÜAVİNİ:**
**Ramiz İSMAYIL**

**Dizayn: Tünzalə VAHABOVA**

**Redaksiyanın ünvanı:**
*Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı*
**Əlaqə telefonları:** *(070) 575 03 99*
**Email ünvanı:** *xezan23@mail.ru, 5750399a@mail.ru*
**Çapa imzalanıb:** *25 iyul 2023-cü il*

*Ədliyyə Nazirliyində 15 yanvar 2016-cı ildə qeydə alınmışdır: 5331*
*Jurnal aylıqdır.*
*Materiallar elektron variantında, yaxud diskdə və on dörd şriftlə printerdən çıxmış çap variantında (bir nömrə üçün) poeziya və publisistika beş, nəsr on səhifədən çox olmamaq şərtilə qəbul olunur.*
*JURNALI Azərbaycan Yazıçılar Birliyinin "Bayatı" və KİTABEVİM. AZ kitab mağazalarından əldə edə bilərsiniz.*



**RÜSTƏM KAMAL**
Filologiya elmləri doktoru

# MOLLA PƏNAH VAQİFİN GÜZGÜSÜ

Görəsən, XVIII əsrdə Qarabağda güzgülər necə və harda hazırlanırdı, hardan gətirilirdi? Xan sarayını hansı sənətkarın bağladığı güzgülər bəzəyib? Təəssüf ki, XVIII əsrdə Qarabağda, Şuşada güzgülərin (güzgüyə «ayna» da deyilir) olmasını təsdiqləyən etnoqrafik-tarixi qaynaqlar yox dərəcəsindədir. Bu mənada tariximizin bilicisi, əslən şuşalı olan Yusif Vəzir Çəmənzəminliyə etibar etməliyik. Yusif Vəzirin bədii təsvirində XVIII saray həyatını, Vaqifin otağını, güzgü asılmış divarları görürük: «Yan divarlardan birisində çargül rəngin pəncərələr arasında zərli çərçivəli güzgülər vurulmuşdu» («İki ad arasında»).

Dördkünc güzgülər Vaqif dünyasının əksidir: pəncərə şüşələrində günəşin işığı, gənc və gözəl arvadı Qızxanımın «Büllur biləklərinin kəhrəbası»nın parıltısı. Məhz otağın güzgüsü məkanı formalaşdırır, onu görümlü edirdi.

Tacirlər Şuşaya güzgünü Çindən, Hindistandan da gətirə bilərdi, ya da sənətkarların əl işləri idi. Qarabağda güzgü ilə bir maraqlı rəvayəti folklorşünas Fəridə Hicran qələmə almışdır: «Xan qızı Xurşidbanu Natəvanın bir yaşı olanda bibisi Ağabəyim ağa öz sevimli güzgüsünü ona hədiyyə edib».

Güzgünü İran hökmdarı Fətəli şah əslində Ağabəyim ağa üçün bağlatdırıbmış. Çox məşhur bir sənətkarın əl işi olan bu güzgünün dörd tərəfi qızıldan ecazkar haşiyələrlə hörülmüş, aralarına çox qiymətli böyük karatlarla brilyant, zümrüd, ləl qaşlar düzülübmüş. Güzgü uzun illər boyu Tehranda qərib həyatı yaşayan və övladı olmayan Ağabəyim ağanın otağında olub və bu qərib xanım hər dəfə kədərli halda o güzgünün önünə keçərkən, onun qarşısında evləri, ailəsi üçün darıxdığından, övladsız olduğuna görə sıxıldığından göz yaşı tökmüş və sonralar - ölümündən bir il əvvəl son dəfə vətəni Qarabağa qonaq gedərkən ən qiymətli hədiyyə kimi öz sevimli güzgüsünü bir bibi hədiyyəsi olaraq xan qızı Natəvana bağışlamışdır. Natəvan həddi-buluğa çatarkən güzgünü çox qiymətləndirmiş, onu silib, təmizləyib, qoruyaraq saxlamışdır. Lakin sonradan həyatındakı bir çox uğursuzluqlarla qarşılaşdıqca həmin güzgüdən uzaqlaşmağa çalışmışdır. O, göz yaşı ilə başlanan uğursuz taleyinin bir tərəfini də bu güzgü ilə ilgili hesab etmişdir. Hətta Natəvan xanımı tanıyıb, onunla yaxınlıq edənlər guya yuxuda anası Bədircahan xanımın xan qızına məsələni bu cür anlatdığını da danışırmışlar. Qarabağda sonralar Natəvan xanımın güzgünü cavahiratdan ayırıb atdığını da söyləyənlər çox olub…»

Mir Möhsün Nəvvabın magik təcrübələri göstərir ki, Şuşada güzgü sadəcə bir vacib məişət əşyası deyil, mistik mənalı predmetlərdən biri olubdur.

Güzgü Qarabağ insanının, indiki dillə desək, gündəlik aksesuarı deyildi, həm də həyat aynası idi. Bu aynaya baxan şəxs həm də öz yaşamını, taleyini anlamağa çalışırdı.

Qarabağ xanlığında qadın gözəlliyinə yüksək dəyər verilirdi. Bunu salnaməçilər də qeyd edir. Vaqif poeziyası bu estetik dəyəri bədii təsdiq edir.

Vaqifin şeirlərindən məlum olur ki, «əldə ayna gözə sürmə çəkmək» həm də bir etiket imiş. Qarabağ gözəlləri ayna ilə yatıb ayna ilə dururlar...

**Ayna tutar, zənəxdana gül düzər,**
**Hər muyinə yüz min fitnə-fel düzər.**
**Bəyaz gərdəninə siyah tel düzər,**
**Sanasan sonadır mənim sevdigim.**

Yaxud:

**Əldə ayna, gözə sürmə çəkəndə,**
**Ala gözün bulağından öpəydim.**
**Zənəxdanın çevrəsindən, xalından,**
**Qələm qaşın qabağından öpəydim.**

Saray məişətinin ən dəyərli predimeti olan güzgü-ayna Vaqifin vizual dünyasında da xüsusi simvolik, poetik funksiyaya malik idi. Ayna-güzgü obrazının simvolikası Vaqif poeziyasında hər şeyi fərqli estetik mənalar çevrəsinə daxil edir. Güzgü effekti bütövlükdə qadın detallarını Vaqifin vizual məntiqinə tabe edir. Güzgü bədii portret yaratmağın bir üsuludur.

O, bu güzgüdə hər şeyi gözəl görür. Aşağıdakı şeirdə böyük sənətkar «gözəl» sözünü o qədər fəallaşdırır ki, istər-istəməz «göz» və «gözəl» sözlərinin eyni kökdən yarandığına inanırsan:

**Biləyi, bazusu, hər bəndi gözəl,**
**Gərdəndə zülfünün kəməndi gözəl,**
**Ayna tutdu, durdu, bəzəndi gözəl,**
**Sallandı, görəsən, nə qiyamətdə.**

Vaqif üçün «ayna qabaq» və «göyçək qabaq» qadın gözəlliyini mənalandıran epitetlərdir. Gül camalın nuru günəşin nuru ilə eyniləşdirilir.

**Bir ayna qabaqlı, tər sinəli yar,**
**Çox müştaqdır sizin cəmalə Vaqif.**

Yaxud:

**Şanə kim, zülfü bölür, zahir olur**
**göyçək qabaq,**
**Bərq vurur oynar buludlardan çıxan**
**güntək qabaq...**

Təsəvvüfdə məşuq aşiqin «güzgüsüdür» - yalnız bu güzgüdə «vəhdəti-vücud» mümkündür. Aşiq yarın günəş camalında öz qismətini arayır. Bu «canlı güzgü»yə baxıb xoşbəxt olacağına inanır. Vaqif üçün yarın üzü ruhunun, ovqatının aynasıdır:

**Vaqifəm, yoxdur mənə**
**cahi-zənəxdandan nicat,**
**Göstərir əhvalımı aydın üzün güzgü kimi.**

Yaxud:

**Könlünü aynatək eyləyəydi pak,**
**Bir söz desəm, olmayaydı qəzəbnak.**

Vaqif yarın aynaya baxmasını rəqibə baxması, yaxud məşuqa biganəliyi kimi mənalandırır. Hətta arada bir aynaya da qışqanmalı olur...

Güzgünün əsasında ikiləşmə ideyası var. Güzgü oxşarlıqları yaradan bir semiotik alətdir. Y.Lotman qeyd edirdi ki, oxşarlıq mövzusu «güzgü motivinin ədəbi uyğunudur». Ona görə də şair sevgilisinin klassik obrazlar səviyyəsində oxşarına inanır. Güzgü prinsipindən istifadə edərək, onların arasında oxşarlığı axtarır.

**Oturuşu Şirin, duruşu Leyli,**
**Qəmzəsi sitəmli, yarı gileyli.…**

Yaxud:

**Ustad səni çəkib manəndi-mələk,**
**Bundan artıq həqqi say ola bilməz.**

Vaqif üçün Tiflis də hardasa Şuşanın güzgü oxşarıdır - ikisinin də «yaşılbaş sonaları», «türfə tamaşələri var».

Güzgü daosizmdə, buddizmdə «dünyanın ikinci əksini» bildirir. «Dao bütün varlığın güzgüsüdür: soyuqdur, sakitdir, boşdur (heçlikdir). Güzgü hər şeyi əks etdirir, axı özü hər şeydir və heç nədir. İkinci əks olunan həyatdır. Bu, ölü həyatmı?

Yox, çünki güzgüdə əks olunan nə varsa, nə ölüdür, nə də diridir. Bu - ikinci həyatdır, kabuslara və ya qalüsinasiyalara bənzər sirli varlıqdır». (Xuan Fan-ço. «Saflaşmış ruhun güzgüsü», rus dilində)

Qüdrətli «bir padşahın (Ağa Məhəmməd Şah Qacarın) başını ortada top kimi oynadanda, «qədirbilməz həmdəmi» Batmanqılınca qoşulub qaçanda qoca şair anlayır ki, «ikinci güzgü» adlanan bu dünya toy-bayram yeri deyil, həm də mənasız ilğımdır, heçlikdir…



## VASİF SÜLEYMAN

**SƏYYAH**

Hər gün ürəyimdən gəlib-gedirsən,
Yaxşı yol tapmısan gəlib-getməyə.
Elə yaxşısını sən eləyirsən,
Qorxuram, başqası gələ, getməyə.

Birdən səsə düşər, qulağın səsə,
Dinlə o sözləri bir yalan kimi.
Hələ harasıdır, ürəyim üstə
Dünyanı gəzəcən Magellan kimi.

Elə sənsizlikmiş ümid, pənahım,
Hər şeyi yazıram qəmin boynuna.
Heç qubar eyləmə, mənim səyyahım,
Dəmir çarığın da mənim boynuma.

Tələsmə, bu yolda, astaca, aram,
Gör neçə gecəmiz, səhərimiz var.
İndidən deməyə bir az qorxuram,
Hələ o dünyaya səfərimiz var.

Tələsmə, adına biçilib bu yol,
Tələsmə, bu yolla tən gedənin yox.
Mənim ürəyimdə sən arxayın ol,
Qapıdan çıxanda ləngidənin yox.

Bu yol nə uzundu, nə də ki, qısa,
Bu yol ömür ilə ölüm arası.
Qəlbimə yol saldın, amma...
Hardasa,
Yolunu gözləyir kimsə, qadası.

Hər gün ürəyimdən gəlib-gedirsən,
Yaxşı yol tapmısan gəlib-getməyə.
Elə yaxşısını sən eləyirsən,
Qorxuram, başqası gələ, getməyə.

**SOLANDI YANAĞIN YAŞ OLAN YERİ**

Ömrümdən ehtiyac keçdi, səngidi,
Qapandı dərdimin boşalan yeri.
Göz dağı dağların ən nəhəngidi,
Bir də talelərin qış olan yeri.

Gördüm ağlamamış ürək kiridi,
Onda yerin-göyün dərdi biriydi.
İlahi, dünyanın xoş bəxt yeridi.
İlk eşqin ürəyə tuş olan yeri.

Həsrəti özümə gərək bilmişəm,
Onu duz bilmişəm, çörək bilmişəm.
Yanmaya-yanmaya ürək bilmişəm,
Sinənin altında daş olan yeri.

Sevincdən daşındım, qəmdən daşındım,
Göz yumub açınca yandım, yaşandım.
Torpağa su düşsə, yaşıllaşandı,
Solandı yanağın yaş olan yeri.

**BƏLKƏ**

Gəl görək, neynirik bu dünya ilə,
Yaz deyək, yandıran qışına bəlkə.
Kimdir çəkən bizi əcəl toruna,
Özümüz keçirik dişinə bəlkə.

Gecikən, tələsən taleyə yarıq,
Elə bu qismətin rəngində varıq.
Bu qara günlərlə gedib çıxarıq
O ağ gecələrin tuşuna bəlkə.

Qalsa, qalmayacaq, özünə qalsa,
Əllisinə qalsa, yüzünə qalsa.
Dağılıb gedəcək özünə qalsa,
Qarışaq dünyanın işinə bəlkə

**BELƏCƏ**

Ömrü sonalamaq, seçmək yoxuymuş,
Kefin istəyəndə köçmək yoxuymuş.
Bu ömrün içində heç nə yoxuymuş,
Di gəl, bu boşluqda yaşa... Beləcə...

Dəli sevdalara yaxın apardı,
Azı əyləmədi, çoxu apardı.
Bərədə dayandım yuxu apardı,
Bir dəfə gəlmişdim xoşa... Beləcə...

Bəxtim yollarıma çatmadı, keçdi,
Odladı, ruhumu odladı, keçdi.
Ömür başım üstdən adladı keçdi,
Nə ola, ölüm də çaşa... Beləcə...

Gəldik payımıza, nə düşdü?.. Ömür...
Bir şirin röyayla görüşdü ömür.
Bilmədim, əlimdən sürüşdü ömür,
Dəydi qayalara, daşa... Beləcə...

Vasif, ömür-günün ömrü bir içim,
Dəyəri nədir ki, ömürdən keçim.
Bu qara günlərin nəyini seçim,
Onsuz da vurmuşam başa... Beləcə...

**YAXŞI UNUTDUN**

Nə sevdin sevəntək, nə üz çevirdin,
Adi təsəlliydin, adi umuddun.
Mən səni hamıdan yaxşı sevirdim,
Sən məni hamıdan yaxşı unutdun.

Neyniyər dodağım şəkəri, qəndi,
Ürəyim payıza, bahara yatmaz.
Daha nə əllərim tumar çəkəndi,
Nə də ki tellərim tumara yatmaz.

Nə sözün üstündən söz deyəsiyəm,
Nə də bacarmaram nəyisə danam.
Ömrün sonunacan gözləyəsiyəm,
Məni tanıyırsan, həmin oğlanam.

Dünyanın yolları sevinc qarışıq,
Yolların dünyası müsibətiymiş.
Bir gün məhəbbətdən biz yaranmışıq,
Bizi öldürən də məhəbbətiymiş.

Nə sevdin sevəntək, nə üz çevirdin,
Adi təsəlliydin, adi umuddun.
Mən səni hamıdan yaxşı sevirdim,
Sən məni hamıdan yaxşı unutdun.

**BALACA ADAŞIMA...**

Tələsmə, hər şeyi düz anlamağa,
Tələsmə, dünyanı tez anlamağa.
Başlasa, başını dərdə salacaq,
Ürək anlamağa, göz anlamağa -
Get adaş, get oyna, qurbanın olum!

Bilməyib kədərə gülmək bir aləm,
Dünyadan-dünyaya gəlmək bir aləm.
Sonra heç birindən keçmək olmayır,
Yaşamaq bir aləm, ölmək bir aləm -
Get adaş, get oyna, qurbanın olum!

Özünü bir dünya daddan qoyarsan,
Qohumdan, yoldaşdan, yaddan qoyarsan.
Kənddə toy çalınır, get quzu kəsim,
Əlinə xınadan zaddan qoyarsan -
Get adaş, get oyna, qurbanın olum!

Üzümdən dünyanın təlaşı getməz,
Dərdnən çilik-ağac yanaşı getməz.
Vasifin başında başqa havadı,
Heç onnan bir yerdə qardaşı getməz -
Get adaş, get oyna, qurbanın olum!

**NADİR AZAYOĞLUNA...**

Ah səni çəkəmməz, ahlıq deyilsən,
Gündə neçə dəfə çəksən ah belə.
Ömür yaşayırsan ömürdən gözəl,
Hər axşam beləcə, hər sabah belə.

Sözlər könüllərə yaraşığıydı,
Onda göy günəşli, yer işığıydı.
Bir zaman dünya da qız uşağıydı,
Nə bəndə beləydi, nə Allah belə.

Bəxtini sözlərlə yarıya bölsün,
Ömür ver, yaşasın, ölüm ver, ölsün,
Paxıllıq eyləsəm, gözüm tökülsün.
Nə xan yaşayıbdı, nə padşah belə.



## FƏRQANƏ SƏFƏRLİ

### BUĞDA

Sapsız dəryaz, oraq ilə
Çətin oldu biçilməyim.
İstədilər od vuralar,
Mən kül olub seçilməyim...
Çətin oldu əzilməyim,
Sünbülümdən dən aldılar.
Lazım olan bu neməti
Nədən kənara qoydular?
Xırmanımı külək tutdu,
Samanım qarışdı toza.
Bir canlı buna baxmadı,
Küskün bəxtimi kim yoza?!
Ələdilər xəlbirlərdən,
Sonra ələklərdən məni.
Neçə-neçə əzab gördü
Taleyimin hər bir dəni...
Çox işləndim, çox sıxıldım,
Dəyirmanda üyüdüldüm.
Çörək kimi lazım idim,
Yaddan çıxdım, unuduldum...
Sağdı hələ mayam burda,
Safım burda, boşum orda.
Nə olsun ki, qaldım darda,
Tanrım özü tapdı məni...

### HƏSRƏT YÜKÜ

***oğlanın dilindən...***

Gedən ayaqlarında
Həsrət dolu yükün var.
Ağır basır ayağın,
Ya qal, ya məni apar.

Sən illərin acısın
Asıbsan ürəyimə.
Gülüşlərin saxtadı,
Əl dəymə gerçəyimə.

Vüsal bizdən nigaran,
Ümidlər həbs olunub.
Elə minnətli getmə,
Eşqim çoxdan ovunub.

Xatirəsi əzizdi
Həm qara, həm ağ günün.
Gözəl illər yaşadıq
Bir yerə qədər, gülüm...

### SOYUQSAN

Əsmə külək yerinə,
Xəzri kimi soyuqsan.
Toz basmış rəfimdəki
Kitablarım kimisən,
Üst-üstə qoyulubsan...
Düşmə xəta yerinə,
Mərdimazar gəzənlər
Səni günahkar görər.
Döymə taxta qapımı,
Cəftəsi qırılarsa,
Əlini yarı bölər...
Sonra deyərsən – Sarı,
Qanayan yaramı da.
Mən də andım üstünə
Deyərəm – Çözüm barı
Bu qansızan ilqarı...
Qanı görüb qorxarsan,
Gizlənərsən gecədə.
Bir kor yarasa gəlib,
Dəyər sənə küçədə...
Süzülər yağış kimi,
Soyuq tər dabanına.
Birdən baxıb görərsən,
Gerçəklər dağda qalıb
Çatıbsan aranına...

**VAR**

Dəryanın dibində qalan yosunam,
Hardan bilsin burda duyan ürək var,
Gedib gələn gəmilərin birində
Bir üzü xoş, bir üzü sərt dilək var.

Ağ geyinən qaragünə bənzərəm,
Sahillərdə addım-addım gəzərəm.
Hər gülənə, ağlayana nəzərəm,
Göz qoymayın, gözsüz olan kələk var.

Sitayişim hayanadır, görəsən?
Məndə olan mənsizliyi biləsən.
Hey axtardım, bəlkə qaçıb gələsən,
Beşiyində ağlayan bir mələk var.

Yaşıl baxışları xəzan apardı,
Payız onun bahar ruhunu sardı.
Hardasa bir kiçik qaranquş vardı,
Uçub gedib, yuvasında lələk var.

Nağıldakı Simurq, uçub gəlsənə,
Bu yuvanın ləleyini görsənə.
Biri vardı, biri yoxdu desənə,
Kibrit əldə dayanan bir fələk var.

**VÜSAL HƏSRƏTİ**

Sən mənim təsəllimin
Ən ürkək zirvəsisən.
Dəmlənmiş tünd çayımın
Ən şirin hissəsisən.
Ağlımda yanan şamın
Həsrət adlı küləyi,
Ağarmış saçlarımın
Neçə neçə diləyi.
Dərdimin adı sənsən
İllərimin köçündə,
Qabırğana bir olan
Bu ruhumun içində.
Ümidlərdən qurmuşam
Bir qalacıq xoşbəxtlik
Vurub onu uçurma!
Səadəti qaçırma!
Gözləyir məhəbbətin
Vüsal adlı o tayı,
Biz bu tayda qalmışıq
Neçə ili, neçə ayı.
Gəl...
gəl... Keçək
Həsrət adlı bu çayı...

**BAHAR QIZ**

Payız qoxur bu baharın torpağı
Nədən axı?
Gənc qız idi onun saçı,
Arada yeddi rəngə qarışardı yumağı...
Bir də həsrət yağışında
Qaçıb sərinlənərdi
Qızın əli, ayağı...
Hörükləri qübar edir,
Nəfəsinin rənginə.
Bahar qız məəttəl qalıb
Könlündəki
Payızın ahənginə...

**DUA ÇƏRPƏLƏNGİ**

Elə bil qızmar yayın
Nəfəsi də buzlaşıb.
Xəstələnən həkimtək
Həyat şəfasızlaşıb...
Apara bilmir quşlar
Dənin balalarına,
Soyuq qənim kəsilib
İsti yuvalarına...
Tanrım, özün görürsən
Dua çərpələngimi,
Yapışmışam ipindən
Onun ən nəhənginin...

**YALAN BAXIŞLI**

Dünya bizi qarğamır,
Dua da etmir bizə.
Nə biryolluq can demir,
Nə də sığışmır sözə.

Arabir ümid verir,
Taleylə bəxt yarıdır.
Nə xəyala qal deyir,
Nə biryolluq yarıdır.

Ucu-bucağı yoxdu,
Görsənir göyə qədər.
Yığışmışıq başına,
Yola verir birtəhər.

Dünya yalan baxışlı,
Yolu belə saxtadı.
Arzular asimanda
Bir şah kimi taxtdadı.

Yalanın nəfsi yenik,
Həqiqət alt yazılı.
Qəlbi çoxdandı sönük,
Hey çəkirik nazını.

Varla yox arasında
Tutmuşuq bu həyatı -
Salamın qapısında
Sağol adlı bayatı...

**"SƏN" XƏSTƏLİYİ**

Sən bir qədər yüksəyə
Uzaqlaşdın...
Əzizim,
Ordan necə görünür
Mənim kiçilmiş sevgim?
Mənim böyük ürəyim,
Sənin böyümüş gözün?
Mənim arzu-diləyim,
Sənin verilmiş sözün?

Ümidimə toxunma,
Yoluxub sənsizliyə.
Uduzma istəyirəm
Sən adlı xəstəliyə...
Belə salamat qalsam,
Sənsizlik ən yaxşısı.
Böyümüş kiçikliyin
Çarəsi qəm yaxşısı...

**RUHUMUN PƏRVANƏSİ**

Vəhdətdi qanadların
Şamın yanan köksünə.
Həsrətinmi susayıb
Sevgi dolu nəfsinə?!

Laləni həkk etmisən
Ruhunun kandarına.
Bir gün sönər alovun,
Gül də çatmaz karına.

Ümidlərin istidən
Dili, ağzı quruyub.
Sənin qəlbin nə boyda
Hislə, közlə yoğrulub?!

Köynəyimdə iz qoyub
Alov saçan ürəyin.
Elə gözəl yanıb ki,
Yamağa yox gərəyi...

Tüstün gözü yaşardır,
Ruhumun pərvanəsi.
Bircə çapığın da yox
Xatirənə dönəsi.

Biz ikimiz bu şamın
Şöləsinə dalmışıq.
O bitən günə kimi
Arzularda yanmışıq...

**YASƏMƏN İTKİSİ**

Baharın bir üzündə
Min rəngi var həyatın.
Arzusu çiçəkləmir
Qiyam çəkir bayatım.

Zaman elə qaçıb ki,
Uşaqlıq xatirəmdən.
Dərdlərim çiçəkləyib
Böyüklük çənbərimdə.

Yaz gələndə qoxurdu
Niyyətimiz vətəndə.
Ona ninni oxurdum:
Xəyalları nazəndə.

Böyümək asan oldu,
Böyüklüksə bir zülm.
Ona yamaq tikməyə
Görmədim vaxtdan lüzum.

O xallı böcəyə də
Daha inanmıram mən.
Bir vaxt tutmadı sözün,
Gətirmədi yasəmən.

Beşləçəkli yasəmən
Axtarırdım həmişə.
İnancım da qocaldı,
Lənət dedim keçmişə.

**TƏNHALIQ QULU**

Mən tənhalıq quluyam -
Qurumuş çiçəklərin
Qoxusu var solumda...

Mən cismimin yarısıyam -
Hissə-hissə dağılıb
Yığılmışam boyumda...

Mən ruhumun nəfsiyəm -
Qanad açıb uçmuşam
Allahımın yolunda...

Mən uğursuz kəlməyəm -
Hərf-hərf olmuşam
Hekayəmin sonunda...



**VAQİF YUSİFLİ**
Filologiya elmləri doktoru

# HƏKİM, ŞAİR, BƏSTƏÇİ – BU, ŞAHİN MUSAOĞLUDUR

**Ya azad ol, ya candan keç,**
**İki yoldan birini seç,**
**Azadlığın şərbətin iç,**
**İgid əsgər, möhkəm dayan!**

**Şəhid qanı axan torpaq**
**Yad ayaqda qalmaz tapdaq.**
**Düşmənlərin qan qusacaq -**
**İgid əsgər, möhkəm dayan!**

- neçə illərdir bizi qələbəyə səsləyən bu mahnını Şəmistan Əlizamanlının möhtəşəm ifasında eşidir, Azərbaycan əsgərinin qətiyyətini alqışlayırıq. Mahnı bizə o qədər təsir edir ki, bəzən onun müəlliflərinin kim olduğuna belə diqqət yetirmirik. Mahnının sözləri də, musiqisi də Şahin Musaoğlunundur...

Mənim üçün kimdir Şahin Musaoğlu sualını vermək yerinə düşməz, çünki bir şair və bəstəçi kimi o, artıq bütün sənətsevərlər arasında tanınır, sevilir. Amma şair və bəstəçi kimi tanınmamışdan öncə Şahin Musaoğlu həkim idi (indi də həkimdir). Tibb İnstitutunu bitirəndən sonra (1986-cı ildə) Biləsuvarda, Qədirli adına Mərkəzi Dənizçilik Xəstəxanasında, Müdafiə Nazirliyi tibb idarəsində çalışıb. Bu, o illər idi ki, Şahin Musaoğlu rahat iş yerlərində sakit dayana bilmirdi.

**Çağırır Vətən,**
**Çağırır ana.**
**Xain düşməndən**
**Qisas almağa**
**Bu hərb:**
**Bu meydan,**
**Bu ölüm, bu qan:**
**Döndərə bilməz**
**Bizi bu yoldan**

- deyib Qarabağda döyüşən, ağır yaralanan əsgərlərimizin imdadına yetişir.

Onun şairliyi də, bəstəçiliyi də həkimliyindən - yaralı Azərbaycan əsgərlərinin palatalarından başladı desəm, yanılmaram. Təbii ki, Şahin Musaoğlu o günlərə qədər şeir də yazırdı, musiqini də sevirdi. Amma bir gün...

Milli qəhrəman Yusif Mirzəyev döyüşdə yara alıb, xəstəxanada müalicə alırdı. Şahin doktor Yusifə və o xəstəxanada yatan Şəmistana tez-tez baş çəkirdi. Şahinlə Şəmistan arasında bir-birini tam anlayacaq dərəcədə sənət birliyi yaranırdı. Və bu birliyin ilk töhfəsi "İgid əsgər, möhkəm dayan" savaş türküsü oldu. Bu türkünü onlar Azərbaycanın ilk batalyonuna və Yusif Mirzəyevə həsr etdilər. Yusif palatada gəzişəndə, öz-özünə oxuyurdu bu mahnını.

Şahin Musaoğlunun şairliyi ilə bəstəçiliyi əksər hallarda bir-birini tamamlayır. Şeirlərində musiqi, bəstələdiyi mahnılarda isə lirika yaşayır. «Yaşayır» demək azdır, onun şeiri də - musiqisi də bir kökdən boy atırlar.

"O zaman, deyəsən vaxt qovuşanda şeirlə musiqi bir ucalırdı". Əli Kərimin bu misrası böyük kaman ustası Habil Əliyevə həsr olunub. Əslində, poeziyasız musiqi, musiqisiz poeziya yoxdur və ola bilməz. Hətta yüzlərlə, minlərlə şeir var ki, onları musiqiyə, mahnıya çevirə bilməzsən, amma onlarda musiqiyə məxsus ritm, ahəng yoxdursa, şeir hesab edilməz...

**Dalğalansın üfüqlərdə**
**Aylı-ulduzlu bayraq.**
**Alovlansın ürəklərdə**
**Azadlıqdan bir ocaq.**
**Qalx, bir də qalx, Azərbaycan!**
**Atəşində qəmi yandır.**
**Nifrətini bayraq edib,**
**Başın üstə dalğalandır.**

"İstiqlal marşı"dır bu şeir və o şeiri hissiz, həyəcansız oxumaq mümkün deyil. Amma onu təkcə şeir kimi yox, həm də mahnı kimi oxumaq gərək.

Şahin Musaoğlu 35 mahnı bəstələyib, 20 mahnının sözləri ona məxsusdur: «Cənab leytenant», «Ağ ümid», «Birinci batalyon», «Səma şahinləri», «Səfərbərlik marşı», «Qvardiysa marşı», «Şuşa marşı», «Azadlıq yanğısı» şeirləri mahnılarda da öz ömrünü yaşayır... Amma Şahin Musaoğlu çox sevdiyi şairləri də unutmur - Əhməd Cavadın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, Hidayətin, Ramiz Rövşənin, Rüstəm Behrudinin, Leyla Əliyevanın şeirlərinə də mahnılar bəstələyib. Demək olar ki, bütün bu mahnılarda vətənpərvərlik duyğusu aşır-daşır. Onun «Ağ ümid» kitabına yazdığı ön sözdə Ramiz Rövşən deyir: «Bir bəstəkar kimi onun yaradıcılığının əhatə dairəsi daha genişdir; lirik sevgi nəğmələrindən milli, dini, mifoloji məzmun daşıyan mahnılaracan..."

Əgər Şahin Musaoğlunun sənət tərcümeyi-halının əvvəlində Şair sözü gəlirsə, onda bu şairliyi təkcə savaş türküləri ilə məhdudlaşdırmaq olmaz. Mən onun müxtəlif mövzularda yazdığı onlarla şeirini oxudum və bu şeirlərdə onu sözə poetik məna verən, özünəməxsus üslubu ilə diqqəti cəlb edən bir şair kimi də tanıdım... Şeirlərində bədii təsvir vasitələri (təşbehlər, metaforalar) sözün yeni məna çalarlarına yol açır. Məlum mövzularda yeni söz deməyə. Məsələn, «Eşq hekayəti» şeirində sevgi anlayışına diqqət yetirək:

**Sevmək -**
**yalançı bahara aldanan çiçək -**
**elə ifacıq ki,**
**elə məsum ki...**
**doğulmadan ölən bəxtsizlər kimi –**
**boğuldu öz içində,**
**Qovuşmağa uzalı əlləri**
**havadan asılı.**
**yaşanmamış günləri taleyə təslim...**
**sevmək -**
**dayanmaq!**
**durmaq!**
**səbr etmək!**

**dözmək!!!**
**Dözə-dözə üzülmək;**
**Dərd sapına düzülmək...**

- Bu şeir sevginin hicranı – ayrılıq məqamını ifadə edir. Amma başqa bir şeirində - “Etiraf”-da sevginin “Bahar yağmuru”nu, “Ay şöləsini görürük”.

**Vücudu çiçək yatağı,**
**Qızılı saçları yarpaq-yarpaq...**

Şahin Musaoğlu «Öyüd»şeirində sevgi haqqında daha maraqlı və poetik incələmələrlə diqqəti cəlb edir:

**Sevmək - bulud kimi dolmaqdı,**
**Yağış olub yağmaqdı,**
**Can verib,**
**can almaqdı.**
**ruzi-bərəkətdi sevmək.**
**...bir bulud kölgəsində**
**Təpədən dırnağadək islanmaqdı.**

Mən nəyə görə Şahin Musaoğlunun sevgi şeirləri üzərində dayandım? - deyərdim ki, o, içində, duyğularında yaşanılmış sevgidən söz açır...

Ümumiyyətlə, sözlərə, poetik məna vermək, təşbehlər silsiləsi yaratmaq Şahin Musaoğlunun şeirlərində nəzərə çarpan bir məziyyətdir. Onun fikrincə, «çiçək torpağın nəfəsi”, “tütək dərdin səs açarı”, “könül - qəmin həvəskarı” və s.

Şahin Musaoğlunun bir sıra şeirləri Şuşaya - Qarabağa həsr olunub. Amma «dəstədən geri qalmaq» naminə yazılmayıb bu şeirlər, savaş türkülərinin davamıdır bunlar.

**O dağ bizim dağımız,**
**Zirvəsi vüqarımız.**
**Gözləyir bayrağımız**
**Onu xeyli zamandı**
**Zaman bizim zamandı.**
**Azərbaycan Qarabağ,**
**Qarabağ Azərbaycandır!**

Şahin Musaoğlunun 60 yaşına həsr etdiyim bu yazıda onun yaradıcılığı və ictimai fəaliyyəti ilə bağlı da söz aça bilərəm. Şahin Musaoğlunun gözəl təbiət şeirləri var. («Payız», «Qızılağac melanxoliyası» və s.) - təbiət gözəlliklərini poeziya diliylə ifadə edir.

Şahin Musaoğlu yapon şeirindən gələn haykular yazır, pis də yazmır. Müasir həyatın, cəmiyyətdə baş verən mənfi, neqativ hallardan söz açır. Nizami Gəncəvinin 880 illiyinə “Beş qapı” pyesini qələmə alır – bu pyesdə onun qəhrəmanlarını Nizami ilə görüşdürür. Şairin fəlsəfi dünyasına “səyahət” edir. Şahin Musaoğlu Mübariz İbrahimovun döyüş yolunu işıqlandıran “Mübariz” pyesini də yazıb - özü də mənzum şəkildə və Milli Qəhrəmanımızın xarakterini bir pyes daxilində dramatikləşdirir. Təqdim etdiyi obrazlar real və həyatidir.

Nəhayət, onu da qeyd edim ki, Şahin Musaoğlu Azərbaycan Yazıçılar Birliyində Hərbi Vətənpərvərlik Komissiyasının sədridir.

Şahin Musaoğluya uğurlar arzulayıram – yolu, məramı Vətən sevdalısı belə bir insana...



## MİRZƏCAN AĞABALAYEV

**DARIXDIRIR ADAMI**

Xatirələr də darıxdırır adamı,
əlinə götürüb qoyduğun
ağ-qara şəkillər də.
Hərdən darıxdırır adamı
doğulduğun ay da, gün də,
sənə gətirilən güllər də.
Kömək etmir yazılan mesajlar...
Darıxanda şeir oxu,
oxuya bilməsin deyə kimsə
sol əllə gözlərinə yazılmış şeirləri.
çiçək açan misralara bax:
alyanaq, qarabirçək...
Bax üzünə heyranlıqla o qızın
və ah çəkmədən söylə:
nə gözəlmiş
sevdanın əlindən tutub rəqs eyləmək...

**SEVGİ YAŞIM**

Sevginin elə yaş vaxtıdır ki,
Yüz yol dənizə baxsam da,
dəniz ola bilmirəm -
hirsindən atıb özünü sahilə,
intihar edir dalğalar.
Sevgidən susuz yarğan kimidir gözlərim,
buludlar ağlayır mənim yerimə...

Quşun gülləsiz daş kimi
yerə düşən vaxtıdır sevgi yaşım.
Sevginin elə yaşındayam ki,
Hələ Məcnun çatmayıb o yaşa...
Vaxt elə vaxtdır ki,
Dünya payız kimi:
bütün ağaclar töküb yarpaqlarını -
yer yox gizlənməyə,
hamı görür mən dəlini.
Yaralı quş kimi
yanımdan ötür payız.

Azmış yuxu kimidir dünya:
Hər yan ilğım kimi,
nə var yarıyuxulu.
Girsən də min oyuna,
əlin də çatmır özünə.
Qayıt demirəm,
Xızır ol, qaytar məni
toranlı sevgi yolundan
qədim ilin dan sökülən sentyabr ayına.

**BU PAYIZ**

Bu payız
gördüyüm bütün ağaclar sənə oxşayırdı,
xəzəl yarpaqlar da təbəssümlə baxırdı üzümə.
Hamısında sevgi gördüm,
ayrılıq yox.
Təzədən sevən ürək olmaq istədim...

Bu payız
gördüyüm bütün çiçəklər
baxırdı üzümə çobanyastığıtək.
sevgi axırdı gözlərindən,
ayrılıq yox.
Əlində çiçək olmaq istədim...

Baxdım göy üzünə,
gözləri dolu buludlara baxdım.
Sən tərəfə yüyürərkən
Plaşımın yaxalığını
sevgi əlləriylə özü qaldırdı külək.
küçəmizə ayrılıq səpən yağış yox,
səni gətirən külək olmaq istədim...
Bu payız

gördüyüm nə vardısa,
Sənə oxşayırdı -
gözəl idi sənintək.
Hamı özü boyda sevgiydi,
Ürəyimdən nə olmaq keçmədi, İlahi...

**VİDA ƏVƏZİ**

Bu yaşda
adını nə qoyub
"sevirəm" deyim sənə,
inanmaz heç kim sənə.
Bu yaşda baxıb xumar gözlərinə,
keçsə də ürəyimdən,
qarımış tilsimi qırıb,
"gülüm..." deyə bilmədim sənə.
Bu yaşda,
ilk sənə dediyim o sözün altından keçib,
həsrət dərəsi gözlərindən ucub,
dilimin ucunda "əlvida" sözü,
ilk dəfə görmüş kimi,
son dəfə baxdın gözlərinə.
Birində həsrət, birində vüsal,
uzaqdan iki göz baxırdı mənə.
Susdum, uddum dilimi...
Adına çəkərkən dilimi yandıran aha,
Mələklərin yazdığı gözəl günaha
Bağışla, bağışla, bağışla məni.

**ELƏ BİR YER-GÜN OLA...**

Soyuq bir otaq ola,
nə mey ola, nə kağız.
Səni əvvəlki kimi
boğa, öldürə payız.
Otaqdakı şamın da
nəfəsi bir udumluq,
çətin çıxa sabaha.
Dərd-qəmlə can olandan
nəşəsi bir atımlıq -
neyləsin yazıq,
yüz yol batıb günaha...

Elə bir otaq ola,
dərd, kədər evi – hüzur.
Bir kəlmə kəsmək üçün
ya sən deyəsən,
ya da
dərd deyə sənə – Buyur!
Özün-özündən hürküb
üzərlik yandırasan,
göz dəyməsin dərdinə.
səninlə sirdaş olub
axı düz bir qərinə.
Ovuc boyda yer ola,
Ah çəkəsən, şam sönə,
dərd də qorxub gizlənə,
söz də dönməyə evə,
gülüb baxasan kefə...
Gülüşündən qan dama,
ovcun boyana qana.
Son deyib
üçüncü – sonuncu dəfə
dərdə talaq verəsən,
kef çəkdiyin dünyadan
canın qurtara bəlkə...

Elə bir yer-gün ola,
sən də payız ovunda.
Ayrılığın dalınca
qaçaqaç, qovaqovda.
Şər vaxtı talaqsız dərd -
sən çıxasan rastıma,
üzündə dünya qəmi.
Əllər boşala,
Qəfil açıla güllə.
qan apara sinəni,
Ulayasan qurd kimi.

**GÖRÜNMÜR**

Gözüm yollardadır sən gedən gündən,
Əlim göylərdədir, payım görünmür.
Göylərə baxıram qaş qaralantək,
Ulduzlar görünür, Ayım görünmür.

Buludlar yol gəlir hicran dağından,
Ürəyin islanır yağış yağanda.
Mən sel-su götürəm hər gün yuxumda,
Kür kimi kükrəyən çayım görünmür.

Təkbirtək dilimdə bitibdir bəlkə,
Qalmışam uzaqda dərd çəkə-çəkə.
Üzünə düşübdü ahımdan kölgə,
Tilsimə düşübdür, boyun görünmür.

Nə var gözlərimdə payız misalı,
Ovcuntək mənim də gözüm xınalı.
Payıza oxşayır, sözüm xınalı,
Xınalı kəkliyim, tayım görünmür.

Həsrətə yolladım nəzir-niyazdan,
Mən nubar gözlədim hər il payızdan.
Gör nə vaxtdır, xəbər yoxdu o qızdan,
Ötür hey fəsillər, yayım görünmür.



ƏLİ BƏY AZƏRİ

# YURDA QAYIDIŞ ANKETİ

(hekayə)

Şahmarın ailəsi bayram süfrəsinə yığışmışdı. Ailədə Cəfərqulu tayfasından da vardı, Mehdili, Tağılı, Kəlbə İsmayıl tayfasından da... İndi onlar üçün bunun bir o qədər də fərqi yox idi. Artıq otuz ilə yaxınlaşırdı ki, doğma yurddan didərgin düşüb gəlib əyalət şəhərinə sığınmışdılar. Kənddən köçəndə hər tayfa öz köçünü sürmüşdü. İllər keçdi, uşaqlar böyüdü, yeni ailələr yarandı. Yeni ailələr kənddəki tayfaları birləşdirdi. Nə sığındıqları şəhərdən qız aldılar, nə də onlara qız verdilər. Ötən müddət onları şəhərə uyğunlaşdıra belmədi. “Doğma yurd” deyib dad elədilər. “Doğma yurd” dedilər, dodaqları yeddi yerdən çat verdi.

Bu gün təkcə bayram şənliyinə toplaşmamışdılar, həm də ciddi bir məsələni müzakirə edəcəkdilər. Vətən müharibəsinin, işğalda olan rayonların azad edilməsindən dörd ay keçirdi. Hökumət internet üzərindən anket göndərmişdi, onu müzakirə etmək lazımdı. Şahmar kişi bu məqsədlə hamısını başına toplamışdı. Məsləhət, məşvərət etsinlər, görək kəndə kim qayıdacaq, kim qayıtmayacaq. Düzdür, ötən müddət ərzində heç kim əlini əlinin üstünə qoyub oturmamışdı, hamı qolunu çırmayıb işləmiş, qazanmış, ev-eşik sahibi olmuşdu. İndi elə etmək lazım idi ki, burdakı evlər də sahibsiz qalmasın. Eyni zamanda doğma yurda dönüb ordakı həyatı da canlandırsınlar.

-Pəh! İndi yadlarına düşüb! – Şahmar ucadan səsləndi ki, diqqətləri onda olsun. – Dörd aydır müharibə başa çatıb, torpaqlar azad olunub. Şadyanalıq ediblər. Dambadurumbla Zəfər paradı keçiriblər. İndi yadlarına düşüb ki, bəs bu qara camaatın da ağzını aramaq lazımdı. Görək kim qayıdır, kim qayıtmaq istəmir. Niyə qayıtmaq istəmir. Adama deyərlər ki, köçürəndə soruşan oldu köçürsən, ya qalırsan? İndi də elə... Hərənin evin tik, yığ avtobusa, apar tök ora. Denən bu siz, bu da sizin otuz il həsrətində olduğunuz kəndiniz. Buyurun, yaşayın. Hər evə də on qoyun, bir inək, beş də keçi ver, təsərrüfatlarını qursunlar. Gerisi sənlik deyil. Qara camaat öz güzəranını quracaq.

Əlqərəz, Şahmar kişi danışa-danışa gəlinlər əl qatdı süfrəyə, masanın üstü tərtəmiz yığışdırıldı. Ayaz baxdı ki, görsün noutbuku gətirmək lazımdır, ya yox. Sorğu internet üzərindəydi deyə anketi noutbukda doldurmalı olacaqdılar. Bayram süfrəsinə dəvət şəxsiyyət vəsiqələri ilə olmuşdu. Lağlağı eliyib deyib-gülsələr də hər kəs anketi öz pasportu ilə doldurmalıydı. Ayaz ha baxdısa da Şahmar buna əhəmiyyət vermədi.

-Hələ adama bir çay gətirin içək, sonra işə başlayarıq. Yağlı aş, ət qızartması həmişə yanğı verir.

Yeməkdən sonra çay içmək adətlərini tərgidə bilmirdilər. Kənddə belə öyrəşmişdilər, çünki orda təsərrüfat işləri o qədər çox olurdu ki, vaxt bəs eləmirdi. Yeməyini yedin, çayını iç, dur get işinin-gücünün

dalınca... Burda isə vaxt çoxdu, yeməyə də, fasiləyə də, çaya da bəs eliyirdi. Ekrandan sağlamlıq verilişi aparan həkimlər elə hey üyüdüb tökürdülər ki, yeməkdən sonra bir saat müddətində çay, su içmək olmaz, bədənin dəmirin yuyub aparır, orqanizmi zəiflədir. Kimə deyirsən, de, Şahmar bu qulağından alıb, o biri qulağından havaya vızıldadırdı. Şahmar atasından, dədəsindən bunu görmüşdü, oğlanları da Şahmardan. Odur ki, indi yeməyin üstündən dərhal çay sifarişi eşidən kimi sevindiklərindən gözləri parıldadı, hərəsi öz arvadına baxıb işarə elədi.

-Hamısı durub məni gözləyir. – Oğlanlarının işarəsi Zərnigarın gözündən yayınmadı. – İndi gəlinlər oturacaq, qaynana çay gətirəcək. Özü də yarpızlı, kəklikotulu, qantəpərli, zirəli, mixəkli...

-Mama, sən narahat olma, onlar durub gətirərlər. – Böyük oğlu Şamxal araya söz atdı. – Sadəcə, qantəpərin, zirənin yerini tanımırlar.

-Özün tanıyırlar ki, yerin də tanısınlar? – Şahmar atmacasından qalmadı.

-Hardan tanısınlar? Zirə ancaq bizdə bitir. Qalan heç yerdə belə bitgi olmur. – Bunu da Zərnigarın geoloq qardaşı Şəfi dedi.

-Xarı bülbülü də elə deyirdilər. Guya Şuşadan başqa heç yerdə bitmir. – Şamxal əlavə etdi. – Sonra bir çox rayonlarda bitdiyi aşkar oldu.

Bu dəm Şamxalın yoldaşı Nigar məcməyini masanın üstünə qoydu. Çayın gəlişi ilə ətri otağa yayıldı. Pürrəngi çayla dolu stəkanlar yuxarıya ötürüldü.

-Çay dəmləmək, gətirmək problem deyil. – Nigar sözgəlişi bildirdi. – Qorxuram bizim gətirdiyimiz çayın dadı Zərnigar xalanın dəmlədiyi kimi olmasın.

-Mamamın dəmlədiyi çaya çay çatmaz. – Şamxal tərifledi. – Mamam çaya nə qatırsa, onun tamı da, ətri də bambaşqa olur.

-Yaxşı, görək, mamanı az təriflə. – Şahmar dilləndi. – Çaylarınızı için, başlayaq, görək nə yazırıq.

Çaylar içildi. Çay süfrəsi də yığışdırıldı. Ayaz noutbuku gətirib masanın üstünə qoydu. Düyməsini basıb işə saldı.

-Birinci kimdən başlayaq? – Ayaz sözgəlişi soruşdu.

-Birinci mamandan başlayaq. – Şahmar yarızarafat, yarıciddi üzünü Zərnigara tutdu. – Yeri pasportunu gətir.

-Pasportumu gətirməyinə gətirim. Ancaq ağbirçək dura-dura məndən niyə başlayasınız, bunu başa düşə bilmədim.

-Nə fərqi var?

-Fərqi çoxdu. Ağbirçək evin xeyir-bərəkətidi.

-Nə deyirəm ki. – Şahmar təslim oldu.

Firuzə arvad süfrədən tez durub otağın o başındakı kresloya yayxanmışdı. Gözünü də zilləmişdi televizorun ekranına. Səsi zəif olduğundan güclə eşidilirdi. Füruzə arvad çox yaxındaydı deyə eşidirdi, həm də otaqda danışılanlara qulaq qoyurdu.

-Dur, yaxın gəl, ay nənə. – Şahmar üzünü ona tutdu. – İndi nəslin ağbirçəyi də, ağsaqqalı da sənsən. Nəsil sənin başına yığışmalıdır. Sən necə desən, eləcə də olacaq.

-Ehh! – Firuzə arvad bir ah çəkdi. – Elə bil heç yoxumuşlar. Dörd qardaşımın dördünü də qara torpaq bircə ilin içində uddu.

-Dözə bilmədilər ayrılığa. Sən elə bilirsən doğma el-obadan ayrılmaq asan məsələdir?

-Hardan tapım indi başına döndüyüm Dəli Qurbanı? Tüfəngi salıb çiyninə düşsün qabağa. Qayıdaq gedək elimizə, obamıza.

-Müharibədə də tüfəngiynən vuruşurdu? – Şamxal soruşdu.

-Dava başlayanda dörd igid oğlu varıydı, dördü də silahlanıb qalxmışdılar dağların başına. Sinələrini düşmənə sipər eləmişdilər. Nə gecələri vardı, nə gündüzləri, onlar qoruyurdu vətəni. Oğlanları ola-ola Qurban getməliydi döyüşə?

-Bir onlar deyildi ki? – Şahmar pərtləşdi. – Biz iki qardaş, ikimiz də ordaydıq dayna. Kəndin cavanlarının çoxu ordaydı.

-Sizə nə deyirəm ki? Eləsi də vardı beş oğlundan biri də əlinə tüfəng alıb erməni qabağına durmadı.

-Onların söhbəti bizlik deyil, öz sözümüzü danışaq. O vaxt sovetlər təzə dağılmışdı. Dığalarınan hələ əlaqələrini tam kəsmirdilər. Xəlvət-xəlvət əlaqə saxlayanlar vardı. Tüfəngi götürüb erməni dostuna, kirvəsinə güllə atmayacaqdılar ki?

-Mən nə deyirəm ki? – Firuzə arvad çiyinlərini çəkdi.

-Yaxşı, onda başlayaq. – Şahmar Ayaza işarə verdi.

Zərnigar Firuzə arvadın pasportunu gətirməyə getdi.. Ayaz gözünü noutbukun ekranına zillədi.

-Kəndinizə qayıtmaq istəyirsinizmi?

-Bıy, başıma xeyir! –Firuzə heyfslənən kimi oldu. – Bu nə sualdı? Qayıtmaq istiyirsən nədi? Otuz

ildi gözümüzün qorasını sıxmırıqmı? Canımı orda qoyub gəlmişəm. Qayıtmaya bilərəmmi?

-Bir il də keçsə, sən deyəndi. Düz otuz il olacaq ki, sən ordan çıxmısan. Otuz ilə orda can qalar? – Şahmar başını buladı. – Bir də qurd-quran açma. Suallara qısa-konkret cavab ver. Səndən başqa on adam gözləyir.

-Bəs nə deyim?

-Eləcə, hə, yox. Səni zorla məcbur edən yoxdur. Ölkə başçısı da deyib ki, könüllü şəkildə camaatı sorğulayın. Bilək kim gedir, kim getmək istəmir.

-Mən, vallah, gedəcəm. Özümü bu neçə ildə aldada-aldada qoruyub saxlamışam. Mən Əzrayıla elə-belə can verən deyiləm hələ... Oruş dərəsinin suyunda paltar yuyacam. Heç bir ağardıcı-paraşok lazım olmur. İncirin dibində palaz açıb bircə buğum qaynadırsan, qar kimi ağappaq olur. Kəhrizin suyundan daşıyıb gətirəcəm, qızdırıb çiməcəm. Kəhrizin suyunda çimən də quş kimi yüngül olur adam, elə bil indicə dünyaya gəlmisən. Adamın saçları da ipək kimi yumşaq olur, sanki uşaq tüküdür, sığalladıqca adamın özünün də xoşu gəlir. Abuseyidin suyundan da nə yemək bişirsən, dadına, tamına qüvvət verir. Burda şəhərdə istiyirsən Tiflisin, Çinin yox, İtaliyanın yox, lap İranın, Hindistanın ədvasından vur, xeyri yoxdur, həmin dadı, tamı ala bilməzsən, çünki suyu o su deyil.

-Deməli, gedirsən?

-Bəs nə...

-Onda pasportunu bəri elə.

Zərnigar bayaqdan əlində tutduğu pasportu Ayaza uzatdı. Ayaz pasportu alıb qarşısına qoydu və Firuzə arvadın şəxsi məlumatları noutbukun ekranında açılmış anket sorğusuna doldurdu.

-Halaldı nənəmə, doxsan bir yaşın içindədi.

-Yaşımı iki il az yazıblar, doxsan üç olmalıdı. – Füruzə arvad düzəliş elədi.

-Elə niyə, ay nənə? Biz eşitmişik ki, o vaxt oğlanların yaşını az yazdırırmışlar. Deyirmişlər, əsgərliyə gedənə kimi sümükləri bir az da yoğunasın.

-O vaxtın kişiləri çox ağıllıydı. Elə qızlarını da iki-üç yaş az yazdırardılar. Kimidi gəlib kənddə yoxlanış aparan ki, görüm kimin uşağı olub. Həm də müsəlmançılığa görə qızın on beş yaşı ərə gedən vaxtıydı. İki-üç yaş az yazdıranda olurdu əsl ərgən vaxtı. Ərə gedən kimi də doğmalıydı. Doğmasaydı günü olacaqdı qara.

Aralığa lal sükut çökdü. Ayaz gərginliyi yumşaltmaq istədi.

-Hə, nənə, indi sən de, mən qrafaları doldurum.

-Mən nə deyəcəyəm? Sualları oxu, özün də onlara uyğun yaz, doldur.

-Oxumağına mən oxuyum, ancaq sən nəsə deməlisən ki, mən də cavab yerinə dolduram.

-Deyim də... – Zərnigar arvad nəsə fikrə getdi. – Həə... Yaz ki, tezliklə dədə-baba yurduna qayıtmaq istiyirəm, ay hökumət. Sağ ol ki, erməniləri iti qovan kimi qovub bizim ərazilərimizdən çıxartmısan. Siz var olun. Ordumuz var olsun. Allah-təala bayrağımızı həmişə uca eləsin. Bilirən ki, müharibəyə xərciniz çox çıxıb. Uçurulub, xarabaya qoyulmuş kəndləri tikib çatdıra bilməzsiniz. Eləcə maşın ayırın, onu da edə bilməsəniz, icazə verin, özümüz tutaq, yığışıb gedək kəndə. Üzü yaya gedir, bir azdan istilər düşəcək. Hərəmiz bir alaçıq, dəyə qurub içində yaşıyarıq. Payıza kimi də daxmadan zaddan qaralıyarıq özümüz üçün. Sən eləcə dükan tikdir, avtobus ayırtdır, rayon mərkəzinə gedib-gələ bilək. Poçt açdır, klub tikdir, camaatın boş vaxtı olanda ora yığışıb nərddən, dominodan oynasın.

-Ay nənə, sənin danışdıqlarını yazmaq üçün heç bir qrafa ayrılmayıb.

-Boy, başıma xeyir. Bəs nə üçün qrafalar ayrılıb?

-Yazılıb ki, ailədə neçə nəfərsiniz?

-Yaz ki, ərim ölüb, tək qalmışam.

-Yox, yox, yazma, dayan. – Şahmar müdaxilə elədi. – Kənd icra nümayəndəsinə zəng vurmaq lazımdı. Görək Zərnigar arvadın təsərrüfatını ayırıb, yoxsa oğlanlarından birinin üstündədi. Yoxsa, hökumət bunu bizdən niyə soruşsun? İcra hakimiyyətindən siyahını götür, doldur təhvil ver. Seçkidə nətəri eliyirlər, indi də elə...

Şahmar telefonu götürüb zəng vurdu. Hamı sakitcə zəngin nəticəsini gözləyirdi. Beşinci zəngdən sonra xəttin o başında səs eşidildi:

-Alo... eşidirəm.

-Baloğlan, nə var, nə yox?

-Çox sağ ol. Yaxşılıqdı. – Azca fasilə oldu. – Kimdi?

-Tanımadın?

-Yoox!

-Yaxşı fikirləş!

-Deyirəm tanımadım də. Bir də gecənin bu vaxtı kim kimə zəng vurur? Nə qaçhaqaçdı? Köçürük?

-Məndən çox sənə zəng vuran olur?

-Rəhmətliyin nəvəsi, deyirəm tanımadım də! Mənim sovetliyimdə 261 təsərrüfat var. Hamısı da danışmaqda natiqdi. Həftə səkkiz, mən doqquz zəng vururlar. Elə bil bu telefon şirkətləri müftə kontur paylayır. Zəng vuran da verir əngə, danış ki, danış. Ə, day, nə qədər danışmaq olar?! Vallah, sizin əlinizdən axırı özümü lallığa, karlığa vuracam. Tez elə, de görüm, kimsən, gecənin bu vaxtı nə istiyirsən? İşim var, qonağım o biri otaqda gözdüyür. – Ani ara verib davam etdi. – Bircə arayış istəmə. Gecənin yarısında təcili başçı yox ha, heç başçının dədəsinin dədəsi də qəbirdən xortduyub gəlsə, xeyri yoxdu. Kimdi idarəyi gedən, lampa işığında köhnə binada arayış yazan. Orda heç gündüz oturmaq olmur. Divarlar adamın üstünə gəlir, vahimələnirsən. Yox, yox...

-Şahmardı danışan. – Baxdı ki, Baloğlana qaldı, sözə qaldı, özü hamıdan betər əngə verəndi, bir söz de, otur gözlə, qurd quran açıb əlli dərənin suyun qatacaq bir-birinə.

-Hansı Şahmar?

-Ə, sənin sovetliyində neçə Şahmar var?

-İkisi köhnədən var idi, ikisi də təzədən doğulanlardandı. Köhnələrdən biri öldü. Mənim hesabımınan üç olmalıdı. Ancaq kompüterdə baxıram ki, yenə dörd göstərir.

-Öləni o tərəfə elə. Qalanlardan elə ikisi mənəm dayna.

-Məzələnirsən mənnən? – Baloğlan ciddiləşdi. – Necə yəni ikisi mənəm?

-Biri mənəm, biri də nəvəmdi, dayna. Balaca oğlum oğluna mənim adımı qoyub ki, sağlığımda addımı, adaşımı görüm. O dünyaya gedəndə də gözütox gedim, day sizin kimi sağır yox.

-Boo, ə Şahmar, sənsən? Ə, day belə de də... Yoxsa başlamısan ki, tanıdın, tanımadın. Ə, mən münəcciməm, yoxsa falabaxan, öncəgörən, ekstrasens? Əlimi iyləmişəm ki, baxım, görüm kim zəng eliyəcək? Sən Allah, qısa elə, evdə qonaq var.

-Qaçqınkomdan anket göndəriblər, onu doldururuq.

-Nə anket? Onu sizə kim göndərib? Bəs mənim niyə bundan xəbərim yoxdu? Başçı bizə bu barədə hələ heç nə deməyib.

-Deyirlər bir həftədi yayılıb. Nə avız başçı saa heç nə demiyib?

-Dədəmin goru, xəbərim yoxdu, başçı da demiyib.

-Burda hamı doldurub.

-Nə anketdi elə? Kim gətirib?

-Heç kim gətirmiyib. İnternet üzərindən yayılıb.

-Pah atonan! Belə de... internet bütün dünyanı kor qoyacax, vaallah!

-İndi nə deyirsən, doldurax, doldurmuyax?

-Doldurmağına bir sözüm yoxdu, doldurun, ancaq bir az ehtiyatlı doldurun, artıq-əskik heç nə yazmıyın. Yəqin o anketi lap yuxarılarda da oxuyacaqlar. Birdən siyasi səhv-zad buraxarsınız ha... dədəmin goru haqqı, tifağınızı odduyarlar. Sonra deməyin ki, Baloğlan müəllim demədi. Mənə də üçpapaq İmaşın nəvəsi Baloğlan deyərlər. Birdəfəlik sırğa elə, sözlərimi as qulağından: "Ehtiyatlı igidin anası ağlamaz!"

-Zərnigar nənəmi soruşacaqdım. Təsərrüfatda kimin üstündədi?

-Kənddən köçəndə kimin üstündəydisə, elə onun üstündədi. Ə, məylim biz təsərrüfat bölürük, təsərrüfat ayırırıq? Başçı tifağımızı dağıdar. Elə orda prokuroru çağırıb soxdurar içəri.

-Kənddən köçəndə dədəmin təsərrüfatındaydı.

-Sonra nə oldu?

-Nə olacaq? Dədəm öldü, aparıb İmamzadə qəbiristanlığında basırdıq. Arvad da tək qaldı.

-Qoca vaxtı təzdən ərə verəcəkdin? Tək qalıb qalıb də... – Baloğlan nəsə fikirləşdi deyə qısa fasilə verdi. – Sənnən nə desən çıxar. Bax ha, ərə verəsi olsan, fiktivni nigaha da salsan, elə elə o da məcburi köçkün olsun. Yoxsa... dərhal qeydiyyatdan çıxararlar.

-Deyəsən, fəlfəlliyirsən ha...

-Sənin nə danışdığından xəbərin var? Nə deyirsən, mən də cavabını verirəm. Hə, de görüm çörək pulunu kimin kartı ilə alır?

-Bizim kartımızla.

-Tək təsərrüfat olmur. Yazmışıq sizin üstünüzə, deməli, sizin təsərrüfatdadı.

-Bizim kartla yeddi nəfər çörək pulu alır. Deməli, yeddi nəfərik?

-Elədir.

-Üç oğlumun üçü də evlənib, ailə-uşaq sahibidirlər. Sən indi onların təsərrüfatını ayırmamısan?

-Yox! Qəti icazə yoxdur.

-Məcburi köçkünlükdən sonra az qalır otuz il olsun.

-İstiyir lap əlli il olsun, icazə yoxdur. Başçı dədəmizi qəbirdən çıxardıb dalımıza şəlləyər.

-Ə kişi, ölkənin qaydası-qanunu var. Adam on səkkiz yaşdan sonra istiyər təsərrüfatdan ayrılar, istiyər valideynləri ilə qalar.

-Siz hələlik anketdə bir yerdə yazın. Sonrasına idariyə gedəndə baxarıq.

-İdarəyə gedəndə nə dəyişəcək?

-Heç nə.

-Bəs niyə deyirsən?

-Bəs nə deyim?

-Day heç nə.

-Başın salamat qalsın deyə hamını bir təsərrüfat yaz.

-Sonra deməzsən ki, aldatdım?

Baloğlandan səs çıxmadı. Şahmar əsəbləşdiyindən gülümsəyib telefonu söndürdü.

-Mənim hökumətimə bir bax. İcazə yoxdu təsərrüfatdan ayırmağa, icazə yoxdu... Bəs doxsan yaşlı qoca arvadı gətirib bizim təsərrüfata birləşdirməyə icazə var?

Ayaz Şahmarın üzünə baxırdı.

-Nə gözünü döyürsən? Yaz ki, tək təsərrüfatdı. Qoy arvada ayrıca ev tikib versinlər. Dədə yurdunu bərpa etməliyik, ya yox? – Sözünə bir az ara verdi, Baloğlanla danışıqdan sonra özünə gələ bilmirdi, əsəbdən dodaqları səyriyirdi. – Şahmar ancaq sizə lazım olanda yada düşür. Nə vecinizədi. Deputatınızı seçib oturmusunuz. Şahmar beş il yada düşməyəcək.

-Bunun anketə nə dəxli var?

-Dəxli odur ki, Şahmarı ancaq onlara lazım olanda axtarırlar. Deputat seçkilərində gündə az qala beş dəfə zəng vururdular. “Şahmar, amanın bir günüdü, filankəsə də de, bir səs də qənimətdi!” İndi noldu? Şahmarın adını telefonuna yox, heç it dəftərinə də yazmayıblar.

-Baloğlanın başın burax, de görüm, Firuzə arvadın təsərrüfat məsələsinə nə yazaq?

-Tək təsərrüfat, tək ev. Başqa cür ola da bilməz. Madam ki, Allah-taala Əzrayılı Firuzə arvadın canını almağa göndərməyib, deməli, hələ o yaşamalıdır. Yaşaması üçün də evi olmalıdır.

-Day, yaşını yaşayıb, dişini dişəyib. Bundan sonra geridə qalanı yox ki, gözü yollardan yığılmasın.

-Bıy, başıma xeyir! – Füruzə arvad elə bil yatmışdı, ayıldı. – Bəs o yurda bu külfəti kim qaytaracaq? Mən hələ sənin gəlinlərinə döşək salmağı, yorğan sırımağı öyrətməliyəm. Sac asmağı, qavlrqa qavırmağı göstərməliyəm. Kirkirə çəkdirməliyəm. Qatığı necə çalmaq lazımdı, pendir tutmaq üçün qursağı heyvanın harasından kəsirlər, onu başa salmalıyam. Kəndin bir aləm işi var. Heyf deyil kənd həyatı. Yoxsa, gəlib yığışmışıq şəhərə, hər şey yaddan çıxıb. Bilirsən də Əzrayıl niyə gəlib canımı almır? Bunları özümlə o dünyaya apara bilmərəm. Kiməsə verib getməliyəm.

Araya sükut çökdü.

-Ayaz, - Şahmar dilləndi. – ordan sualları oxu, görək day nə yazıblar?

-Sual: “Öz kəndinizə qayıtmaq istəyirsiniz, yoxsa başqa kəndə?”

-Əlbəttə ki, öz kəndimizə. Başqa kənddə mənim nə azarım var?

-Öz kəndimizə. – Ayaz bunu təkrarlayıb klaviaturaları dingildətdi. – Qeyd elədim. Sonrakı sual: “Öz kəndinizə qayıtmaq mümkün olmadıqda, hara qayıtmaq istərdiniz; qonşuluqdakı kəndlərdən birinə, yaxınlıqdakı qəsəbəyə, yoxsa rayon mərkəzinə?”

-Ay bala, mən heç nə başa düşə bilmirəm. Bizi erməni otuz ildir ki, didərgin salıb, dədə-baba yurdumuza həsrət qoyub. İndi də hökumətin bu sorğu-sualı heç xoşuma gəlmir. Necə yəni öz kəndinizə qayıtmaq mümkün olmadıqda..? Bəyəm torpaqların hamısı alınmayıb ki?

-Ay arvad, özün də deyirsən ki, dünyagörmüş adamam. Bu anket bir sənin üçün nəzərdə tutulmayıb ki... Ümumidir, hamı üçündür. Xudafərində Araz çayının qabağın kəsiblər, su-elektrik stansiyası tikiblər. O taylı-bu taylı on-on beş kənd qalıb suyun altında. İndi həmin kəndlərin sakinlərini hökumət neyləməlidi; qaytarmalıdı, yoxsa Bakıda saxlayıb buraxmalıdı taleyin ixtiyarına?

-Yox!

-Əlbəttə, yox. Odur ki, yerli-yataqlı soruşur. Deyir görüm qonşu kəndlərdə yaşamaq istəyirlər, yoxsa şəhər həyatına öyrəşdiklərindən qalıb rayon mərkəzində yaşamağa üstünlük verirlər. Bir də elə kəndlər var ki, yeddi-səkkiz evdən ibarət olub. Həmin kəndləri yenidən bərpa etməyin nə mənası var?

-Niyə elə deyirsən? Ay bala, hər quşa, hər heyvana öz yuvası əziz olan kimi insana da öz evi, öz kəndi doğmadır.

-On dəfə imama ağlıyanda, bir dəfə də yezidə ağlamaq lazımdı, deyiblər. Bu hökumət anası ölmüşün anası yoxdu deyə elə hamı özünü fikirləşir. Bir dəfə də hökuməti fikirləşin də...

-Hökumətlik burda nə iş var?

-Çox iş var. Məktəb tikilməlidi? Tikilməlidi. Kitabxana, dükan, klub, poçt, tibb məntəqəsi... Neçə ildi örüş xamlıyıb, indi oralarda ilan əlindən tərpənmək olmur... yəqin.

-Yaxşı, o sual mənlik deyil, keç o biri suala.

Ayaz kompüterin ekranına baxdı.

-Qayıdandan sonra hansı sahədə işləmək istərdiniz; dövlət idarə və müəssisələrində, özəl sektorda, yoxsa fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olardınız?

-Əla sualdır. – Şahmar müdaxilə etdi. – Ancaq bu sual da sənlik deyil. Doxsan bir yaşında...

-Doxsan üç. – Firuzə arvad düzəliş etdi.

-Olsun doxsan üç. – Şahmar razılaşdı. – Doxsan üç yaşında arvad bundan sonra gedib dövlət idarəsində süpürgəçi işləməlidi? Bu anketi hansı savadsız hazırlayıb, görəsən? Uzaq başı toyuq-cücə saxlaya bilər.

-Fərdi sahibkarlıq deyəndə yəqin elə onu nəzərdə tutublar. Fərdi sahibkarlığa bax ha...

Ayazın bu düzəlişinə hamısı gülüşdülər.

-Keç o biri suala. – Şahmar qəti fikrini bildirdi. – Bu sual nə nənəmlikdi, nə arvadlıq, nə də mənlik. Biz pensioner adamlarıq; istiyir altmış altı-yetmiş yaşlı arvad-kişi olsun, istiyir doxsan üç yaşlı qoca qarı.

-Nənə təndirin yeri yadındadı?

-Niyə yadımda deyil, ay bala. Bayaq yorğan-döşək deyəndə, təndir də dilimin ucundaydı. Təndirsiz kənd olar. Allaha yalvarmışam, maa möhlət versin. O kənddə bir təndir quracam, çörəyinin dadı ellərə yayılsın. Şəhərə gələndən çörək dadı nədi, bilməmişəm. – Burnu ilə nəfəs aldı. – Oxxay, uzaq keçmişdən burnuma çörəyin iyi gəldi.

-Bəlkə, Dəmirlə əlaqə saxlayaq? – Ayaz təklif etdi. – Bir aydan çoxdur ki, danışmırıq. Görək onlar nə deyir? Belə bir anketdən xəbərləri varmı?

-Hə, yaxşı olar. Əvvəllər tez-tez danışırdıq. – Zərnigar onun sözünə qüvvət verdi.

-Amerika ilə buranın arasında doqquz saat fərq var. İndi onların iş-gücünün qızğın çağıdı. – Şahmar etiraz etmək istədi.

-Elə əsl vaxtıdı. İndi yəqin ki, nahar fasiləsindədirlər. Çörəklərini yeyib dincəlirlər.

-Zərnigar elə dedi ki, elə bildim Dəmir nobata gedib. Heyvanı yığıb Pəyə dərəsinə mağala, iştahla çörəyini yeyir. – Firuzə arvad sözündən qalmadı.

Şahmar telefonu götürüb zəng vurdu. Bir neçə dəfə zəng gedəndən sonra ekran açıldı və Dəmir görüntülü danışmağa başladı:

-Bayramınız mübarək. – dedi. – Nə yaxşı hamınız bir yerdəsiniz?

-Bayramın mübarək. – Şahmar cavablandırdı. – Həm bayrama görə yığışmışıq, həm də hökumət anket göndərib, onu doldururuq.

-Mənim də qabağıma çıxdı, fikir vermədim. Burda hökumətin adından elə gic-gic sorğulara əhəmiyyət vermirlər. Burda hər kəs özünə bir hökumətdi. Yaxşı nə deyirlər?

-Soruşurlar ki, kəndə getmək istəyirsən, ya yox?

-Hələ gedən olmuyub?

-Yox!

-Niyə?

-Otuz ildi erməni buraxmırdı, indi də özümüzünkülər.

-Nə deyib buraxmırlar?

-Deyirlər ərazi minalıdı, olmaz. İnfrastruktur yaradılmalıdı. Sonra kəndlər bərpa olunmalıdı. Sonra da... nə bilim, daha nələr, nələr.

-Eşitdim bir kənd tikməyə başlayıblar.

-Hə. Adına "Ağıllı kənd" deyirlər.

-Bəs o biri kəndlərin taleyi necə olur?

-Hələ müzakirə aparırlar.

-Yəqin gözləyirlər ki, o biri kəndlər də "ağıllansın", sonra tikintisinə başlasınlar.

Əlaqə kəsildi. Telefona zəng gəldi. Baloğlan idi.

-Şahmar, - odlu-alovlu danışırdı, çox həyəcanlıydı. – İndicə başçının köməkçisi ilə danışdım. Deyir anketləri düz doldurun. Konkret orda nə sual qoyulub, qısa cavablandırın; hə, yox. Artıq-əskik heç nə. Sizin taleyiniz o anketdən asılı olacaq. Hökumət bəyənsə, dədə-baba yurduna qaytaracaq, bəyənməsə, ömrü boyu o yerlərə həsrət qalacaqsınız.

Şahmarın rəngi də əhval-ruhiyyəsi kimi qaraldı. Bayram əhvalına toplaşan külfət onun rəngindən anladı ki... hələ çox var.

**22-25 mart 2021-ci il,**
**Gəncə şəhəri**



## ZÖHRAB MEHDİ

**GÖY DƏRDİM**

...Atam əkdi göy üzünə,
Anam su verdi, göyərdim.
Bir gün çəkdi yer özünə,
Belə başladı göy dərdim.

Ömrümü sürüb gəlmişdim,
İndi ömür sürür məni.
Cənnəti görüb gəlmişdim,
Cəhənnəm püskürür məni.

...Hər gün qayıtdım əvvələ,
Hər gün yenidən yazıldım.
...Elə bildim çoxalıram,
Çoxaldıqca da azaldım...

Gerçəyəm, yalanam belə,
Yadam, bu dünyaya yadam...
Çıx içimdən, azad elə,
Burax məni, burax, adam!

**OLMASIN**

Mənimlə işiniz olmasın
Olmasın ki, mən də işimdə olum.
Olmasın... Kim var məndən arxada,
Kim var öndə, işimdə olum.

Bir az qaşlarım kosadı, bilirəm,
Yerişim bir az yöndəmsiz...
Nə yeyirəm, nə içirəm -
Bunu da etməyin gündəm siz...

Yatmışam, oyağam və sair...
Ağıllıyam, dəliyəm... Olmasın.
İndi hardayam, necəyəm,
Diriyəm, ölüyəm... Olmasın.

Bir gün yovşanam, bir gün ot
Bir gün böcəyəm, bir gün qurd.
Bir gün obayam, oymağam,
Bir gün də viran qalmış yurd...

...Mənimlə işiniz olmasın,
Torpağam, suyam... Olmasın.
Olmasın, atam, qardaşım,
Mən... Mən elə buyam, olmasın!

**OVUDA BİLMİRƏM**

Məni ovutmağa cəhd eləməyin,
daha ovunmağa səbəb, qalmayıb.
Mənim hisslərimə qəsd eləməyin,
Məndə nə taqət var, nə təb qalmayıb.

...Tüstüsü kor edər, atəşi yaxar
nə vaxtsa çatdığım ocaqlar məni.
Sevinc üz çevirər, bağrına basar,
kədər gəl-gəl deyər, qucaqlar məni.

...Böcək də, ağac da, ot da pərişan
iki vur ikidi... bu tənlik deyil.
...Ovuda bilmirəm sevdiklərimi -
ovunmaq?.. Dur bir az, bu mənlik deyil.

...Məni ovutmağa cəhd eləməyin,
hissim də, duyğum da əzmdən düşüb!
O adil, o böyük dediyin var, ha...
düşüb, dostum, o da gözümdən düşüb!

## YUVARLAĞAM

...Belə görünməyimə baxma,
Başdan-ayağa yuvarlağam.
Ən azı olduğum qədər
Məcburam olmağa – yuvarlağam...

...Lap elə binədən, əzəldən,
Ömür yuvarlaq yağmışdı.
Yuvarlaq əkmişdi atam,
Anam da yuvarlaq doğmuşdu...

...Əslində, bir mən deyiləm ki
Dağlar, dənizlər də yuvarlaqdı.
Arılar, quşlar, ağaclar,
Vadilər, düzlər də yuvarlaqdı...

...Yuvarlaqdı içimdəki duyğular,
Ruhumdakı ağrılar yuvarlaqdı.
Yalanlar... Bilmirəm, bilmirəm,
Bütün doğrular yuvarlaqdı...

...Belə görünməyimə baxma,
Təpədən-dırnağa yuvarlağam.
Ən azı, ən azı olduğum qədər
Məcburam olmağa – yuvarlağam...

## SƏN BİR AZ FƏRQLİYDİN

Sən bir az fərqliydin, sən bir az fərqli,
Yerişin, duruşun, boyun fərqliydi.
Sən bir az fərqliydin, bir az e, bir az,
Baxışın, gülüşün, huyun fərqliydi.

Sən bir az fərqliydin, nə bilim, bəlkə
Tək mənim anlayıb duyduğum qədər?!
Hamıdan, hər şeydən fərqli bir yerə,
Fərqli bir köşəyə qoyduğum qədər!

Sən bir az fərqliydin, bir az, lap bir az,
Demirəm təpədən-dırnağa, bütün.
Nə danım, bir az da mən "fərqli" oldum
Fərqli olduğunu fərq etdiyim gün.

Sən bir az fərqliydin, bax, canım-gözüm,
...Görürsən o bir az nə qan elədi?!
Səni sultan, məni bu səltənətə,
Bu boyda taxt-taca xaqan elədi!

## ADDIM ATDIM

...Yanlış, ya doğru – bilmirəm,
mən bu addımı atacam.
Vermişəm qərarımı, vermişəm,
Və içmişəm andımı, atacam!

Başıma nə gəlir, gəlsin,
Önümdə kim durur, dursun.
Mən bu addımı atacam,
Lap yer udsun, göy vursun!

Bu addım bəlkə başlanğıc,
bəlkə bu addım sonuncu?!
...Atacam, bax elə indicə,
Hər nə olursa sonucu!

...Mən bu addımı atacam,
Tanrım, bu mən, bu da addım.
...Gözün aydın, gözüm aydın,
Atdım, görürsənmi atdım?!

## GETMİŞƏM

Yığışdırın əşyalarımı, yığışdırın,
Üzünüzə, gözünüzə bulaşmasın.
Heç nəyim qalmasın ortalıqda,
Əlinizə, ayağınıza dolaşmasın.

Ordan çəkmələrimi yığışdırın,
Ordan da pencəyimi, köynəyimi...
Ordan fırçamı, darağımı yığışdırın,
Ordan da saatımı, eynəyimi.

...Açın pəncərəsini, açın,
Dəyişdirin havasını otağımın.
Yığışdırın güllü yorğanımı,
Qara örtün üstünə yatağımın.

...Önəmli olan nəyim vardısa,
Onsuzda sinəmə yığıb getmişəm.
Axtarmayın məni, gəzməyin,
Getmişəm, çoxdan çıxıb getmişəm.



ASLAN BAYRAMOV
Filologiya elmləri doktoru

# DEPORTASİYA, YURD HƏSRƏTİ VƏ ŞƏHİDLİK MÖVZULARININ BAYATILARIMIZDA PSİXOLOJİ LAYI

Rusiya ilə İran arasında olan müharibə 1813-cü ilin oktyabr ayında Gülüstan, 1826-cı ildə başlayan müharibə isə 1828-ci ilin fevral ayında Türkmənçay müqaviləsi ilə sona yetdi. Bu müqavilələr azərbaycanlılara sülh yox, qaçqınlıq, köçkünlük, soyqırımı gətirdi. Elə həmin ərəfədə, mart ayında Paskeviçin sərəncamı ilə İrəvan xanlığının ərazisində ermənisiz "Erməni vilayəti" yaradıldı.

J.Şopenə görə İrəvan xanlığında 1111 kənd olmuşdur. Müharibə zamanı 300-dən çox kənd dağıdılmış, əhalisi qaçqına çevrilmişdir. İrandan 40 min, Türkiyədən 84 min ermənini gətirib Azərbaycanın münbit kəndlərində yerləşdirmişlər. Rusiya-Türkiyə arasında olan müharibə isə 1829-cu ildə Ədirnə andlaşması ilə nəticələnmiş və bundan sonra da ermənilərin Türkiyədən Cənubi Qafqaza köçü davam etmişdir.

1894-cü ildə Türkiyədən yenə də 90000 ermənini gətirdib İrəvan, Gəncə, Qarabağ, Şamaxı, Tiflis qəzalarında – Azərbaycan türklərinin toplu yaşadıqları yerlərə yerləşdirmişlər. 1878-ci ildə Cənubi Qafqaza erməni axını daha da gücləndirilmişdir. Rus hököməti çalışırdı ki, Cənubi Qafqazda azərbaycanlıların etnik tərkibini azaltsın.

1917-ci ildə nəşr olunan "Qafqaz təqvimi"ndə göstərilir ki, 1873-cü ildə Qərbi Azərbaycanda 654 kənddə Azərbaycan türkləri yaşamışlar.

Tədqiqatçı İ.Məmmədov 1873, 1886, 1905, 1914, 1988-ci illərdə həmin kəndlərdə yaşayan azərbaycanlıların etnik tərkibini və sayını cədvəldə müqayisə ilə göstərərək 1990-ci ildə həmin kəndlər də bir nəfər də Azərbaycan türkünün yaşamadığını qeyd edir.

1917-ci ilin Oktyabr çevrilişindən sonra da rus ordusunun silah sursatına sahib olan erməni könüllüləri İrəvan quberniyasında 211, Zəngəzur qəzasında 115, Naxçıvanda 60, Şamaxı qəzasında 58, Qarabağda 150, Quba qəzasında 122 kəndi yerlə yeksan eetmiş, on minlərlə insanı məhv edərək soyqırım törətmişlər. Nijde, Dro, Andranik kimi erməni quldurları, daha sonra daşnak Şaumyan,

Mikoyan kimi bolşeviklərin rəhbərliyi ilə bu qətliamlar davam etdirilmiş və Cənubi Qafqazda azərbaycanlılara qarşı etnik təmizləmələr aparmışlar. Yenə də qaçqınlıq, soyqırım baş vermişdir.

Ermənilərin müxtəlif dövrlərdə Azərbaycana qarşı olan torpaq iddiaları həmişə Cənubi Qafqazda bir qarışıqlığa səbəb olmuşdur. Nəticədə çar Rusiyası və bolşevik Rusiyası zamanında azərbaycanlıların toplu yaşadıqları Zəngəzur, İrəvan, Lori, Pəmbək, Vedi, Şəmsəddin, Ağbaba Şörəyel, Göyçə, Meğri, Qaraqoyunlu və digər tarixi torpaqlar əsasında gəlmə ermənilərin terrorçu hərəkətləri nəticəsində monoetnik "Ermənistan" yaradılmışdır. Dəfələrlə həmin tarixi ərazilərdən azərbaycanlılar deportasiya olunmuş və soyqırıma məruz qalmışlar. Bu gün də Qarabağ və daha yeddi rayonumuzdan bir milyona qədər soydaşımız erməni terror nəticəsində qaçqın və köçkün vəziyyətindədirlər. Bu qaçqınlıq, köçkünlük və soyqırımı nəticəsində ağbirçəklərin sinəsində çəkdikləri əzab-əziyyət və yurd həsrətini əks etdirən bayatılar göyərmişdir.

**Əzizim, Qaraxanda,**
**Su daşar Qaraxanda.**
**Elim, obam dağıldı**
**Dağlardan qar axanda.**

**Eləmi, daşqın görüf,**
**Sel görüf, daşqın görüf.**
**Başıbalalı dağlar**
**Neçə yol qaşqın görüf.**

Yuxarıda dediyimiz kimi, hər bir tarixi şəraitdə ermənilər vəziyyətdən istifadə edərək Azərbaycan ərazilərini zəbt etmiş, etnik təmizləmə aparmışlar. Rus-alman savaşı zamanı da belə olmuşdur. Belə ki, 28.11.1943-cü ildə Tehranda ABŞ, Britaniya və Sovetlər birliyi dövlət başçılarının keçirdiyi konfransda da belə olmuşdur. Həmin vaxt səfirliyin qabağına toplaşan erməniləri Stalinə göstərək bildirirlər ki, bunlar İranda yaşayan ermənilərdir. Sovetlər birliyinə köçmək arzusundadırlar. Müharibə qurtardıqdan sonra Mikoyanın təhriki ilə 23.12.1947-ci ildə SSRİ Nazirlər Soveti 4083, 10.03.1948-ci ildə isə 754 nömrəli qərarları ilə Qərbi Azərbaycanın Vedi, Qəmərli, Üçkilsə, Göycə, Lori, Pəmbək, Ağbaba, İrəvan və digər rayon və şəhərlərdən "könüllü" adı ilə azərbaycanlıları Azərbaycanın aran rayonlarına – Salyan, Sabirabad, Biləsuvar, Göyçay, Zərdab, Saatlı, İmişli və s. ərazilərə köçürürlər. Köçkünlər həftələrlə dəmiryol stansiyalarında qalır, iqlim şəraitinə dözməyərək uşaqlar və qocalar qızdırmadan tələf olurdular. Köçkünləri yerləşdirmək üçün heç bir şərait olmadığı üçün Stalin öldükdən sonra köçürülən əhalinin 40%-i geriyə qayıtmağa nail olurlar.

1988-ci ildə Qorbaçovun uğursuz yenidənqurma siyasətindən sonra bu xaosdan istifadə edən ermənilər yenə də Azərbaycana qarşı torpaq iddiasında oldular. Azərbaycanın tarixi-etnik ərazisi olan Qarabağı Ermənistana birləşdirməyə çalışdılar. Yenə də 260 mindən çox Azərbaycan türkünü ermənilər Qərbi Azərbaycandan terror nəticəsində qaçqın saldılar. Qaçqınlar Azərbaycanın müxtəlif rayonlarında məskunlaşdılar. XX əsrdə bir neçə dəfə əzab-əziyyətə düçar olmuş qaçqınların sinəsi folklor örnəkləri ilə zəngin idi. Bütün tarixi dövrlərdə xalqın əzab-əziyyəti, qaçqınlıq, köçkünlük, deportasiya, soyqırımı, şəhidlik və s. mövzular folklorumuzda öz izini saxlamışdır.

1989-cu ildə folklor və dialekt materialları, eləcə də onomastik vahidlər toplamaq üçün Bakı şəhərinin o vaxt "Semaşko", "Papanin", "Xutor" adlanan ərazilərində oldum. Şəhərin o hissəsinə Lori-Pənbək, Qaraqoyunlu, Ağbaba-Şörəyel kəndlərindən olan qaçqınlar çoxluq

təşkil edirdi. Onların arasında yaşlı qadın və kişilər çox idi. Adam gəzirdilər ki, qəm-kədər, qəriblik, nisgil dolu olan sinələrini boşaltsınlar. Holavarlı Gülpəri Kərim qızı Mollaqışlaqlı Qiymət Rəhim qızı, Xancığazlı Pəri nənənin dillərindən qaçqınçılığı əks etdirən bayatılar toplaya bildim. Bu bayatılar nə qədər orijinal, nə qədər poetik tutumlu folklor inciləridir. Bu misralarda xalqın haray-həşiri, acı taleyi, dərdi-səri bildirilir və erməni vəhşiliyinə düçar olan bir xalqın psixoloji durumu eşidilir:

**Durnam uçur Loruya,**
**Qanad çalır oruya.**
**Pənbəkdən dönüb gəlsin**
**Xəbər versin geriyə.**

**Maymaxda laçın gördüm,**
**Holavar köçün gördüm.**
**Hay çəkdim kənd yuxarı**
**Holavar heçin gördüm.**

Bu bayatılar xalqın səsidir, harayıdır, xalqın çətin günlərinin tarixi yaddaşıdır. Məsələn, Ağbabanın Güllücə kəndindən olan Sinə Həmid qızının dilindən qaçqınlığın acılığını əks etdirən bir neçə orijinal bayatı da qələmə almışdım. Bu bayatılarda isə erməni vəhşiliyinə düçar olan bir xalqın psixoloji halı, haray-həşiri, çətin günlərinin niskili əks olunur.

**Əzizim, didər gənə,**
**Yaxamı didər gənə.**
**Bunnan çox zulum olmaz,**
**Yurdunnan didərginə.**

**Ağbabanın baş yolu**
**Sel oyufdu daş yolu.**
**Elinnən ayrı tüşüf**
**Qoy yusun qan-yaş yolu.**

Göründüyü kimi, yurd həsrətindən doğan ağrı-acı, əzab-əziyyət və həsrət duyğuları yüksək emosionallıqla bayatıların canına hoparaq bayatının ideya-məğzini özündə ifadə edir.

Oxçuoğlu kəndindən olan Leylan nənə də Şörəyelli qonşularına xitabən söylədiyi bir bayatıda dərdini bölməyə adam axtarır, tökülən şəhid qanının unudulmayacağını söyləyir.

**A gələn, Şörəyelli,**
**Torpağı çörək elli.**
**Yurdum tüşmana qaldı.**
**Dərdimi bölək, elli.**

**Əzizinəm, qurum az,**
**Sevə çoxdu, qurum az.**
**Tökülən şəhid qanı,**
**Min il keşsə qurumaz.**

Qaçqın kimi Sumqayıtda yaşamış və dəfələrlə tele-verilişlərin qonağı olmuş 95 yaşlı Nənəxanım Mikayıl qızının da dilindən bir çox bayatı qələmə almışdım. Bu bayatılar da orijinallığı ilə seçilir.

**Əzizinəm, Göydağdan,**
**Əysik olmaz, göy dağdan.**
**Elə bir ah çəkdim kin,**
**Yenif gəldi köy dağdan.**

**Gümrü yanı sərt qaya,**
**Boylandım Arpa çaya,**
**Əv tikdim yuva qurdum,**
**Əməyim getdi zaya.**

**Ağbabaya get, aman,**
**Çiçəyi cana dərman.**
**Məktub gəlib köç ilən,**
**Yarı dərd, yarı dərman.**

**Ağbaba hasar dağlar,**
**Qar yolun basar, dağlar.**
**El aciz, tüşmən zalım,**
**El qalıf naçar, dağlar.**

Bu bayatılarda da konkret yer-yurd adları ilə vətən həsrəti, poetik duyğularla ifadə olunur.

1990-cı illərdə ermənilərin Azərbaycanın Qarabağ və ətraf rayonlarında apardığı ədalətsiz müharibəyə qarşı döyüşə atılan və igidliklə şəhid olan oğullarımız da anaların bayatı-ağılarında xatırlanmaqdadır.

**Bərə keçdim, ov qaldı,**
**Çatammadım ov qaldı.**
**Xaxın gedəni gəldi,**
**Mənimki girov qaldı.**

**Haray ellərim, haray,**
**Qara tellərim, haray.**
**Qarabağdan yel əsdi**
**Tökdü güllərim, haray.**

**Çıxdım yazılar gördüm,**
**Körpə quzular gördüm.**
**Anasından ayrılmış**
**Mələr quzular gördüm.**

**Əzizinəm, Qarabağ**
**Dağlarında qara bax.**
**Neçə şəhid itirdik**
**Elim geydi qara, bax.**

1992-ci ildə Gəncədə olarkən “Vtoroy çast” deyilən hissədə məskunlaşan vedili Xatun nənə və Ağbabalı Gözəl nənədən də ayrılıq və vətən həsrətli bir neçə bayatı toplamışdım. Bu bayatıların məzmununda qaçqınlıq, ayrılıq, həsrət, Vətən sevgisi, qəriblik və s. motivlər vardır:

**Əzizim, ağlıyırdı,**
**Gülmürdü, ağlıyırdı.**
**Gecə yuxumda gördüm**
**Kəndimiz ağlıyırdı.**

**Eləmi, tikən hanı?**
**Gül hanı, tikan hanı?**
**Səni xarava gördüm**
**Əv, səni tikən hanı?**

**İrəvan çarşısında**
**Bulax var qarşısında.**
**Əlim qoynumda qaldı,**
**Tüşmənnər qarşısında.**

**Qurudu bulağımız,**
**Dağıldı tifaqımız.**
**Qərifliyə tuş gəldik**
**Nolocax halımız.**

Ümumiyyətlə, real folklor toplamaları olsa, Azərbaycanın hər bir regionunda yaşayan və qaçqın həyatı keçirən informatorlardan qaçqınlıq, deportasiya, yurd həsrəti və şəhidlik mövzusunda yüzlərlə bayatı toplamaq olar. Folklorumuzda yaşayan bu bayatılar ağrılı-acılı faciələrimizi əks etdirdiyi üçün çox böyük etnik, tarixi-etnoqrafik əhəmiyyəti vardır.



## ZÜLFÜ GƏNDƏBİLLİ

### AYRILIQLAR

Vüsal uzaq, bilirəm,
Ümidimə gülürəm.
Hər gün çıxıb gedirəm
Üzü ayrılıqlara.

Gah gözləri dolu nəm,
Gah gül-çiçək dərirəm.
Hər gün bir cür verirəm
Pozu ayrılıqlara.

Sızıldadar, göynədər,
Acı dadar hər kədər.
Kim səpibdi bu qədər
Duzu ayrılıqlara?

Ötdü payız toyları -
Eşqin coşan çayları.
Mən saxladım baharı,
Yazı ayrılıqlara.

Olsan da güclü, mətin,
Sevib qovuşmaq çətin.
Gedər çox məhəbbətin
İzi ayrılıqlara

Göz yaşları tökülüb,
Bağrı yanıb, sökülüb.
Çox sevənin bükülüb
Dizi ayrılıqlara.

Dərdi ata biləydik,
Kama çata biləydik.
Baha sata biləydik
Nazı ayrılıqlara.

### GÜNƏŞİN SON ŞƏFƏQLƏRİ

Yenə də al günəş qürub eyləyir,
Sanki qovaqlara toxunub dəyir.
Köksü gen düzlərə əlvida deyir
Üfüqdə günəşin son şəfəqləri.

Həyacan təbili, zəngidi, yoxsa
Atəşi, alovu səngidi yoxsa?
Ölən ümidlərin rəngidi yoxsa
Üfüqdə günəşin son şəfəqləri.

Ay, günəş Tanrının eynəyidirmi,
Hər qürub günəşin göynəyidirmi?
Bir şəhid balanın köynəyidirmi
Üfüqdə günəşin son şəfəqləri?!

Nə gözə nur verir, nə qəlb isidir,
Sıyrılmış qılıncın parıltısıdır.
Bir dahi rəssamın rəng dünyasıdır
Üfüqdə Günəşin son şəfəqləri.

Sinəsi parlayan  nur dənizidir,
Aləmlər nuruna qərq olub üzür.
Bəlkə Nəsiminin solan üzüdür
Üfüqdə Günəşin son şəfəqləri.

Yerlərmi göylərə belə ərk edir,
Bizləri tək qoyub, yoxsa tərk edir?
Günəşli qəlblərə çəkilib gedir
Üfüqdə Günəşin son şəfəqləri...



## ŞƏLALƏ ŞƏFƏQ

**KÖNLÜM**

Etdim məkanından yenə dərbədər,
Heç kim incitmədi səni mən qədər.
Sən mənə ruh verdin, mən sənə kədər,
Dərdimdən boğaza yığılan könlüm.

Bir gizli sevdanın oduna düşüb,
Ay Allah, o hardan yadına düşüb?
Nizamı pozulub, ritmi dəyişib
Günü-güzəranı dağılan könlüm.

Yedirtdin gözünün yağını ona,
Verdin həm solunu, sağını ona.
Aç, göstər vurduğu dağını ona,
Həsrəti gözündən sağılan könlüm.

Girmişdi qoynuna mələk donunda,
Gərəyin olanda yoxdu yanında.
Bax, səni yatağa saldı sonunda,
Bəsdir, gəl insafa, ağıllan, könlüm.

**MƏNİ BOŞ VER**

İllər sənsiz necə keçdi, bilmədim,
Gözüm intizarda, qəlbim təlaşda.
Olub-qalan gücümü də tükətdim,
İçimdəki sənsizliklə savaşda...

Günlərimin nə yaxşısı, nə pisi,
Kədər yağır hər saat, hər anından.
Yaz gəlsə də, təbiətin istisi
Çıxarmayıb qəlbimi buz donundan.

Bu ayrılıq üzdü məni, sənə nə,
Unutmusan gen düşəli gözündən.
Çəkəcəyəm möhnətini mən yenə,
Məni boş ver, muğayat ol özündən.

**YAZ MƏNİ**

Gözüm nuru, ay bəxtimə yazılan,
Baxışıyla ürəyimdən bac alan,
Allahının dərgahına açılan,
Əllərinin duasına yaz məni.

Boylanıram gendən, tindən, küçədən,
Gizli-gizli alışıram dərdindən.
Elə çox şey istəmədim ki səndən,
Ürəyinin parasına yaz məni.

Adımı et andlarının ünvanı,
Səni mənim kimi sevən de, hanı?
Olsun canım ala gözün qurbanı,
Dərdlərinin çarasına yaz məni.

Gözləməkdən gözün kökü saralsa,
Gözlərinin qarasını ağ alsa,
İşdir, birdən nisgilimdən ağarsa,
Saçlarının çalasına yaz məni.

Bu sevgiyə mən həsrət, sən təşnəsən,
Boğularsan, baxışıma düşmə sən.
İraq olsun, qismətimə düşməsən,
Bəxtsizlərin ələsına yaz məni.

**BİRLİKDƏ DARIXAQ**

Tutsa hər dost bir ucundan,
İz qalmaz ağrı-acından.
Dost sayılmaz dərddən qaçan,
Gəlim, birlikdə darıxaq.

Üzünə qəm salsa kölgə,
Kövrələrəm səndən öncə.
Kimdir səni üzən bunca?
Bilim, birlikdə darıxaq.

Yaşa ömrün baharını,
Duy sevgimin tumarını.
Ala gözün qübarını
Silim, birlikdə darıxaq.

Ömür qısa, vermə yelə,
Duydurma dərdini elə.
Darıxanda xəbər elə,
Gəlim, birlikdə darıxaq.

Öz dərdim bildim dərdini,
Unut artıq kədərini.
Daim xoşbəxt görüm səni,
Gülüm, birlikdə darıxaq.

**DÜNYA**

Şirin arzulara sərhəddi, bənddi,
Bəzən özü boyda kədərdi, dərddi.
Məsləhət verməyə kimin nə həddi,
Qurtara bilmirik felindən, dünya.

Kiminin əyilib qəddi vədəsiz,
Kimi yola verir ömrü həvəssiz.
Bizə yol cızırsan bizdən xəbərsiz,
Kimə gileylənək əlindən, dünya?!

Qismətim verdiyin payından küskün,
Bəxtim güləcəkmi üzümə bir gün.
Mən də qonağınam sənin üç-beş gün,
İncik ayrılmayım evindən, dünya.

Ömrü başa vurmaq deyil yaşamaq,
Bilmirəm qazandım günah, ya savab.
Neçə sual verdim, bir kəlmə cavab
Qopara bilmədim dilindən, dünya.

Saxla özün üçün dövləti-varı,
Təkcə ürəyimdən apar qübarı.
İmkan ver, bir arzum çin olsun barı,
Bir yol gülab çəkim gülündən, dünya.

**NİYƏ GÖRDÜM AXI SƏNİ?**

Ümidləri buz almışdı,
Xatirələr qocalmışdı.
Unutmağa nə qalmışdı,
Niyə gördüm axı səni?

Gördüm, qəlbim oda düşdü,
Mən düşmüşdüm, o da düşdü.
O ilk sevda yada düşdü,
Niyə gördüm axı səni?

Dərd apardı sözlərimi,
Yaş apardı gözlərimi.
Dolu döydü izlərimi,
Niyə gördüm axı səni?

Qarlı qışıq, yazımız yox,
Barışmağa üzümüz yox.
Təsəlliyçün sözümüz yox,
Niyə gördüm axı səni?

Gerçəkdimi, yuxudumu,
Dərdim, qəmim yoxuydumu?
Qismət qırdı inadımı,
Niyə gördüm axı səni?

Bir də çətin kiriyəsi,
Susmaz yaddaşımın səsi.
Günüm varmış görüləsi,
Niyə gördüm axı səni?

**O GÜN**

Bəlkə də səninçün adi bir gündü
İlk dəfə qarşıma çıxdığın o gün.
İllər ötüşsə də, sanki dünəndi
Əlimi əlində sıxdığın o gün.

Sən idin ilk eşqim, ilk məhəbbətim,
Ülviydi, təmizdi arzum, niyyətim.
Dünya gözəl idi, yoxdu həsrətim
Bulaqtək könlümə axdığın o gün.

Sorğusuz-sualsız getdin bir səhər,
O gündən dost oldu qəlbimə kədər.
Dözdüm həsrətinə, dözdüm birtəhər
Qəlbimi yandırıb-yaxdığın o gün.

Yad oldu doğmalar bir an gözümdə,
Həsrətin duyulur hər an gözümdə.
Eylədin cahanı viran gözümdə
Evimdən yad kimi çıxdığın o gün.

Baxışlar ağladı, ürək titrədi,
Qəlbə ümid verən xatirələrdi.
Mənlə qoşa çəkdi yollar bu dərdi
Boylanıb arxanca baxdığım o gün.



# POLAD MƏMMƏDOV

## TORPAĞI

Gedəndə yurduma, doğma elimə
Diz çöküb öpəcəm qara torpağı.
Könlümü versəm də uca dağlara,
Ruh çoxdan tanıyır qoca torpağı.

Keçmişə boylansam, gözlərim ağlar,
Dövranın gəlişi sinəmi dağlar.
Sınıq qəlbim gecə-gündüz hey çağlar,
Amandır, qoruyun ana torpağı.

Polad, qurtarmır vətənin davası,
"Vağzalı"ya dönüb matəm havası.
Yazıq kasıbların şəhid balası
Azad etdilər bir sıra torpağı.

## QALMADI

Yanıb ocaq oldum həyat eşqinə,
Dərdimi anlayan adam qalmadı.
Kədər altını üstünə çevirdi,
Mənim həyatımda nizam qalmadı.

Çox dəydi qəlbimə doğma yarası,
Nurunu itirib gözün qarası.
Bədənin salamat qaldı harası?
Canımda ağrıya davam qalmadı.

Hamı car çəkdi ki, ölüm anidi,
Nahaq qanlar axır, insan canidi.
Polad, yaşadığın dünya fanidi,
Heç kəsə etibar, inam qalmadı.

## ÜSTƏ

Dağın havası göz yaşına döndü
Şəhid Aminimin məzarı üstə.
Vətənimin başı bəlalar çəkir,
Qan axır torpağın damarı üstə.

Anaların dayanmır göz yaşları,
Dərd əlindən ağarıbd saçları.
Ataların çatılanda qaşları
Elə bil qış gəlir baharı üstə.

Gün gələr, düşmənin ocağı sönər,
Əsgərim göstərir hər yerdə hünər.
Sağ-salamat hamısı evə dönər,
Qəhrəman yazarlar vüqarı üstə.

## OLSUN

Paslı simdə avaz səsi xoş gəlməz,
Gərək saz simində nizamda olsun.
Zil pərdədən bəmə enmək lazımsa,
Elə et ki, ruhun aram da olsun.

Yandırdı qəlbimi kamanın səsi,
Hicran göynətməsin kaş heç bir kəsi.
Varsa da dünyanın böyük yiyəsi,
Qəm bitsin, sevinc hər adamda olsun.

Çətindi bəşərin sehrinə düşmək,
Çatıb buludlara göylərdə üzmək.
Polad, olmaz bəxtdən inciyib küsmək,
Elə yaşa, xoşbəxt məqam da olsun.



**AYGÜN YAŞAR**
Filoloq

# ŞAİR QIZILGÜL ƏKİR SÖZÜN BİTDİYİ YERƏ

Elvin İntiqamoğlunun “On dördüncü qızılgül» şeir kitabından «ləçək» misraları ilə kitab nəşrə hazırlanan ərəfədə tanış olmuşdum. Yaxşı mənada təəccüblənmişdim şeirlərdəki lakonik söz rəngləndirilmələrinə. Sözlərin məcaziliyi ilə maraqlı ifadə tərzi və ən əsas da fikir yükü olan şeirlər digər müəlliflərdən «Elvin İntiqamoğlu» imzasını fərqləndirə biləcəkdi.

Onun şeir dünyasında əsasən iki sözə tez-tez rast gəlmək olar: “Daş” və “qızılgül”. Bu ümumiləşdirmə Elvinin xarakterini də simvolizə edə bilər, zənnimcə. Daş kimi möhkəm iradəli, cəsur Vətən Qəhrəmanı və qızılgül kimi zərif ruhlu, həssas müşahidə qabiliyyətinə malik bir gənc. Bu cəhətlərdən biri olub digəri olmasa, insan - kişi mənəvi cəhətdən qüsurlu olar. Ona görə də sağlam Ruhlu İnsan olaraq Elvinin özü qədər sözü də dəyərlidir. Və beləcə, Elvinin şeiriyyətindəki “daş”lar bir-bir yerinə düşür:

**Deyirlər, cahan düzəlir:**
**varlı, kasıb olmayacaq**
**daş dövründəki kimi -**
**İnanan daşa dönsün...**

“Daşa dönmək” insanın bəzən qorxusu (Niyə gəldin? // Cavab ver, // Daş heykələ oxşama), bəzən gücü, bəzən də arzusuna çevrilər. Ən təsirli bir and-aman ifadəsi olur bəzən: İnanan daşa dönsün...

Digər tərəfdən isə məzarları üzərinə böyük-böyük daşlar qoyub heykəlləşmək arzusunun bir adı da “daşa dönmək” istəyidir elə. Nədir bu daşa dönmək həvəsi insanda? - Əbədi həyat arzusunun, unudulmamaq çabasının başqa bir adıdır, yəqin. Amma təbii ki, bu, boşuna edilmiş cəhddir. Əbədilik özün üçün tikdirdiyin məqbərələr, heykəllər, qəbirüstü abidələrlə əldə edilmir, o qəbrə qoyulana qədər edilən əməllər, qoyduğun izlə qazanılır...

**Daş atmağın daşın atdım,**
**Axır-əvvəl anladım ki,**
**daşın düşən yeri var...**

Körpəliyin, uşaqlığın, daha sonra subaylığın daşlarını ətəyinə yığan lirik qəhrəman şeir-şeir bu “daş”ları ətəyindən tökür:

**Hələ ki peşman deyiləm,**
**Allah bilir,**
**subaylığın daşın atsam nə olar?**

Subaylığın da evliliyə gedən yolu yenə daşdan keçirmiş - Elçi daşından:

**- Yəqin, elçi daşından yorulmusan,**
**gəlməyib ağ atlı oğlan -**
**Daşdan səs çıxdı,**
**Səndən yox...**
**Danış səsinə qurban!**

Həyatın bir səhifəsi də elçi daşı ilə başdaşının arasında yaşadıqlarımızdan ibarət olur. Elçi daşına qədərki ömrümüzdə baş qəhrəman həmişə özümüz olmuruq, uşaqlıq, saflıq, məsumluq bitir elçi daşında. Bir az nağıl kimi olur o dövr, müəllifi bəzən özümüzə də məlum olmayan nağıl ya qorxulu, yaxud

sehrli nağıl kimi. Sonra iki daşın arasında nağıldan çıxıb gerçək həyata, müharibənin, mühasirənin ortasına düşürük:

**12 oktyabr,**
**Füzuli,**
**İki daşın arasında**
**tora düşdük iki dağın arasında:**
**Ermənidir dörd tərəfi...**

Daşlı misralar tez-tez dəydi "ayağıma" bu poeziyada gəzişəndə. (Bircə ayağımın göz yaddaşı var: // Daşları üzdən tanıyır, // yıxılmır...) Maraqlı, rəngli, qeyri-adi daşları toplamağı sevirəm. Götürdüyüm bir maraqlı "daş" misra da bu oldu:

**- Hava xəbərlərində**
**daş deyiblər axşama!**

***

**Şair qızılgül əkir**
**Sözün bitdiyi yerə...**

14 Fevral. Sevgililər günü. Qız ona gətirilən buketdəki qızılgülləri saydı: 13 idi.
- On üç niyə?
- On dördüncü sənsən...

**Daha həsrətdən saralıb**
**Vərəqlərin arasında**
**quruyub xatirələr -**
**Qızılgülün gül qoxuyan**
**zamanların verin mənə...**

Şair üçün qızılgül - qoruyub saxlamaq istədiyi duyğunun, duyğu qalmadıqda belə xatirəsinin adıdır, yoxsa solmuş gülü niyə istəsin:

**Düzün qızılgülləri -**
**solanların verin mənə...**

***

**Qızılgül bağu-bustanım, nə dersən?**
**Fəda olsun sənə canım, nə dersən?**

- deyən Şah babamız Xətaidənmi öyrəndi qızılgül ləçəklərinə sevgisini yazmağı şair? Qızılgüllər sevgidən doğulan körpələr kimidir. Sevgilər qarşılıqlı olmayanda gül buketləri istənilməyən yeni doğulmuş insan övladları kimi atılır küçələrə, zibil qutularına, ən yaxşı halda yoldan keçən birinə "hədiyyə olunur"... Amma qarşılıqlı sevgilərə şahidlik edən qızılgüllər sevgililərin əllərində elə bəxtəvər görünürlər ki. Sevginin gözə görünən şəkillənmiş halı olurlar o zaman. Buna görə solsalar belə, dəyərli olurlar:

**Məndən sənə**
**aldığım qızılgülün solan ləçəyi qaldı,**
**Səndən mənə**
**Bir şüsəlik xatirə**
**O da qızılgülün ətri azaldıqca azaldı.**

İlk ən böyük sevgisinə - Anaya da ithaf etdiyi şeirində «gül» şahidliyi var Elvinin:

**Səkkiz martda**
**əlimdə gül**
**"Ana" şeiri oxuyardım...**
**İndi ona oxuduğum şeirləri**
**mən yazıram...**
**Anam bilmir!**

Qızılgüllü anaların layla ilə böyütdüyü oğulların sevgisi Vətən boyda olar. Laylasız böyüyənlər, layla ehtiyacı duymayanlar Vətən uğrunda can fəda edərlərmi? Qərənfillər içində uyuyan şəhidlərin də yuxularını körpə olanda qızılgüllü laylalar bəzəmişdi axı:

**Layla deyim yatasan**
**Qızılgülə batasan.**
**Qərənfil deməmişdi**
**qızılgül demişdi ana.**

Elvinin şeirlərində maraqlı misralar çoxdur. Onlardan bir neçəsini qeyd etmək istərdim:
- Başa düşmür bir-birin // lal qaranlıq, kar işıq...
- Bu işıqlı dünyada // hamımız bir qarışıq...
- Gözündən yaş gəlir kişi dərdimin...
- Təbrik edirəm səni // Necə qayıdım, necə unudum - deməyəsən...
- Qismətimdə bədxassəli şiş tapılıb...
- Həsrətində olduğumuz torpağı
daddırdı bizə palçıqlı gölməçələr...
- Bəlkə, uzaq dəhlizlərdə görünmür
Laçın pəncərələri –
Havası çatmır Vətənin, boğulur,
açın pəncərələri...

İstedadla mükafatlanıb Elvin. Bu qutsal mükafatı ona verən Tanrı onun özünü də - İkinci Qarabağ müharibəsi qazisini «doğulanda hələ tanımadığı iki nəfərə» mükafat verdi növbəti dəfə - 2020-nin Payızında... Sinəsindəki medal üzünün ağlığı, «On dördüncü qızılgül» kitabı isə sözünün ucalığı oldu. Başı uca olsun. Tanrı gözləri dolusu, ürəyi dolusu versin: Elvini sevdiklərinə, uğurlarını isə Elvinə! Amin.



# SÜLEYMAN SƏRRAF

**MƏNİ GÖRMƏDİ**

Mən sinəmdə dözüm əkdim,
Ərlik əkdim, əzm əkdim.
Ağacların özüm əkdim,
Bağ məni görmədi, qardaş.

Bu çöllükdə xama düşdüm,
Dünya adlı dama düşdüm.
Mən tək idim, cəmə düşdüm,
Çox məni görmədi, qardaş.

Sübh hamıdan erkən durdum,
Ömür adlı kəhər yordum.
Dərd-qəm ilə bardaş qurdum,
Baxt məni görmədi, qardaş.

Çox kişilər gəldi, köçdü,
Taleyin hər üzün keçdi.
Yanımdan yel kimi uçdu,
Vaxt məni görmədi, qardaş.

Həyatımı borca verdim,
Sözün sarayına girdim.
Şairliyin taxtın gördüm,
Taxt məni görmədi, qardaş.

**EŞQ BAĞI**

Gözəl söz də küsər murdar ağızdan,
Kəlmə ətir saçar gül dodağında.
Qəlbi daşlar gəzər şeytan dağında,
Sevənlərin yeri var eşq bağında.

Qaranlığın sonu işıq görünər,
Gedənin ardınca kölgə sürünər.
Təkəbbür adamı salar dərinə,
Dərdlər də qovrular ürək yağında.

Aşiq ürəyinin bir kilidi var,
Açarı məşuqda, külli-ixtiyar.
Yayın ortasında yağarsa ağ qar,
Könlüm məclis qurar Qafın dağında.

**NÖVBƏ SƏNİNDİ**

Məni yandıran yandırıb,
Sən də üstündən dağlama.
Hər günüm üzümə durub,
Günümün yolu bağlama.

Hər canlının bir canı var,
Cismi candan seçəni var.
Hər gizlinin açanı var,
Varsa gizlinin, saxlama.

O altmışın, bu yetmişin,
Yerə düşər yetişmişin.
Canım, Allahla nə işin?
Onun yazısın yoxlama.

Əcəl sənin yol yoldaşın,
Söz-söhbətlə qatır başı.
İtirdin dostu, sirdaşı,
Növbə sənindi, ağlama.



# SƏNAN ASLAN

## SONRA GET

Bir üzük almışam son görüş üçün,
Uzat barmağını, taxım, sonra get.
Ayrılmaq üçün də görüşmək varmış,
Yaş olum, gözündən axım, sonra get...

Unudaq deməklə məhəbbət bitməz,
Ürəyimdən adın silinib getməz.
Doyunca baxmağa zaman da yetməz,
Bir az gözlərinə baxım, sonra get.

Sənin də qəlbindən silinməz izim,
Uğursuz alındı sevgimiz bizim.
Əyilib qamətim, bükülüb dizim,
Tut qaldır, ayağa qalxım, sonra get.

Bu eşqə başladım nə həvəs ilə,
Bir kəlmə kəsmədim başqa kəs ilə.
Qoyma bülbül qalsın tək qəfəs ilə,
Şimşəktək səmada çaxım, sonra get.

Get, mən da arxanca baxım, ötürüm,
Qəlbimdəki yanan közü söndürüm.
Qalan ömrümü də tək-tənha sürüm,
Könlümü yandırım-yaxım, sonra get...

## XƏZƏRİM

Səndə neçə sirli söz var, Xəzərim,
Sən nələr eşidib, nələr duymusan?
Aşiqlər ürəyin boşaldıb sənə?
Sən nə hıçqırıqlar, kədər duymusan...

Dalğalan, sahili yu həzin-həzin,
Sən dərd ortağısan sevən hər kəsin.
Dalğalan, zehnimiz qoy təzələnsin,
Nə qədər göz yaşı, qəhər duymusan.

Yenə nədən çoşub çağlar Xəzərim,
Hansı ayrılıqçün ağlar Xəzərim?
Əvvəl həzin-həzin dalğalanardın,
Sinənə kim çəkib dağlar, Xəzərim?

Nəyə qəzəblənib, kimə hirslisən?
Baş açmaq olmayır, yaman sirlisən.
Sahildənmi küsüb sən incimisən?
Bəlkə neçə yalan vədlər duymusan.

Balıqlar da agah olub halından,
Sənin kədər dolu bu əhvalından.
Xəzər niyə küsübdü öz yarından,
Sahildən nə bəhanələr duymusan?

Köksündə çox sirlər saxlar Xəzərim,
Nakam eşqlər üçün ağlar Xəzərim.
Neçə həsrət yolun bağlar Xəzərim,
Sən nə üzüntülər, kədər duymusan...

## YAĞIŞIM

Yağ, yağışım, qəlblərdəki kin yuyulsun,
İnsanlarda paxıllıq hissi yox olsun.
Ürəklərdə məhəbbət, sevgi duyulsun,
Pas bağlamış vicdanlara yağ, yağışım...

Sən yağanda xoşbəxt olur sevgililər,
Hər damlanı sevginin rəmzi bilirlər.
Göz önünə xoş anların gətirirlər,
Vüsallara, hicranlara yağ, yağışım.

Elə yağ ki, üşüməsin qoy evsizlər,
Suda-seldə islanmasın kimsəsizlər.
Çətinliyə düşməsinlər köməksizlər,
Saxta, yalan imanlara yağ, yağışım.

Həzin-həzin, narın-narın yağ hər yerə,
Sən yağanda şəfqət gəlsin könüllərə.
Xoş günlərə, xoş aylara, xoş illərə -
Bütün gözəl zamanlara yağ, yağışım...



## MÖVLUD AĞAMMƏD

### CANIMI ALMA
(qəzəl)

Cansızlara can bəxş edənim, canımı alma,
Ruhumdu, rəvanım gedənim, canımı alma.

Bir ömrə bərabər qəmi-möhnət yükü çəkdim,
Hər dərdi-qəmim var(ı) mənim, canımı alma.

Çoxdur bu bəla mülkünə cənnətdi deyənlər,
Cənnətdədi cansız bədənim, canımı alma.

Bir halə salıb canımı dövran, dözümüm yox,
Səbrim ilə bir dəm tükənim, canımı alma.

Çün can ilə yetməz dedilər vəslətə Mövlud,
Cismim kəfənimdir, bələnim, canımı alma.

### BİLMİR
(qəzəl)

Dünya evinə kim necə gəlmiş bilə bilmir,
Gəlmək ilə getmək arasın tən bölə bilmir.

Can vermək ilə vermədi Xaliq əbədiyyət,
Ölmək belə kim istəsə, hərçənd ölə bilmir.

Bir saxta gülüş bir qucağın istiliyində
Min saxta məhəbbətlə isinmək belə bilmir.

Şəhvətlə qucaqlaşdı haram nəfs ilə, heyhat
Çün şəhdi ləbin busədədir, şövq elə, bilmir.

Hər bəxtikəmin bəxti gətirməz demə, Mövlud,
Bir gün yetəcək kamına, hər dəm dilə, bilmir.

### BÜLBÜL
(qəzəl)

Seyr eylə, gülüstanda yetər vəslətə bülbül,
Gülsüz də zimistanda dözər firqətə bülbül.

Hərçənd eləməz bəs ona çəkdikcə cəfalar,
Son naleyi-əfğanda bilər həsrətə bülbül.

Azad eləsən canı, qəfəsdən yana uçmaz,
Azadlığı zindanda verər möhnətə bülbül.

Dünya evinin haq qapısın bağlı görəndən,
Haqq aşiqi meydanda gələr dəvətə, bülbül.

Qaldıqca qalan gizli məqamları da, Mövlud,
Aşkar elə, pünhanda bölər niyyətə bülbül.

### İNSAN QOCALANDA
(qəzəl)

Mənada gəzər hər sözü insan qocalanda,
Aşkarə bilinməz üzü insan qocalanda.

Dünya malına aludə olmaq nədi bilməz,
Var-dövləti görsün gözü insan qocalanda.

Çün bağı-gülüstanda məhəbbət gülü bəslər,
Bar-bəhrəni dərsin özü insan qocalanda.

Qət etdi ömürlük yolu alnında qırışlar,
Hərçəndi silinməz izi insan qocalanda.

Hər sirri nihan saxlamağın yox yeri, Mövlud,
Gec anladı, əfsus, düzü insan qocalanda.



**KƏNAN HACI**
Azərbaycan Yazıçılar Birliyinin üzvü

# BİR DAHA ŞAİRLƏR GÜLLƏLƏNMƏSİN

**Yer üzündə sular var,**
**Sularda dalğalar var,**
**Dalğalarda ruzgar var,**
**Həpsi - bizim qüvvətimiz...**
**Biz suları, küləkləri**
**Fəth edəriz.**
**Külək - qüvvət,**
**Su - qüvvət,**
**Nə genişdir təbiət.**

***Mikayıl Müşfiq***

İyunun 5-də Günəşin zərrin şəfəqləri altında bir gəmi Müşfiq ünvanlı səfərə çıxdı. Onun "məzar"ına gül səpməyə yollandıq. Gəmi sakit suların qoynunda irəlilədikcə düşünürdüm ki, görəsən dünyada elə şair varmı ki, məzarı suların qoynunda olsun?! Müşfiq Xəzərin qoynunda uyuyur. Gəmi Nargin adasına yaxınlaşır, suların üzərində sanki qırmızı qərənfil xalısı toxunur. Duyğulanıram, şair dostum Əkbər Qoşalı pıçıldayır: "Bir daha heç vaxt şairlər güllələnməsin!"

Anar müəllimin dalğın baxışları üfüqlərə zillənib, bəlkə də Müşfiqin ruhuyla danışır...

"Yenə o bağ olaydı" şeirinin misraları üfüqdə göyqurşağı kimi açılır. Hərəmiz o şeirin bir misrasını deyirik. Qanadıqırıq misraların yarasını sarıyırıq. Sözlər sanki ovcumuzda ürək kimi çırpınır, səmaya pərvazlanmağa can atır.

**Mən gəncəm, bilirəm istiqbalım var,**
**Hələ bədr olmamış bir hilalım var,**
**Yelkənim açılır, qara yel, əsmə!**
**Mənim bu dəryada bir sandalım var.**

Onun istiqbalını əlindən aldılar, onu yeni həyatın sıralarından qopardılar. Yeni şeirin möcüzəvi dilini anlamadılar. Müşfiq "göylərin laciverd ətəkləri"ylə, əngin səmayla uğraşırdı, yerlərdə sürünənlər, sürünmək üçün doğulanlar onun qanadlarını qırdılar. Amma onun poeziyası keçmişi də, bu günü də, gələcəyi də öz içinə hopdurub, bu şeirin qanadlarını qırmaq mümkün deyil. Müşfiqi cismən məhv edənlər, onun fiziki ömrünə son qoyan cəlladlar anlamırdılar ki, onun qanadlarını nə qədər qırsalar da yerində yeni qanadlar bitəcək.

Gəmi Narginə doğru irəlilədikcə qarışıq fikirlər beynimi məşğul edir. Müşfiq yaşasaydı, daha nələr yazardı... "İşıqlı dünyadan necə əl çəkim?" deyən şairə niyə, necə qıydılar?! Müşfiq Azərbaycan poeziyasının ən nikbin şairidir. Hansı şeirinə baxsanız, misralarından üzünüzə bir səhər nəsimi əsəcək, ruhunuzu oxşayacaq.

**Sənin gülüşlərin bir rüzgar kimi**
**Əsərkən arzumun gülü açılır.**
**Gülsə dodaqların ulduzlar kimi**
**Ruhuma bir sərin işıq saçılır.**
**Söylə, gözəllərin dodaqlarından,**
**Bu oynaq gülüşlər umulmuşdur?**
**Sənin hər qəhqəhən Ay kənarından**
**Keçən buludmudur, uçan quşmudur?**

Zamanın keçməsi insanın unutmaması üçündür. Zaman keçdikcə Müşfiq bizə daha da yaxınlaşır, o, sözlərə səs, səslərə söz qatıb ruhumuza hopur. Hər gələn nəsil Müşfiqin şeir növrağından öz payını götürür. Əkbər Qoşalı ilə gəminin göyərtəsində yanaşı oturmuşuq, dinmirik, hamımız öz içimizdə Müşfiqin nakam taleyi haqda düşünürük. Əkbər "hər il Müşfiqin doğum günündə belə bir törənin keçirilməsi böyük hadisədir"deyə sükutu pozur. Təsdiqləyirəm, doğrudan da Müşfiqin adıyla bağlı Şairlər Gününün ənənə halını alması Azərbaycan ədəbiyyatında son dərəcə sevindirici hadisədir.

Müşfiqin əbədi olaraq zirvələrdə qərar tutmasını gənc yaşda güllələnməsilə bağlayanlar peyda olub. Bilmirəm onlar Müşfiqin yaradıcılığından hansı mənalar əxz ediblər, ümumiyyətlə, nəsə əxz edə biliblərmi? Müşfiq klassik divan ədəbiyyatından yenicə qopmaqda olan şeirə yeni paradiqma qazandırdı, yeni şeir dili yaratdı. Rəsul Rza da, Səməd Vurğun da bu sıradaydı, onlar da yeni şeirin bayraqdarlarından oldular. Müşfiq söz dəryasına yelkənini açmışdı, onun poetik təfəkkürü məcrasına sığmırdı. Dəniz kimi çoşub-çağlayırdı. Sonuncu kitabının da adını "Çağlayan" qoymuşdu. Onun poeziyası çağlayan bir ümman idi.

**Saçın kimi qıvrılan dalğalara dalaydım,**
**Dalıb ilham alaydım.**
**Əndamını həvəslə qucaqlarkən dalğalar,**
**Qəlbimdə qasırğalar,**
**Fırtınalar coşaydı, qısqanclıqlar doğaydı,**
**Məni hirsim boğaydı,**
**Cumub alaydım səni dalğaların əlindən,**
**Yapışaydım belindən,**
**Xəyalımız üzəydi sevda dənizlərində,**
**Ləpələr üzərində,**
**İlhamımın yelkəni zərrin saçın olaydı,**
**Sular xırçın olaydı.**

Bu möhtəşəm şeirin coğrafiyasında üfüqlərə doğru üzürük, qərənfillərlə suların səthinə sevgimizin xəritəsini çəkirik. Hər birimizin yaddaşında "Yenə o bağ olaydı" ünvanlı nisgilimiz var. Müşfiq sanki bütün insanların arzusunu, həsrətini, nisgilini sözlərə hopdurub. "O bağ" hamımızın xatirələrinin ünvanıdır, hamımızın "o bağ"ı var. Amma hamı "o bağı" Müşfiq kimi təsvir edə bilməz, "o gözəl"i Müşfiq kimi vəsf edə bilməz.

**Yarpaqlar arasından uzadaraq əlini,**
**Oxşayaraq telini,**
**Gecələr darayaydı saçlarını, ay gözəl!**
**Sən gözəlsən, Ay gözəl?!**
**Əllərində əllərim, gözlərində gözlərim...**
**Asılaydı sözlərim**
**Könlünün qulağından bir qızıl tana kimi,**
**Günəş doğana kimi.**

Mən də bu yazıya Müşfiqin misralarını al qərənfillər kimi səpdim. Müşfiqin haqqında onun sözündən yaxşı nə yazmaq olar ki?! Elə bir şairin ki, sözlər onun şeirlərində özünü yeni, təzətər görürlər, onun şeirinin lüğətində nifrət yoxdur, sevgi var. Cəlladlar o sevgini güllələdilər... Bu gün də bizimlə birlikdə olan ölməz, əbədi Sevgini!..



# SAQİ HƏSƏN

## SEVGİLİM

Sən olan dünyada mən rəssam olub
ipək saçlarına sığal çəkərəm.
Desələr – Hansıdı dalğasız ümman?
Dəniz gözlərini misal çəkərəm.

Sən olan dünyada səni düşünmək
ən gözəl xəyalı qurmaq deməkdi.
Bir an sənsizliyi təsəvvür etmək
Ən şirin yuxudan durmaq deməkdi.

Sən olan dünyadan soyumaram mən,
ruhumu şaxtalar üşüdə bilməz.
Günəş də özünə çox güvənməsin,
Sənintək qəlbimi isidə bilməz.

Mən sənli dünyada şeir kimiyəm,
titrək dodağınla oxu sən məni.
Hər gün bircə sətir kövrək qəlbinə
Salıb ilmə-ilmə toxu sən məni.

Bu sənli dünyanın şirin dadıyam,
səni kövrəltmərəm acılı günlə.
Kimsə aramızı vurmaq istəsə,
Sadəcə qəlbinin səsini dinlə.

Bu gözəl dünyadan çox yazmaq olar,
yetər ki, içində sən ol, sevgilim.
Sənsiz bircə gündü günəşin ömrü,
Sən mənə bir ömür şəm ol, sevgilim...

## BİLMİRƏM

Boynuma alıram, pinti adamam,
Qəlbimi süpürüb silə bilmirəm.
Nə bir hönkür-hönkür ağlamağım var,
Nə də ki ürəkdən gülə bilmirəm.

Qəribə bir hala düşən kimiyəm,
Sanki limansız bir tənha gəmiyəm.
Bir az qapalıyam, bir az gizliyəm,
Kimsəylə sirrimi bölə bilmirəm.

Mən hərdən asanam, hərdən də qəliz,
Hərdən kiçik dərya, hərdən də dəniz.
Mən hərdən özümü sanıram təmiz,
Hərdən də düz yola gələ bilmirəm.

Gözlərim nədənsə xəyala dalmır,
Misralar küsübdü, könlümü almır.
Şeirimin çoxu yadımda qalmır,
Kimlər gətirəcək dilə, bilmirəm .

Saqi məclisində itir günlərim,
Mənalı-mənasız ötür günlərim.
Fərqinə varmıram, bitir günlərim,
Zamanın qədrini hələ bilmirəm...

## NƏ VAXTSA

Mən hardan biləydim, şirin o çağlar
acı xatirəyə dönər nə vaxtsa.
Ağlıma gəlməzdi gülən dodaqlar
Dərdli kəlmələrlə dinər nə vaxtsa.

Mən hardan biləydim, bir ötən bahar
salacaq saçıma nə vaxtsa ağ qar.
Bir vaxtı zirvədə sandığım o yar
Bilməzdim gözümdən enər nə vaxtsa.

Mən hardan biləydim, gözlərimdə nəm
verəcək nə vaxtsa könlümə dərd-qəm.
Bilməzdim eşq ilə alışan bir şəm
Gün gələr, közərib sönər nə vaxtsa...

**NƏZƏR DƏYSİN DƏRDİMƏ**

Dərdlərimi göy səmada gizləsəm,
acı çəkib göynəyərəm, İlahi.
Bu dərdlər də məni atıb gedərsə,
tənhalıqdan neyləyərəm, İlahi?!

O gəldikcə ağlımın bir küncünə,
elə gözəl darıxıram onunçün.
Dil-dodağım topuq vurur bir anlıq,
danışdıqca karıxıram onunçün.

Bilməm nədən yaşadıram bu eşqi,
nahaq yerə ürəyimdə yer tutur.
Üz-gözümdə təbəssümü görənlər
mən yetimi sevənlərlə bir tutur.

Alışsam da yalnızlığa gizlicə,
boş ümidlər qurdalayır beynimi.
Kilidlənib qəlb evimin qapısı,
xoş sözlər də açmır artıq eynimi.

İstəyirəm nəzər dəysin dərdimə,
bəlkə bir az gözə gəlib azala.
Eh, nə bilim, bu da belə ömürdü,
indən belə çətin nəsə düzələ...

**AYRILIQ**

Giminə dərd verir, kiminə hüzur,
Hər ömrə bir cürə dolur ayrılıq.
Bəzən gəlişiylə tufan qoparır,
Bəzən də çox səssiz olur ayrılıq.

Təsəlli gəzirsən dildə-dodaqda,
Süni təbəssümlər qalır yanaqda.
Səssiz küçələrdə, tənha otaqda
Ömürdən günləri alır ayrılıq.

Yalançı ümidlər, "güvən" duyğusu
Ürəkdə yaradır sevmək qorxusu.
Gəlir ağlımıza ölmək arzusu,
Adamı yüz fikrə salır ayrılıq.

Gecələr ulduzun pıçıltısıyla,
Gündüzlər günəşin parıltısıyla,
Payızda yarpağın xışıltısıyla
Həsrət nəğmələri çalır ayrılıq.

Süz, Saqi, badəni, dərd unudulsun,
Fikirlər dağılsın, qəlb ovudulsun.
Çətin gözlərdəki yaş qurudulsun,
Çünki xatirətək qalır ayrılıq...

**GETDİ**

O bir şəfəq saçan günəş olsa da,
Qəlbimi, ruhumu dondurdu getdi.
Sevdirdi özünü, bağlandım ona,
O isə başımı qandırdı getdi.

Mənim hisslərimdən o halı idi,
Bir zaman o yar da vəfalı idi.
Eşqimiz pərvanə misalı idi,
O zalım şəm olub yandırdı getdi.

Sanmayın dəliyəm, nə də sərsəri,
Sanmayın ölürəm ondan ötəri.
Artıq gözlərimdə yoxdur dəyəri,
Sadəcə qəlbimi sındırdı getdi.

**AXI**

Sən məni nə cürə sevirsən axı? -
Hər sözüm qəlbinə toxunur sənin.
Dilindən məhəbbət, sevgi tökülür,
Gözündən tam əksi oxunur sənin.

Sən məni nə cürə sevirsən axı? -
Əlimdən tutanda titrəmir əlin.
O zərif, o incə dodaqlarınla
Nə qədər bəhanə söyləyir dilin.

Sən məni nə cürə sevirsən axı? -
Pəncərən önündə dayanmırsan heç.
Mənsiz gecələri yatan zamanlar
Diksinib yuxudan oyanmırsan heç.

Sən məni nə cürə sevirsən axı? -
Aldığım heç nəyi bəyənməyirsən.
Bu kasıb ömrümün sultanı sənsən,
Nə üçün sən bundan öyünməyirsən?!

Sən məni nə cürə sevirsən axı? -
Gəlmir qısqanclığım xoşuna sənin.
Bilsəydim bu qədər sıxılmağını
İnan ki, çıxmazdım qarşına sənin.

Sən məni nə cürə sevirsən axı? -
Çətin anlarımda yanımda yoxsan.
Vallah, unudaram bütün dərd-qəmi,
Bircə yol üzümə sevgiylə baxsan.

Sən məni nə cürə sevirsən axı? -
Bilmirəm, bəlkə də məhəbbət budu,
Bəlkə də sevilmək belə olurmuş.
Bəlkədə bu eşqin cazibəsindən
Mənim ürəyimə şübhə dolurmuş...



**SEVİNC RZA**

# BAZAR SƏHƏRİ

(hekayə)

Sabah tez açılsın deyə o qədər darıxırdım ki, yuxum ərşə çəkilmişdi. Tezdən geyinəcəyim paltarları belə vaxt itirməmək üçün indidən hazır qoymuşdum. Neçə aydı məzuniyyətə gəlməyən sevgilim bir günlük şəhərə gəlmişdi. Şəhərə gec çatdığından səhər görüşməyi planlaşdırdıq. Təkrar-təkrar "Gecikmə, səni görüm, qayıtmalıyam" deyirdi. Düzü, nə baş verdiyini soruşmadım. Onu görəcəm deyə çox həyəcanlı idim. Nə deyəcəyimi düşünsəm də, onu görən kimi hər şeyi unudurdum. Dünya mənimçün sanki ondan ibarət idi. Onsuz nə bir həyat, nə bir dünya təsəvvür edirdim.

Elnur gözəl insan olmaqla yanaşı, Vətənini sonsuz bir sevgiylə sevən cəsarətli vətənpərvər bir zabit idi. O nə qədər çətin və əziyyətli olsa da, vətəninə xidmət etməklə qurur duyurdu. Birdən yatıb qalaram deyə saatı da qurmuşdum. Oyanıb tez hazırlaşdım. Gecikərəm deyə çay belə içmədən çıxdım. İstirahət günü olduğundan yollar da açıq idi. Görüşəcəyimiz yerə vaxtından tez çatdım. Bir az gözlədim. O dəqiq insan idi, dediyi vaxt gəlirdi. Amma bu dəfə nəsə gecikirdi. Ürəyimdə "Ondan çıxmayan iş, görəsən, nə olub" deyərək narahat olmağa başladım. Gözlərimi bir nöqtəyə zilləyib fikrə getmişdim ki, mesaj səsinə dik atıldım. Elnur idi. Belə bir cümlə yazmışdı: "Mən təcili gedəsi oldum. Tezliklə qayıdacam, görüşərik. Sən evə qayıt, gülüm".

Nə baş verdiyini anlamasam da, ciddi nəsə var deyə düşündüm. Onu görə bilmədim deyə çox pis oldum, əlim-qolum boşalıb yanıma düşdü sanki. Küçə olduqca səssiz idi və sükut içində idi. Dəfələrlə mesajı oxusam da, yerimdən qalxıb getmək istəmirdim. Onu sonsuza qədər burda gözləyəcəymişəm kimi oturmuşdum. "Yaxşı, tezliklə görüşərik, özündən muğayət ol" yazıb evə qayıtmaq üçün taksi axtardım. Yaşlı bir dayıya yaxınlaşıb məni evə aparmağını xahiş etdim. Bir az yol getmişdik ki, radioda xəbərlər başladı. Aparıcı xanımın ilk cümləsi belə oldu: "Bu gün səhər 05:00 radələrində Azərbaycan ordusu düşmən işğalı altında olan torpaqlarını azad etmək üçün əks həmlə əməliyyatına başlayıb".

"Bu nə idi, İlahi?!"

Sonra deyilən heç bir sözü eşitmədim. Dəhşətli bir hönkürtü tutdu məni, dunya başıma fırlandı. Nə qədər çalışsam da, özümü ələ ala bilmədim.

Güzgüdən arxaya baxan sürücü təlaş içində "Sizə nə oldu, ay xanım" desə də mən ona cavab verə bilmirdim, sanki nitqim tutulmuşdu. O maşını yolun kənarına çəkərək su alıb verdi mənə. İstəməsəm də,

“Yaxşı deyilsiz, için. Rənginiz ağappaq olub” deyə israr etdi. İçmək istəsəm, də içə bilmədim. Nəfəsim boğazımda düyünlənmişdi sanki. Gedək deyə əlimlə işarə etdim. Yazıq sürücünü də qorxuzmuşdum. Gözü arxada qalmışdı, tez-tez “Yaxşısız?” deyə soruşurdu.

Evə necə çatdığımı bilmədim, elə bil ruhum bədənimdən ayrılmışdı. Ağlıma min fikir gəlirdi: “Birdən Elnura nəsə olar. Birdən o qayıtmaz”. Sonra öz-özümə “Sus, dilin qurusun” deyib özümü danlayırdım.

Telefonu əlimdən yerə qoya bilmirdim. Hər gün yazmağıma baxmayaraq, bütün mesajlarım cavabsız idi. “Nə olar bircə kəlmə yaxşıyam yaz” deyə yalvarırdım. Nəhayət, beş gundən sonra bir mesaj gəldi: “Narahat olma, mən yaxşıyam”. Gözlərimə işıq gəldi, yenidən nəfəs almağa başladım. Amma nigaranlığım azalmırdı, onun müharibənin od-alovunun içində olduğunu düşünmək dəhşət bir hiss idi.

Uzun illər həsrətində olduğumuz torpaqların azad olmasına ürəklə sevinə bilmirdim. Bu Elnurun döyüşdə odun-alovun içində olmasıyla yanaşı, şəhidlik zirvəsinə yüksələn igid Azərbaycan oğulları ilə bağlı idi. Hər gün bir neçə ocaq sönür, neçə ananın ürəyinə dağ çəkilirdi. Üçrəngli bağrağa bükülən hər tabut ürəyimizi param-parça edirdi. Əlimdən dua etməkdən, göz yaşı axıtmaqdan başqa heç nə gəlmirdi.

Elnur bir mesajında belə yazmışdı: “Biz artıq Zəngilanı azad etmişik, sən inana bilirsən, biz qalibik, biz qələbə çalacağıq, buna əminəm. Ən böyük arzum Şuşada bayrağımızın dalğalandığını görməkdir, əzizim”. Bu sözləri sevinc göz yaşlarıyla oxuyurdum. Qələbə xəbərləri məni sevindirsə də, içimdəki sıxıntı azalmırdı. Çətin günlər idi.

Artıq neçə gün idi ki, əlaqəmiz kəsilmişdi. Nə zəngimə, nə mesajıma cavab verirdi. Hər gecə göz yaşlarım yastığımı isladırdı, su belə boğazımdan zorla keçirdi. Hər an cavab verə bilməyəcəyini bilsəm də, tez-tez zəng vururdum. Səsini eşidə bilsəm, bir alo desə, dünyalar mənim olardı. Amma cavabsız qalan zənglərim qəlbimi didib parçalıyırdı.

Yuxum ərşə çəkilsə də, bu gecə az da olsa yuxuya getmişdim. Yuxumda Elnurun gülə-gülə əllərimi buraxıb məndən uzaqlaşdığını gördüm. Mən nə qədər “Məni sənsiz qoyub getmə” deyə çağırsam da, uzaqlaşdı, arxasınca baxa-baxa qaldım. Özüm öz səsimə oyandım, həyəcandan az qala ürəyim partlayırdı.

“Bu nə yuxu idi, İlahi? Yox, yox, Elnur mənə söz verib o məni qoyub getməz” deyə özümə təsəlli verdim. Səhərin açılmasını səbirsizliklə gözləyirdim.

Yerimdən duran kimi səsini eşitmək ümidiylə zəng vurdum. Uzun bir çağrıdan sonra səs gəldi, çox sevindim. Amma bu səs yad səs idi, bəkə səhv oldu. “Bu kimdi?” deyə düşündüm bir anlıq, amma yox düzgün nömrəyə zəng vurmuşam.

“Kimsiz? Siz niyə Elnurun telefonunu açırsız?” deyə ard-arda həyəcanlı suallarımla telefonun o başındakı tanımadığım insana danışmağa macal verməsəm də, o “Xanım, səbrli olun, dinləyin məni” deyərək təmkinli bir səslə məni sakitləşdirməyə çalışdı.”

“Xanım, bilmirəm necə deyim, amma deməyə məcburam. Elnur dünən axşamüstü Şuşaya sancılan bayrağımıza baxa-baxa gülümsəyərək şəhidlik zirvəsinə ucaldı. Başınız sağ olsun. Vətən sağ olsun. O bizim qəlbimizdə əbədi yaşayacaq!”

Onun sonra dediyi heç bir sözü eşitmədim. Və gözlərimi açanda özümü xəstəxanada gördüm Tez ayağa durdum, “Yox, mən burda neyləyirəm axı? Mən Elnurun yanında olmalıyam, mən getməliyəm, heç kim məni saxlaya bilməz”.

Həyəcanlı halda qapının yerini tapa bilmədiyimdən qəfəsdəki quş kimi çırpınırdım. Özümü toparlayıb küçəyə qaçdım. “Özümü onunla son görüşə çatdırmalı idim. Ona sözüm vardı. Niyə mənə verdiyin sözünü tutmadın, Elnur? Axı tezliklə qayıdacam, sən evə get demişdin. Sən mənim arzularımı, sevgimi, ümidlərimi də özünlə məzara apardın, məni də apar... Sən ən böyuk arzuna qovuşdun. Bəs mən niyə sənə qovuşmadım, Elnur?!”



## GÜNEL AĞAZADƏ

### ÇƏTİRSİZ QADIN

Mən bir qadın tanıyıram:
Nə zaman ki, yağış yağsa,
Yağış altda yorulmadan
Uzun-uzadı yol gedir.
Ya çətiri evdə qalır,
Ya da çətiri heç sevmir...
Mən bir qadın tanıyıram:
Saçındakı ağ tellərdən
Çəkinməyən cəsur qadın.
Həqiqətlər arasında,
Unudulub sirmi qaldın?
Yağış altda gəzən qadın,
Yağış dinər çox keçmədən -
Günəş baxar göy üzündən.
Evinə dön ağ tellərin qurumadan,
Fikirlərin olar-olmaz bir məkanda
Gün üzünə heç çıxmadan,
Göz yaşının səbəbini
Kimsə səndən soruşmadan...
Basdi, üstün su olsa da,
içdən-içə alovlandın.
Evinə dön,
yağış altda gəzən qadın...

### ƏDALƏTSİZ DÜNYA

Ədalətsiz dünyadı,
Görmədinmi?
Müharibə başladı,
Vətənin oğulları
Silahlara sarıldı.
İstiqanlı insanlar
Qar altından tapıldı...
Ürəyi olanların
Ayağı yox, qolu yox.
Qırx dörd günlük döyüşdə
Bütöv oldu torpaqlar,
Çoxu yarımçıq qaldı.

Maneəni aşmaqçün
Yol açan insanların
Heç biri qayıtmadı...
Dönməyə yol olmadı,
Bilmirəm.
Yer necə tab gətirir
Bu qədər məzarlara?
Sən də deyirsən mənə,
Bir az istiqanlı ol.
İstiqanlı olduqca
Bütün haqsızlıqları
Qanımda əridirəm...
İçimdən susmaq gəlmir,
Demədiyim hər kəlmə
Yaşayır qaranlığı.
Məni aparıb atın
Məhbusların içinə.
Şairlər susmayınca,
Zindandır azadlığı...

### ÖZÜMƏM DƏ

Özüməm də -
Günlər keçir həzin-həzin,
Bir az dəli, bir az gərgin.
Evdə sobamız yansa da,
Üşüyürəm.
Heç bilmirəm nədi dərdim...
Özüməm də -
Özüm kimi
Yaşayıram sevincləri,
Unuduram dərdi-qəmi.
Bir az nikbin, bir az üzgün
Aynalara baxır gözüm,
Aynalar da demir düzün.

Elə bil heç böyümürsən,
Elə həmin o uşaqsan:
Dərddən-qəmdən qaça-qaça
Qaçdı-tutdu oynayırsan...
Özüməm də -
Özüm üçün
Qapamıram pəncərəni.
Tez-tez baxıram yollara,
Deyirəm – Kaş ki qar yağa.
Uşaqlar qarı çox sevir,
Düşüb qartopu oynaya...
Özüməm də -
Saçlarıma sığal çəkib,
Özümə yaxşı baxıram.
Yaxşı ki, gec-gec də olsa,

Bəzən hal-əhval tutursan.
Mən də qələmə sarılıb
Özümə şeir yazıram...
Özüməm də -
Nə deyim ki?
Bəlkə hərdən baş çəkəsən,
Özün baxıb gözlərimə
Cavabını bilə-bilə
Deyəsən – Özün necəsən?

**YOXLUQ**

Bir bilsən... Bu yoxluq nə qəribədi,
Həm yerin görünür, həm yerindəsən.
Sən mənim qəlbimin özlüyündəsən,
Bəlkə də qəriblik ürəyimdədi...
Sənsiz darıxıram deyə bilmirəm,
Çünki sənsizliyi qəbul etmirəm.
Bir bilsəm... Varlığım niyə dərd olub?
Məchul bir zamanda, məchul məkanda
Naməlum insanla bir bütöv olub...

**XƏYALIMIN RƏNGLƏRİ**

Mən heç böyümədim ki,
Bəlkə soldu arzular.
Bəlkə ümidsiz qaldım,
Heç nağılsız qalmadım...
Xəyalımın rəngləri
Qaraları ağartdı,
Bəxtimə kölgə saldı.
Kimi yalan danışdı,
Gözlərimi boyadı.
Kiminin nağılları
Ömrümün yollarında
Toz pənbə rəngdə qaldı...
Mən heç böyümədim ki,
Dünyam hələ rəngarəng.
Dayan, tələsmə, dostum,
Sən hara tələsirsən?
Hələ rüzgar əsəcək.
Sevgilərə ip taxıb
Uçurarıq çərpələng...
Hələ qalıb oyunlar,
Oyunda uduzanlar
Gözlərini yumurlar.
Ən yaramaz adamlar
Axtaranda tapılar...
Artıq bəsti,
Yoruldum.
Bu dəfə siz uduzun,
Bir dəfə də mən udum.
Yumsun hər kəs gözünü:
Birdəfəlik gizlənim,
Tapmasınlar izimi...

**DÜŞÜNƏN MƏZAR**

Bu necə səssizlikdi,
Səsi yorur beynimi?
Deyin – Burda kim ölüb,
Kim tutubdu matəmi?
Ruhum kimi yad edir
Yazısız vərəq kimi?
Mən niyə ağ geymədən
Ağlara bürünmüşəm?
Başıma yığışanlar
Gülməkdənmi ağlayır?
Çoxdandı görmədiyim
Dost-tanış da burdadı...
Niyə hər kəs peşmandı,
Niyə üzü qaradı?
Kim rahatlıq tapıbdı
Təsadüf itkilərdən?
Doğmalarım bezibdi
Yalançı təsəllidən.
Axı dünya genişdi...
Bəs mən niyə baxıram
Balaca çərçivədən?
Hamının başı sağdı,
Hamı da bir-birinə
Başsağlığı diləyir.
Dirilər maraqlıdı...
Hamı görür öləni,
Bilir dünya fanidi.
Bu dünyanı yaşayır
Əbədi dünya kimi.
Burdan baxanda dünya
Cəmi qırx vərəqlidi...



**XAQANİ ABBASƏLİ**
Azərbaycan Yazıçılar Birliyinin üzvü

# HALALLIĞIN POEZİYASI

Poeziyanın əbədi qəhrəmanlarından biri həqiqətdir. Amma həqiqətin poeziyaya çevrilməsi üçün ağıllı ürəklə ürəkli ağlın nahaqqa müxalifətdə duraraq zamana barmaq qıcaması önəmli şərtdir. Çünki poeziya fikirlə hissin şərikli övladıdır. Bu övladın yaşam ölçüsü dartılmış qaşlarının arasından boylanan dünyanın halal adamının yaşı qədər olur. O halal adamı – isbata ehtiyacı olmayan həqiqəti poeziyaya gətirə biləndə həqiqi poeziya yaranır.

**Hardasan dünyanın halal adamı,**
**Hardasan, varmısan? -Səsimə səs ver.**
**Məndən o tərəfə sən tükənirsən,**
**Səndən bu tərəfə mənə nəfəs ver.**

Bu şeirdə şairin ilahi sevgisi, Tanrıya olan ali hissi izlənilir. Belə məqamda şairin duyğularının nəfəsini səba yelinin həzinliyi ilə müqayisə etmək olar.

**Vurnuxub qalmışam dünya içində,**
**Mənə bir yol salğa özünə doğru.**
**Üzülüm bəşərin adiliyindən,**
**Sürünüm mübarək izinə doğru.**

Umumiyyətlə, İbrahim İlyaslının poeziyası bütövlükdə iki dünya arasında körpüdür. Şairin poetik məntiqi ilə poetik "cığallığı"nın əlbəyaxa savaşının nəticəsindən doğan məntiq hamının əvvəlinin sirr, axırının bir olmasıdır. Çoxlarının gələ biləcəyi bu qənaətə onun öz baxışı var:

**Hərə qalxır öz ipinə,**
**Kim düzünə, kim çəpinə.**
**Hamı özünün dibinə**
**Öz zirvəsindən yıxılır.**

Bu məqamda şair qardaşımın istedadı göz qamaşdırır desək, haqlı olarıq. Çünki yuxarıda söylənilən həqiqətin şəklini bundan gözəl çəkmək mümkün deyil.

...İbrahim İlyaslının poeziyası yaddaşımızı unutmaq tərbiyəsindən uzaqdı. Qəlbinin sonuncu qorunu belə söz yolunda yaxmağa hazırdı. O, ilahi sevgisini heç bir bəni-adəmlə paylaşmayan şairdi.

**Yalqızam yerin üstündə,**
**Göyün altında yalqızam.**
**Azərbaycan söylənilən**
**Öyün altında yalqızam.**

...İbrahim İlyaslının poeziyasında düzü-düz prinsipi ana xətt kimi bütün hallarda gözlənilir.

**Qolunu bağlayır, başını kəsir**
**Daşının üstünə daş qoyanların.**
**Anası ağlardı, balası yesir**
**Bu yurdun uğrunda baş qoyanların.**

Və ya

**Çıxmır azadlığı top lüləsindən,**
**Məmləkət basılır – millət götürür.**
**Nə gündü bu elin fərarisindən**
**Bu yurdun qazisi minnət götürür.**

Bu şeirlərin mütaliəsindən doğan təəssürat belədir ki, ölçü-biçi baxımından onlar bizə tanış olsalar da, poetik ruh, ovqat baxımından öz orijinallığı, təbiiliyi və poetik yükü ilə fərqlidir. Çünki İbrahim İlyaslı poeziyasının ehtiva etdiyi dərin mənalara baş vuranda onların təkrarsızlığının bir daha şahidi oluruq.Buna səbəb onun poeziyaya heç vaxt vərdiş kimi baxmamasıdır. Axı ilahi söz bilən ona başqa cür baxa da bilməz.

**Mən bir söz bilirəm – dilimə gəlsə,**
**Sədası qanıma bələyər məni.**
**Şahlar yeddi yerə şaqqalayarlar,**
**Rəiyyət daş-qalaq eləyər məni.**

Bu bir danılmaz faktdır ki, şair təfəkkürünün becərdiyi məhsul – şeir şairin elə özüdür. Hər halda özü boyda yükü hər şair çəkə bilməz. Əgər belə olmasaydı şeir adiləşərdi. Onu da unutmayaq ki, poeziya mətin bir varlığın övladıdır. Poeziya haqqındakı qənaətimə istinadən demək istəyirəm ki, indilərdə ədəbiyyatımızda adamın “ruhunu yerindən oynadan” şeir nümunələri çox az yaranır. Amma belə bir qıtlıqda İbrahim İlyaslının yenicə çap olunmuş “Mən bir söz bilirəm...” adlı şerlər kitabı əlinə keçir, oxuduqca haldan-hala düşürsən və üzünü haqq dərgahına tutub deyirsən: Tanrım, bu mənimdi! İçində qəlbinin etirafı səslənir, yenə bir səhifəni çevirib astadan

**Tapdım çəmini də, tutdum dilə də,**
**Necə hökm elədi, getdim elə də.**
**Dünya söylədiyin qaldı belə də,**
**Bə deyirdin belə qalmaz, əfəndim!**

– deyirsən. Nolar... Gələcək özü gələcək, arkadaşım. Təki poeziyanın əbədi qəhrəmanı olan həqiqət dilində korşalmasın. Sözünün ovxarı qarşısında baş əyirəm!

**11.12.2004**



## SAHİBƏ YUSİF

**TƏNHALIQ**

Titrədimi bir dəfə tənhalıqdan ürəyin,
Üşütdümü ruhunu otağın soyuqluğu?
Axtardımı saçımın yumşaqlığın əllərin,
Kim isə doldurdumu o mən adlı boşluğu?

Süzüldümü göz yaşın mən yadına düşəndə,
Darıxdımı baxışın baxışımdan ötəri?
Yatağını gecələr qor tutub buz kəsəndə
Necə yatdın gecəni, necə açdın səhəri?

Sükutuna susdumu qurumuş dodaqların,
Boğazında qəhərin düyünlənib qaldımı?
Xəyalımı qucmağa uzandımı qolların,
Hicranın qəm küləyi saçlarını yoldumu?

Milyonların içində tənhalıq yaşadınmı,
Doğmaların nə vaxtsa yad oldumu gözündə?
Yalnızlığı evindən küçəyə daşıdınmı,
Həsrətin əzabları oxundumu üzündə?

İntizardan çökdümü gözlərinə qaranlıq,
Asıldımı kipriyin saatın əqrəbindən?
Dedinmi ki, yanımda olaydı bircə anlıq,
Qucaqlamaq, sarılmaq keçdimi ürəyindən?

**ÇATMIŞIQ QOCALIĞA**

Qədrini bilməmişik bizdən gedən ömürün,
Quluna çevrilmişik mərhəmətli könülün.
İmzası qalsın deyə adımızda bu günün,
Qaçmışıq ucalığa...

Üsyan edib taleyə unutmuşuq qədəri,
Ürəkdə yuva salan neçə-neçə kədəri.
Unutmuşuq zülmətdən doğan nurlu səhəri,
Batmışıq qaranlığa...

Zülmətlərdən yol tapıb gedərək addım-addım
İtirmişik izini körpəcə addımların.
Dönüb bir də baxmışıq, baxmışıq maddım-maddım,
Baxmışıq uşaqlığa...

Neçə-neçə illərin soyuq qışından keçib,
Divara hörülməyən oyuq daşından keçib,
Qanadsız arzuların xəyal yaşından keçib
Çatmışıq qocalığa...

**DARIXDIR BİR AZ DA**

Darıxdır bir az da, darıxdır məni,
Qoy ruhum kədəri ata bilməsin.
Ünvansız yazılan məktublar kimi
Gedib ünvanına çata bilməsin.

Darıxdır bir az da, darıxdır məni
Pərvanə şəminə darıxdığıtək.
Dolanıb başına təvaf eyləyim,
Ruhum sənin olsun, qurbanın ürək.

Darıxdır bir az da, darıxdır məni,
Mən ki bu hiss ilə çoxdan tanışam.
Gizləyim müqəddəs sirr kimi səni,
Özümdən özgəyə çətin danışam.

Darıxdır, qoy çatsın Allaha səsim,
Bəlkə də o məni güldürəcəkdir?
Səni ruhundakı iblis xilqətin,
Məni darıxmaqlar öldürəcəkdir...



# RƏŞAD AZƏRİ

## CƏNNƏTDƏN GƏLƏN ŞƏHİD MƏKTUBU

**Şəhid gizir Vüqar Ələkbərova ithafən...**

Bu məktubu sizlər üçün yazıram,
Mənim yerim gül-çiçəkdir, anacan.
Namus, qeyrət, vicdan üçün hazıram
Yenidən doğulub, ölmək, anacan!

Sizi incitmişəm, sizi üzmüşəm,
Tanrı istəyinə boyun əymişəm.
Şəhidlik zirvəsin məqam seçmişəm,
Borcun həqiqəti bilmək, anacan!

Laylanı qəlbimdə büküb bəslərəm,
Məni unudana burdan səslərəm.
Səni qucaqlayıb, səni istərəm,
Nəmli gözlərini öpmək, anacan!

## MƏN ONUN ŞEİRİYƏM

Mən onun şeiriyəm, onun ilhamı,
Hopmuşam yazdığı ağ varaqlara.
Mən onun varlığı, ömür romanı,
Oxunur, bal qatır bal dodaqlara...

Bu ömür romanı, bu ömür şeiri
Üfüqdə uzanan ümman kimidir.
Gah sakit ləpəli, coşqun, dalğalı,
Gah şeir oxuyan kaman kimidir...

Mən onun çağlayıb coşan sevgisi,
Yazıb söyləmişəm xoş soraqlara.
Mən onun şeiriyəm, onun ilhamı,
Hopmuşam yazdığı ağ varaqlara...

## FƏDAKAR QADIN

Zamanın ömrünə fəda eyləyib,
Zəhmətə alışan fədakar qadın.
Sevinc göz yaşların, görən, neyləyib,
Fərəhlə yaşayan fədakar qadın?

Şeirlə toxunur incə naxışlar,
Bu yorğun görünən susqun baxışlar.
Cismin atəşini yusa yağışlar,
Yenidən başlayan fədakar qadın.

Pisin həddi çatmaz, yaxşıya yetməz,
Tanrı dərgahında yaxşılıq itməz.
İlahi, bu qadın yorulmaz, bitməz,
Özünə oxşayan fədakar qadın.

## ÖZÜMDƏN ÜZR İSTƏYİRƏM

Dəyərsiz kəsləri dəyərləndirdim,
Layiq olmayanı layiqli bildim.
Nankor insanlarçün canı məhv etdim,
Mən özümdən üzr, üzr istəyirəm!

İmdadlar, haraylar artır günbəgün,
Özgə imdadlara tələsib hər gün
Mən öz imdadıma gecikdiyimçün
Mən özümdən üzr, üzr istəyirəm!

Ürəyin açarı düşür ürəyə,
Sınan qəlb düzəlməz, dönməz geriyə.
Özgənin ürəyi sınmasın deyə,
Mən öz ürəyimi parçalamışam.
Qəlbimə od vurub od qalamışam,
Mən özümdən üzr, üzr istəyirəm!

**ZƏRİF XANIM**

Zərif xanım, gözəl xanım,
Sən zəriflik simvolusan
Zərifləşmək, gözəlləşmək istəyənin gözlərində...
Sən insanlıq simvolusan
İnsanlıqdan şeir yazan bir şairin sözlərində...
Sən sevginin simvolusan
Təmiz qəlblə sevənlərin ürəyində...
Zərif xanım, gözəl xanım, sən ümidsən,
Zərifləşmək, gözəlləşmək istəyənin ümidisən.
Ümidlərin qırılmasın, azalmasın,
Sənə ümid edənlərin ümidisən.
Zərif xanım, gözəl xanım...

**YALAN**

Doğrular yalanın izində itir,
Kövrək ürəklərdə qalandır yalan.
Xəyanət yalandan başlayır, bitir,
Ən böyük xəyanət yalandır yalan.

Həqiqət acıdır, yalanlar şirin,
Yalan həqiqətə verməyir sirrin.
Yalanlar sarsıdır könül xatirin,
Ruhumu əlimdən alandır yalan.

Yalan qəddar imiş qəddar yağıdan,
Yalan qəlb ağrıdan, ürək dağıdan.
Yalan keçib gedir sevgi bağından,
Məcnunu çöllərə salandır yalan...

**DÜNYA**

Bir dünya var, bu dünyada
        Dərdlərini bilən yoxdur.
Bu dünyanın dərd-qəmindən
      Göz yaşını silən yoxdur...
Tale yükü zəhmətinə yüklənibdi,
Ağrı-acı talehinə köklənibdi.
Tək ümidi – Tanrısına səslənibdi...
Köksündəki harayını
            Görən yoxdur.
Bir dünya var,
                Bu dünyada
Dərdlərini, bilən yoxdur.
Sevgisindən dolsa gözü,
            Göz yaşını silən yoxdur...

**ŞAİR ÜRƏYİ**

Ömrünü min ömrə qoşub bağlayan
Qəlbləri duyandı şair ürəyi.
Tufanlı dəniztək coşub-çağlayan
Sahilsiz ümmandı şair ürəyi...

Sevdaların sevgi dadı gözündə,
Yazılmamış misraların izində.
Ürəyi odlanır ilham közündə,
Şeirsiz virandı şair ürəyi...

Arzu qanad açır arzularında,
Ümid mehman olur röyalarında.
Sözlər qatarlanır misralarında,
Duyğulu romandı şair ürəyi...

Tanrıdan verilən doğru, əzəldi,
Sevən ürəklərdə sevgi özəldi.
Ruhu gözəllərin könlü gözəldi,
Kükrəyib coşandı şair ürəyi...

Rəşad Azəridən sordum bir dilək,
İncədən incədi duyan bu ürək.
Əksini göstərən zərif aynatək,
Yaman tez sınandı şair ürəyi...

**QƏDR GECƏSİ**
(qəzəl)

Bu gecə ümidlərin gecəsi, bu Qədr gecəsi,
Sənədir ümidimiz, tək sənsən tək haqqın səsi.

Bu gecə gecələrin üstünüdür, şah tacıdır,
Nazil etmisən bizə Qurani-Kərim ayəsi.

Duaların nicatı yetişdi nur dərgahına,
Dərdlilərin dərdinə yetişsin şəfa çarəsi.

Açdın tövbə qapısın, tövbələri sən qəbul et,
Günahları bağışla, olmasın məhşər naləsi.

Bağışlayan, mehribansan dünyanın Yaradanı,
Yaratdığın dünyanın sənsiz çarəsiz bəndəsi.

Qəbul et hamı kimi Rəşadın da duaların,
Sənə qurbandı onun cismindəki son nəfəsi.



## XƏYALƏ YAĞIŞLI

**QƏLBİ GÖZƏL ADAMLAR**

Qəlbi gözəl adamlar
Gələcəyin barıdı.
Sərvətidi dünyanın,
Qürurudu, arıdı.

Vicdanla düşünərək
Vicdanla addımlayar.
Ucaldıb insanlığı
Ön sıralarda sayar.

Qəlbi təmiz adamlar
Çirkinlikdən uzaqdı.
Hər işdə, hər peşədə
Hər an üzləri ağdı.

Qəlbi gözəl adamlar
Gözəl düşünər hər an.
Olduqları hər yeri
Gözəlləşdirər hər an.

Özləri bir dünyadı
Bu dünyanın içində.
Bir möcüzə, bir sehr
Var onların gücündə.

Qəlbi gözəl adamlar
Mələyidi dünyanın.
Baharıdı, yazıdı
Üşüyən hər bir canın.

**QIŞ OLMASAYDIN...**

Sənin üçün ay olub
Zülmətinə yanardım.
İtirəndə yolunu
Səmadan boylanardım.

Nur ələyib həmin an
Qoymazdım ki, azasan.
Dolanıb boş vaxtını
Zamana uduzasan.

Olsaydın əgər dürüst,
Sevgimə tən-bərabər.
Ayrılıqdan çox uzaq,
Bax indi, şən, bərabər.

Mən sənə yaz olardım,
Qış olmasaydın əgər.
Bitirərdim gül-çiçək,
Daş olmasaydın əgər.

Mən sənə bir ömürlük
Sevinc olardım, inan.
Tanımazdın qəm nədi,
Bahar olardı dünyan.

Qışı seçdin, qış oldun,
Həsrətini qucaqla:
Közlərinə isinib
Üşüdüyün ocaqla.



**NADİR AZAYOĞLU**
Azərbaycan Yazıçılar Birliyinin üzvü

# "İZM"SİZ ŞAİR

Çağdaş ədəbiyyatımızda baş verən müasir ədəbi proseslərdə indisi və gələcəyi hələ qaranlıq görünən cərəyanların heç birinin Vasif Süleymana dəxli olmadı. Füzuli Sabiroğlunun təbirincə desək, "allı-güllü" "izmlərə siğə"dən ilhamının bakirəliyini qoruyub saxlayan şairlərdən oldu Vasif Süleyman.

Pis odur ki, bəzi "ədəbiyyatçılar" kimi Yaradanın yolundan azasan, kimlərinsə təhrikiylə öz nəfsinin quluna çevrilsə və ruhunun onurğa sütununu qırasan.

**Nə zülməti, nə işığı bəllidi,**
**Nə axşamdı, nə səhərdi... bilmirəm.**
**Zalım ömrü zalım kimi yaşamaq**
**Necə olur, nə təhərdi... bilmirəm...**

Nə yaxşı ki, bilməyib! Heç bilə də bilməzdi. Ona görə ki, bu gün qanı qanımızdan olmayanlardan çox "ustalıq"la, qrantlar gücünə istifadə edərək şifahi xalq yaradıcılığına – ağız ədəbiyyatına, folklora, dastanlara, bayatılar və laylalara məqsədyönlü şəkildə zərbə vurmaq üçün çıxışlar yapan, onların unudulmasına canla-başla "qulluq" göstərənlərdən ola bilməzdi Vasif Süleyman.

**Laylasını ata çaldı, göynədi,**
**Nə dedisə, ona dedi bu körpə.**
**Göz açanda anasını görmədi,**
**Dil açanda ana dedi bu körpə...**

Öz ənənəsinə sadiq qalaraq aydın dili, sərrast ifadəsi kövrək ruhu ilə özgə dərdini bax beləcə anlada bilir Vasif Süleyman.

Vasif eşqin ululuğunu və ucalığını, insaniliyini və ilahiliyini aydınca göstərə bilir.

O qətiyyən sədaqət simvolu olan zərif məxluqları vəfasızlıqda suçlamır. Yaxşı da eləyir. Əslində, vəfasızlıq, dönüklük biz kişilərə xas olduğu halda, xanımların vəfasızlığından, qadın şərəfinə və ləyaqətinə kölgə salan şerlər yazan şairlər nə düşünürlər, görəsən!?

**Nə sevdin sevən tək, nə üz çevirdin,**
**Adi təsəlliydin, adi umuddun.**
**Mən səni hamıdan yaxşı sevirdim,**
**Sən məni hamıdan yaxşı unutdun...**

Ən pis halda gileyini bax beləcə çatdırır. Özüdə çoxlarının qısqanclıqla "aşıq şeri", "tərəkəmə ədəbiyyatı" adlandırdıqları bir biçimdə. Vasif kimin üçün və nə üçün yazdığını çox yaxşı bilir.

Bilir ki:

**A yolçu, sənə yoldaşam,**
**İtir, qayıdaq bu yolu.**
**Apar evlərinə qədər**
**Ötür, qayıdaq bu yolu...**

**Düşməyək yol qarğışına,**
**Gül yazına, qar qışına,**
**Ömrün əzəlki başına,**
**Gətir, qayıdaq bu yolu...**

- deyəndə, dili də, ruhu da Kərkükdən tutmuşta orta Asiyaya, Altaylardan Urala və Sibirə qədər başa düşülən, anlaşılandı.Bu bəs deyilmi!?

Bəs deyilmi, kökü şumerlərdən qaynaqlanan Oğuz nəsilli, Türk əsilli bir şairin Tanrı dərgahına bunca sayğısız və səcdəsi!?

Tanrısına tapınaraq:

**Ürəyin yüyürür, gözlərin axır,**
**Bir ovuc torpağı atdığın yerə.**
**Yüz il yaşamaqla çatmaq olmayır**
**Bir dəfə ölməklə çatdığın yerə...**

- deyən şair Vasif Süleymanı "Eşq ol, dərgahına səcdəyə gəlim" ünvanlı kitabının işıq üzü görməsindən dolayı təbrik edir və ona sənət uğurları arzulayıram!



## ƏLÖVSƏT HƏKƏRİLİ

### QIZIMA YAZDIĞIM II ŞEİR

Əlini əlimə ala bilsəydim,
Saçına toxunub sığal çəksəydim...
Bir gün yanağından, qızım, öpsəydim,
Ölsəm də, dünyada dərdim olmazdı -
Biz nəyin, gör nəyin həsrətindəyik...

Tanrının hökmüsə çırağım sönə,
Acı göz yaşları qalacaq mənə...
Ulduzdan bir çələng hörsəydim sənə,
Ölsəm də, dünyada dərdim olmazdı -
Biz nəyin, gör nəyin həsrətindəyik...

Bilsəm ki, dünyada tək qalacağam,
Cəhənnəm odunda lap yanacağam...
Son arzum qızımı bağrıma basam,
Ölsəm də, dünyada dərdim olmazdı -
Biz nəyin, gör nəyin həsrətindəyik...

### KÖÇDÜN BU DÜNYADAN

***Hacı Şahinə ithafən***

Gözlərini yumdun azan səsiylə,
Köçdün bu dünyadan sübh açılanda.
Hamının qəlbində yerin var sənin,
Köçdün bu dünyadan sübh açılanda.

Yazıb ürəklərə adını getdin,
Əməlin də düzgün, sözün də düzgün.
Vardı Yaradana, Allaha sevgin,
Köçdün bu dünyadan sübh açılanda.

Adı var çiçəyin, adı var daşın,
O taylı-bu taylı sənin qardaşın.
Bəlkə də xoşbəxtsən, mənim qardaşım,
Köçdün bu dünyadan sübh açılanda.

### ÖZBƏKİSTAN GÖZƏLİ

Bəlkə də sən gözəlsən bədirlənmiş ay kimi,
Bəlkə də sən gözəlsən lalədəki xal kimi.
Mən sənə göndərirəm bu şeirlə sevgimi,
Mən səni görməsəm də, Özbəkistan gözəli.

Hamıya doğma olan dünyada mən qəribəm,
Bu dünyaya gəlmişəm, bir şam kimi əriyəm.
Uşaq da deyiləm ki, oyuncaqla kiriyəm,
Mən səni görməsəm də, Özbəkistan gözəli.

O şeir yaza bilən əllərini sıxıram,
Sən özbək gözəlisən, mən də odlar oğluyam.
Dərdlərim çox olsa da, yaraşmaz mən ağlayam,
Mən səni görməsəm də, Özbəkistan gözəli.

Eşqimin göylərində sən bir Zöhrə ulduzu,
Ya da ki bir günəşsən, doğmusan al qırmızı.
Mən də səni vəsf etdim, dünyanın şair qızı,
Mən səni görməsəm də, Özbəkistan gözəli

Bəlkə də biz görüşdük dünyanın son günündə,
Ruhuma çox yatırsan, adını bilməsəm də.
Sən gəl məni bağışla, həsrətini çəkim də,
Mən səni görməsəm də, Özbəkistan gözəli.

### ŞAİR RAMİZ RÖVŞƏNƏ...

Yollar bağlı, dağlar duman, qar idi,
Bir zamanlar gözəl günlər var idi.
Hamıdan çox mənim haqqım var idi,
Gələnmədim, şair, məni bağışla.

Demirəm ki, bu dünyada şirəm mən,
Hörümçəktək ömrü, günü hörəm mən.
Çox istədim görüşünə gələm mən,
Gələnmədim, şair, məni bağışla.

## QAĞA

Şeir gələndə yazdım,
Yazmasam, olmur, qağa.
Yalan vədlə, boş sözlə
Ac qarın doymur, qağa.

Səbrim tükənir, atam,
Bəlkə dünyaya yadam.
Yalan danışan adam
Bir yerdə durmur, qağa.

Eşqin oduna yandım,
Yatmışdım, tez oyandım.
Bir vaxt mən də cavandım,
De – Kim qocalmır, qağa?!

## SEVMƏK İSTƏDİM

Laçından bir qadın sevmək istədim,
Sevgim gözlərimdə qaldı nədənsə.
Məni sevdiyini əvvəl desə də,
Sonra sevdiyini dandı nədənsə.

Gözümdən axsa da yaş gilə-gilə,
Dərdimi demədim çiçəyə, gülə.
Hələ sevməmişdim heç kimi belə,
Sevgim gözlərimdə qaldı nədənsə.

Dərdlərim də artdı, qəmim də artdı,
Bütün ağrılarım canımda artdı.
Ömrümə bir qara günüm də artdı,
Sevgim gözlərimdə qaldı nədənsə.

## ATAM BALASI

Bir az Füzuliyəm, bir az Nizami,
Bir az Nəsimiyəm, bir az Xaqani.
Bir az Şəhriyaram, bir az da Rumi,
Mən belə şairəm, atam balası.

Varsa da şairin sağalmaz dərdi,
Yazıram şeiri mən necə gəldi.
Bir az mən Xəyyamam, bir az da Sədi,
Mən belə şairəm, atam balası.

Şeirdən özümə bir xeymə qurdum,
Bütöv Azərbaycandı ana yurdum.
Bir gün çin olacaq mənim də arzum,
Mən belə şairəm, atam balası.

## RUHDAN DÜŞMƏDİM

Torpaqdanmı, ya sudandı?
Ruhum həmişə cavandı.
Şairliyim çox yubandı,
Yenə də ruhdan düşmədim.

Kimi kordu, kimi kardı,
Geniş dünya mənə dardı.
Yaxşı ki, Allahım vardı,
Yenə də ruhdan düşmədim.

Bu gün, ya da min il qabaq
Nadan vurur sözə calaq.
Tapmasam da gözə çıraq,
Yenə də ruhdan düşmədim.

Unutdum öz həyatımı,
Çapanmadım söz atımı.
İtirdim xoş saatımı,
Yenə də ruhdan düşmədim.

## ÜMİD QALDI PAYIZA

Mən dindirdim, bəndə susdu, dinmədi,
Oğul, qız da qədrimizi bilmədi.
Yaz da gəldi, üz-gözümüz gülmədi,
Ümid qaldı payız gələn aylara.

Saçlarıma düşən dəndən utandım,
Vaxt var idi, mən də yuxu yozandım.
Dərdi, qəmi müftə, pulsuz qazandım,
Ümid qaldı payız gələn aylara.

Dadı getdi, ağızda dad qalmadı,
Yesən, dünya təravətli almadı.
“Sarı gəlin” yıxmayan ev qalmadı,
Ümid qaldı payız gələn aylara.

## DÜNYANIN SEVİNCİ

Dünyanın sevinci hamıya çatar,
Əgər haqq-ədalət öz yerin tapsa.
Bütün arzuların çin ola bilər,
Sənin söylədiyin söz yerin tapsa.

Nə yağış, nə külək, nə də zəlzələ,
Min il dayanmadan tüğyan eyləyə.
Bir daşı divardan qopara bilməz,
Əgər divarda daş düz yerin tapsa.

Heç kimdən soruşmur taleyi yazan,
Uçur, üstümüzə dağılır dünya.
Daşı mamır basır, dağları duman,
Bizi arxasınca çağırır dünya.



HÜMBƏT HƏSƏNOĞLU

# ƏN LƏZİZ YEMƏK

(hekayə)

Amerikanın Kaliforniya ştatının məhkəməsinin ona ölüm hökmü çıxartmasını o, sakit qarşıladı. Sevdiyi qızı narkotik bataqlığından çıxartmaq cəhdləri sonda onu da həmin bataqlığa sürükləmişdi. Asan yolla çox pullar əldə etmək vədi ilə dostları onu narkotik qaçaqmalçılığına təhrik etdilər və polislə son qovhaqovda onun iki polis zabitini güllələməsi həyatını ölüm dalanına dirədi. Kamerada vəkili ilə sükut içində oturmuşdular, vəkilinin ona təsəlli sözləri belə yersiz olardı. Ölüm hökmü oxunan insana nə təsəlli ola bilərdi ki? Vəkil getməmişdən öncə yalnız bunları deyə bildi:

- Ölümün icraatı adətən çox da uzana bilir. Bir şey də, deyim ki, ABŞ qanunvericiliyinə əsasən ölüm hökmü çıxarılmış müttəhim ölümqabağı axşam istədiyi şam yeməyini restorandan sifariş verə bilər. Tək qalanda düşündü;- deməli, yemək sifarişi bu həyatda onun son müstəqil seçimi olacaq. Onun atası Stiv Adams dünya şöhrətli aşpaz idi. O, üç ulduzlu Mişlen reytinqli The French Laundry restoranın baş aşpazı işləyirdi. Atası onu və ondan iki yaş balaca olan qardaşı Tonini də öz sənətinə yönəldirdi. Uşaqlıqdan da onlara ərzaq məhsullarını seçmək, kəsmək, doğramaq qaydalarını öyrədirdi. Ataları öz peşəsinə incəsənət kimi yanaşırdı. O deyirdi ki, "insanın ləzzətə ehtiyacı var. Yemək

ləzzəti yeganə ləzzətdir ki, insanı anadan olandan son mənzilə qədər etibarla müşayət edir". Atası onu da tez- tez təkrar edirdi ki, "ağızda qidanın duzluluğunu, açılığını, şirinliyini, turşluluğunu müəyyən edə bilən on minə yaxın dad reseptorları var. İndi on min dili olan bir fortepiano təsəvvür edin. Aşpaz bu dillərindən istifadə edib musiqi, yəni yemək kompozisiyası yaratmalıdır. Yaxşı kulinar da elə bəstəkardır, o, yemək bəstələyir!" Bir gün o, atasından soruşmuşdu:

- Ata, dünyanın ən yaxşı yeməyi hansıdır?

Atası gülümsəyərək cavab vermişdi:

- Dünyada yalnız bir xalq olsaydı, o yemək yəqin ki, olardı. Xalqlar çox olduğundan yemək ənənələri və dad stereotipləri də müxtəlifdir. Amma kulinariya olimpində olan yeməklər mövcuddur. Mən çox dünya yeməkləri haqda oxumuşam, dadmışam, münsiflik etmişəm. Amma bir təam haqqında bilməyinizi istəy-

irəm. Vyetnamdan İspaniyaya və hətta okeanın biz tərəfinə qədər coğrafi arealda yayılmış bu yeməyin adı dolmadır. İlk dəfə ət qiyməsini bitki yarpağına bükmüş insan çox istedadlı olub. Çox xalqlar bu yeməyin müəllifliyinə iddialıdırlar. Amma əksər alimlər bu yeməyin türkdilli xalqlara mənsub olduğuna tam əmindirlər, çünki "dolma" sözü türklərin "dolmaq", "doldurmaq" sözündəndir. Həqiqətən də yarpaq götürülüb içi doldurulur. Gəlin birlikdə düşünək, dünyanın ən yaxşı yeməyi necə olmalıdır? Birincisi, o yemək insana faydalı olmalıdır, yəni insana lazım olan maddələrlə; zulallarla, yağlarla, karbohidratlarla, vitaminlərlə və mikroelementlərlə zəngin və lazımi mütənasiblikdə olmalıdır. İkincisi, o yemək dadlı olmalıdır, yəni ağızda olan bütün reseptorları eyni anda oyada bilməlidir. Üçüncüsü, o yemək mədə-bağırsaq sistemində rahat həzm olunmalı və heç bir narahatlıq yaratmamalıdır. Dördüncüsü, bu yeməyin xoş ətri olmalıdır. Beşincisi, bu yeməyin gözəl görünüşü olmalıdır. Bütün bunlar ona görədir ki, təam insanın bütün beş hissinə məmnunluq gətirsin. Dolma demək olar ki, bütün bu kriteriyalara cavab verir. Onun əlavə özəlliyi də odur ki, hər dolma elə mikroqazandır. Yarpaq bu mini qazanın divarlarıdır. Yarpaq qiyməni elə bükməlidir ki, qazanın suyu hər dolmanın içinə düşə bilməsin və həm də əksinə, dolmanın içinin şirəsi qazan suyuna qarışmasın. "Kiçik qazanlar" böyük qazanın içində bişirilir. Dolma ağız ölçüsü boyda olmalı və onun tamlığı yalnız ağızda pozulmalı və dolmaiçi şirə ağıza tökülüb "dad partlayışı" effekti yaratmalıdır. Hər dolma da ağızda dad atəşfəşanlığı yaratmalıdır. Dolmanın tamlığını ağızdan kənar pozmamaq üçün ona cəngəllə toxunmaq olmaz. İdeal halda əllə, kompromis olaraq qaşıqla dolmanı yemək olar. İndi mən sizə hələ heç kim tərəfindən həll oluna bilməyən bir tapşırıq verəcəyəm, həll etsəniz, adlarınız qızıl hərflərlə kulinariya tarixinə yazılacaq. Atamızın bu sözləri bizi cuşa gətirdi, biz bu məsələni mütləq həll etmək əzmində idik. - Diqqətlə qulaq asın deyə atam sözünə davam elədi:

- Dolma hazırlamaq üçün dünyada bitən bütün yarpaqlardan istifadə olunub, sonda iki yarpaq seçilib. Birincisi üzüm yarpağıdır. Sellulozası çox olduğundan bu meyvə yarpağı sərtdir. Mini qazan divarı kimi əladır. Yəni qiyməni bu yarpağa hermetik bükmək olur, nə qazanın suyu dolmanın içinə düşə bilmir, nə də qiymənin şirəsi qazan suyuna qarışmır. Bu parametri əladır. Amma hər gözəlin bir eybi olduğu kimi bu dolmanın da bir kiçik eybi var. Bildiyiniz kimi üzüm yarpağı sərtliyindən ayrıca yeyilmir, təəssüf ki, qazanda bişirildikdən sonra da o nisbətən sərtliyini saxlayır və mədə-bağırsaq sistemində azacıq problemləri olan insanlarda da diskomfort yaradır. İkinci yarpaq, kələm bitkisinin yarpağıdır. Kələm yarpağı mədə-bağırsaq sistemi üçün sevincdir, rahat həzm olunur və hətta mədə bağırsaq xəstəlikləri üçün müalicəvi təsirə malikdir. Amma, yumşaqlığından o qiymənin hermetikliyini təmin edə bilmir. Bir çox ölkələrdə qiyməni kələmə bükəndən sonra onu iplə sarıyırdılar ki, hermetiklik təmin olunsun. Təəssüf ki, iplə sarımaq belə çox vaxt işə yaramır. Eyni zamanda yadda saxlayın ki, üzüm yarpağının əsrarəngiz dadını kələm verə bilmir. Gördüyünüz kimi dilemma var. Həm hermetiklik təmin olunmalı, həm də mədə-bağırsaq əziyyət çəkməməlidir. Gedin, düşünün! O, qardaşı Toni ilə bütün kulinariya ensiklopediyalarını araşdırdılar, müxtəlif üzüm növü yarpaqlarını bişirib dadına baxdılar. İdeyalar o idi ki, necə etsinlər ki, üzüm yarpağı yumşalsın. Bir üsul tapmışdılar, amma o üsulda üzüm yarpağı elə qazanda dağılırdı. O dilemma elə də həll olunmamış qaldı və onlar kulinariya tarixinə düşə bilmədilər. Qardaşı Toni tarixə düşə bilməsə də, kulinaryaya düşdü. Atalarının vəfatından sonra Toni atası işləyən restoranın baş aşpazına

qədər yüksəlib, çox kulinariya müsabiqələrinin qalibidir. O, qərara gəldi ki, ölümaxşamı şam yeməyinə Toniyə üzüm yarpağından dolma sifariş versin. Özündə olan qastriti göz önünə rahat almaya bilirdi. Qoy elə indi həbsxanada olan telefonla ona zəng etsin ki, Toni lazımı tədarükünü görə bilsin.

- Alo, salam Toni.

- Tom, əzizim, biz yas içindəyik.

- Belə olmamalı idi, axı!?

- Gecdir daha Toni, artıq olan-olub. Üzülməyin. Ritaya salam de, uşaqları öp mənim əvəzimə.

- Tom, ürəyim parçalanır! Sənə kömək edə bilməmək çarəsizliyindən sınıram.

- Əfsus ki, belə oldu. Təəssüf...

- Toni, bir xahişim var.

- De, əziz qardaşım, nə desən edərəm səninçün.

- Toni, mənə üzüm yarpağından dolma hazırlaya bilərsən?

- Dolma? Əlbəttə! Mütləq hazırlayaram! Hətta sənə sürpriz də edərəm!

- Sürpriz?

- Hə! Yadındadır, biz üzüm yarpağı ilə kələm yarpağı arasındakı dilemmanı həll etməyə çalışdıq.

- Əlbəttə, yadımdadır, çox çalşdıq səninlə. Yoxsa o problemi həll etmisən?

- Problem həll olunub, amma onu başqa birisi həll edib.

- Ola bilməz! Necə?

- Təsəvvür edirsən nə edib o insan? Qiyməni əvvəl üzüm yarpağına büküb, sonra o yarpağın üstündən ikinci qat olaraq əlavə kələm yarpağına büküb. İkinci kələm qatı üzüm yarpağının hermetikliyinə dəstək olur və ən vacibi, kələm altında qalan üzüm yarpağını əlavə bişirir və onu yumşaldır. Kələm yarpağı üzüm yarpağına mədə-bağırsaqda həzm olunmağa da kömək edir. Kələmin azacıq şirinliyi üzüm yarpağının gözəl dadına əlavə notlar da əlavə edir. - O dahi kimdir? - Mən bunları bir həftə bundan qabaq internetdən oxudum. Sən demə 2012- ci ildə bu dolma ixtira olunub və iki beynəlxalq dolma festivalında yüzlərlə dolma arasında birinciliklər qazanıb. Dolmanın adı belədir: İkiqat Sumqayıt dolması. Sumqayıt, Qafqazda yerləşən Azərbaycan ölkəsində şəhərdir.

- İnanılmazdır! O müasir Edisonun adı nədir?
- Hümbət Həsənoğlu, ixtisasca həkimdir, həm də yazıçıdır. - Sən o dolmanı hazırlaya bilərsən?

- Əlbəttə, resepti əldə etmişəm. Amma o insan bu dolmanı ixtira etməklə kifayətlənməyib!

- O əclaf yenə nə düşünüb?

- Təsəvvür edirsən, o alimləri cəlb edərək formalar düzəltdirib və xüsusi ölçülərdə buz hazırlayır. Hər dolma qiyməsinin içinə o buzları qoyur. Qazanın içində o buzlar əriyib ikiqat dolmalara əlavə ilginc şirəlik verir. İndi dünyanın ən ləziz yeməyi belə adlanır: Buzlu, ikiqat Sumqayıt dolması! Sən narahat olma, düşünürəm ki, onu bizə dəvət edim, onunla birlikdə sənin üçün o dolmanı hazırlayarıq! Tom, telefonun dəstəyini yerinə qoyub ucadan dedi:

- Əhsən, minnətdaram sənə, Hümbət Həsənoğlu.

**Sumqayıt şəhəri**
**İyul – 2020-ci il**



# MANSUR SULTAN

## BİR SEVDA AĞLAYIR

Bir sevda ağlayır içimdə mənim,
Yoxluğun könlümü atəşə atıb.
Gülüşüm yalandı üzümdə mənim,
Qəlbimdə gizlicə bir sevgi yatıb

Bir sevda ağlayır içimdə mənim,
Səbəbi ayrılıq, həsrətin sənin.
Yoxdu şərik olan dərdimə mənim,
Ağlımdan çıxmır ki, surətin sənin.

Bir sevda ağlayır içimdə mənim,
Gözünün yaşında qanlı damlalar.
Gecələr rəsmlər əlimdə mənim,
Gözümdə canlanır sənli zamanlar.

Bir sevda ağlayır içimdə mənim,
Evimdə, qoynumda görünür yerin.
Cismindən uzaqdı cismim də mənim
Yatağım soyuqdu, qucağım sərin.

## KİMƏ NƏ DEYİM?

Gözlərim dolubdu, qəlbim odlanır,
Bəs kimə danışım mən öz dərdimi?
Ürəyim doludu, sirrim en qədər,
Bəs kimlə bölüşüm mən öz sirrimi?

Dürüstə dost dedim, haqqı danmadım,
Özümü heç kəsdən üstün sanmadım.
Xəyanət odlandı, mənsə yanmadım,
Heç zaman aşmadım mən öz həddimi.

Sözümün ağası, özüm Sultanam,
Qurdlar süfrəsində sakit aslanam.
Zalıma göz dağı, mərdlərdən yanam,
Namərdə əymərəm mən öz qəddimi.

## MƏN KÖZ KİMİYƏM

Mən ocaqda yanan bir köz kimiyəm,
Qəti toxunmayın, qəlbim də yanır.
Ağlayanda gülən bir üz kimiyəm,
Görənlər də məni bəxtəvər sanır.

Mən kövrəlib dolan bir göz kimiyəm,
Axan göz yaşımdan bulaqlar dolar.
Ayaq altda itən bir iz kimiyəm,
Ürəkdə dərdlərim yeni iz salar.

Mən səhvlər içində bir düz kimiyəm,
Nə edək, bir güllə bahar da gəlməz.
Yorğunam, bükülmüş bir diz kimiyəm,
Nələr çəkdiyimi kimsələr bilməz.

## ÜRƏYİM

Bilmədilər qiymətini, əzdilər,
Çəkdi min bir ağır çilə ürəyim.
Nə özünə yana bildi, nə mənə,
Eşq odunda döndü külə ürəyim.

Sevmə dedim, dinləmədi heç məni,
İnad etdi, aşdı sevda səddini.
Ağlatdılar, artırdılar dərdimi,
Bundan sonra çətin gülə ürəyim.

Sözə sultan, Allaha qul olmuşam,
Mən yolumu imanımda bulmuşam.
Dilim susub, gözüm ağlar, dolmuşam,
Şeir yazıb gəlir dilə ürəyim.

Mansur sözün dedi, sənə əmindi,
Unutma ki, qəlbim sənindi indi.
Qərar ver indi sən, növbə sənindi.
Qayıtmazsan əgər, gəlmə dəfnimə.

**NƏ GÜNAHI VAR?**

Tanımaq olmur indi bir insanı,
Ancaq qınayırıq dövrü, zamanı.
Axaraq gedirsə ömür karvanı,
O zaman sarvanın nə günahı var?

Çox sözü yalandı şirin dillərin,
Həsrətin çəkirik ötən illərin.
Qalmadısa ətri qızılgüllərin,
Bəs yazıq bağbanın nə günahı var?

İnanmaq çox çətin, düz də çaş kimi,
Tıxanır boğazda söz də daş kimi.
Ölüm də yaxınsa gözlə qaş kimi,
Bu fani dövranın nə günahı var?

**QAYIT SEVGİMƏ**

Soyuyubdu burda havalar sənsiz,
Qaranlıq məzardı buralar sənsiz.
Qəlbimdə göynəyir yaralar sənsiz,
Qayıt, məhəbbətim, qayıt sevgimə.

Göz yaşım sulayır sevgi bağımı,
Yalnızlıq sarmışdı boş yatağımı.
Gəl, məhv etmə mənim gənclik çağımı,
Qayıt, məhəbbətim, qayıt sevgimə.

Bax, zamansız yağdı həsrət yağışı,
Uzandı ömrümün payızı, qışı.
Xəyalın tuş gəlir hər addımbaşı,
Qayıt, məhəbbətim, qayıt sevgimə.

Yaşamaq da bir dərd olubdu mənə,
Kimsə şərik olmur mənim dərdimə.
Sən də od vurma gəl yanan qəlbimə,
Qayıt, məhəbbətim, qayıt sevgimə.

Gözüm dözümlüdü, ürəyim kövrək,
Köksümdə çırpınır sənsiz bu ürək.
Sevərək yaşayıb bir ömür sürək,
Qayıt, məhəbbətim, qayıt sevgimə.

**SƏN DƏ GƏL**

Gizlədim deyə göz yaşımı səndən
Əlim gözümdə dolub ağlaram mən.
Mən axı çox şey istəmirəm səndən,
Gözüm sevincdən güləndə sən də gül.

Sənsiz hər yer soyuq, hər yer qaranlıq.
Unuda bilmirəm səni bir anlıq.
Qəlb evim dağılıb, könlüm viranlıq,
Ömrümə bahar gələndə sən də gəl.

Hər nəyim varsa da, sənə söylərəm,
Dərdimi, sirrimi sənlə bölərəm.
Ən şirin duyğumu sənə bəslərəm,
Sevgimi sənlə böləndə sən də böl.

Ölüm də haqqdı, mən haqqdan dönmərəm,
Allahdan bir gözəl ölüm gözlərəm.
Son anda yanımda səni istərəm,
Mən Fidan deyib öləndə sən də bil.

**DƏNİZ AŞİQİ**

Mən dənizə aşiq bir tənha kəsəm,
Təkliyimi sahilində danıram.
Hər şeydən yorğunam, hər kəsə küsəm,
Dincliyimi dalğasında tapıram.

Mən dənizə aşiq bir qara bəxtəm,
Bir nakam sevda odunda yanıram.
Sevənlər gülməzlər, mən də bədbəxtəm,
Özümü dənizdə xoşbəxt sanıram.

Mən dənizə aşiq, eşqə məğlubam,
Gözlərim qanlı yaş dolu gəzirəm.
Mən necə insanam, hansı məxluqam? -
Bəzən sevib sevgimdən də bezirəm.



**LEYLA SƏFƏROVA**
**Filologiya üzrə fəlsəfə doktoru**

# ŞƏHRİYARIN DİLİNİN NAXÇIVAN ŞİVƏLƏRİNDƏ TƏZAHÜRÜ

Cənubi Azərbaycan şairləri dedikdə ilk ağıla gələn ad Məhəmmədhüseyn Şəhriyardır. Şöhrətin zirvəsinə gənc yaşlarında yazdığı farsca seirlərilə ucalaraq İranın ən böyük şairləri sırasında adı çəkilən Şəhriyar orta yaş dövründə ana dilinə dönüş mərhələsi kimi türk dilində "Heydər Babaya salam" poeması ilə şöhrətin bir pilləsinə daha qalxa bilmişdir. Şəhriyarın mirası bitməz-tükənməz söz xəzinəsidir. Onun şeirlərinin bu qədər geniş şöhrət qazanmasının səbəbi onun xalq dilində, sadə, anlaşıqlı, axıcı Azərbaycan dilində yazılması nəticəsində xalq tərəfindən sevilməsi və mənimsənilməsidir. Uşaqlığını təsvir etdiyi "Heydər Babaya salam" poemasından bəlli olduğu kimi, o çağların xatirəsi şairin vücudunun dərinliklərinə elə nüfuz etmişdir ki, həmin dövrlərin izlərini heç bir zaman zehnindən, qəlbindən çıxarmamışdır və bir çox şeirlərinin mövzusu olmuşdur. O, əsərlərində atla gəlin köçürmə, gəlinin başına damın üstündən alma atma, Novruz adətləri, qış fəslinə xas olan oyun və əyləncələr, dini mərasimlərdən bəhs etmişdir. Şairin yaradıcılıq istiqamətləri bununla məhdudlaşmır, eyni zamanda şair adət-ənənələrin yox olmasına qarşı çıxır, vətən həsrətini tərənnüm edir. Məhz bu səbəblərdən də şairin yaradıcılığında xalq dilinin, cənub şivələrinin ünsürləri, fonetik hadisələr özünü qabarıq şəkildə göstərməkdədir. Tarixi-coğrafi prinsip baxımından eyni qrupa – Cənub qrupuna daxil olan Naxçıvan və Təbriz dialektləri arasında bir sıra ortaq xüsusiyyətlər diqqəti cəlb edir. Xüsusilə coğrafi cəhətdən daha yaxın ərazidə yerləşdiyindən Culfa şivələri Təbriz dialekti ilə daha çox bənzərlik təşkil edir.

Bu mənada dildə baş verən fonetik hadisələrdən ən sıx rast gəlinəni sait əvəzlənmələridir və demək olar ki, şairin hər bir şeirində müşahidə olunur. Pəhləvan, sükutə, dəxi<daha, pəxil, xəlqin, sərvan, zəval, sovqət, qərəsi, xərməndə, qələlər kimi sözlərdə Azərbaycan dilinin dialekt və şivələrilə, eləcə də Naxçıvan qrupu şivələrilə müqayisədə a>ə əvəzlənməsinə rast gəlmək mümkündür. Pəhləvan (Xan.), sərvan (Sal.), xərmən<xırman (Xoş.) kimi nümunələr Culfa şivələrində mövcuddur. Lakin bu tip əvəzlənmə daha çox Ordubad dialekti üçün xarakterikdir.

Təbriz şivələrində şəkilçilərdə n sonorunun və y samitinin düşməsi nəticəsində i, u, ü səsləri, uzun tələffüz olunur: Şəhriyarın dilində də mövcud olan ə+y+i>i:, i+n+i>i:, ı+n+ı>u fonetik şəraitində işlədilən istiirdin<istəyirdin tipli dəyişmələr əksər kəndlərdə, səsiiz, bir-biriizdən,

zənniizcə, əliiz kimi sözlər Yaycı, imanuuzu, haqquuzu, hamuuza kimi sözlər Əlincə, Xoşkeşin və Göydərə kənd şivələrində özünü göstərir. i+n+i>ü: fonetik hadisəsinin baş verdiyi elüüzə, dilüüzə, məscidüüzün, ərüün kimi sözlər isə Azərbaycan dilinin şərq qrupu dialektlərini şairin dili ilə birləşdirir.

Şəhriyarın poyeziyasında açıq saitlərin qapalı saitlərlə əvəzlənməsi, yəni a>ə, a>e, a>o, a>u əvəzlənmə hadisələri səhmanlıyaq, oleydim, qeynəyir, qəzov-qədər, çovuş, qoymuyun, qoymuyalar kimi sözlərdə baş verir ki, belə dəyişmələri Saltaq (səhmannıyax), Xanəgah (qəzou-qədər), Teyvaz (qoymuyun, qoymuyalar) və əksər kənd şivələrindəki nümunələrdə müşahidə etmək mümkündür. Oleydim, qeynəyir tipli nümunələr isə, əsasən, Ordubad dialektində işləkdir.

o>a sait əvəzlənməsi Təbriz dialektində geniş işləndiyi üçün təbii ki, Şəhriyar yaradıcılığında sıx rastlanan fonetik hadisələrdəndir. Tavus<-tovuz, çaqqışdırırb<toqquşdurub, qavalandım, qavzananda, savırıx, qavırıx kimi nümunələr Naxçıvan dialekti, o cümlədən Culfa şivələri üçün xarakterik sayılan dəyişmələrdəndir. İşlənmə tarixi bir qədər qədim olan tavız<tovuz, qavalamaq<qovmaq, qavzanmaq<qovzanmaq, savmax<sovmaq, qavmax<qovmaq sözləri Culfa rayonunun əksər kənd şivələrində, çaqqışdırmaq feili Saltaq şivəsində bu gün də öz işləkliyini qoruyub saxlamaqdadır.

**Onda hər kəs bizə baxsaydı deyərdi gavurux,**
**Gavurun şərrini indi başımızdan savırıx,**
**Qovururdu o bizi, biz onu ancaq qavırıx...**

Qeyd edək ki, q/k>x fonetik dəyişməsi, xüsusilə də Təbriz şivələri üçün səciyyəvi olan xəbərlik kateqoriyasının -ıx, -ux sonluğu şairin Azərbaycan türkcəsində yazmış olduğu şeirlərində çatax, çardaxları, şulux, gavurux, savırıx, qavırıx, sazax, görüşdux, barışdux kimi nümunələrdə sıx rast gəlinir. Bu hadisə Culfa şəhəri və Yaycı kənd şivələrində daha çox müşahidə olunur: gedax, gəlax, gəldıx, savdıx, pıcax, qeyidax, görax və s. Vurğulamaq lazımdır ki, bu tipli dialekt ünsürləri günümüzdə Culfa şəhərinin və Yaycı kəndinin şivəsini digər kənd şivələrindən fərqləndirən bir cəhət kimi götürülə bilər.

Eyni zamanda şairin poetik nümunələrində müşahidə olunan b>p (pıçaq), k>h (kəhlik), n>v (dalıvı), y>g (genə), d>t (qol-qanata), n>l (dırnaqlarılan, gözülən) tipli samit əvəzlənmələri Culfa şivələrində bu gün də danışıq dilində mövcuddur.

Tədqiqat zamanı şairin yaradıcılığında rast gəldiyimiz maraqlı məqamlardan biri də çöndülər sözündəki d>ç fonetik əvəzlənməsidir ki, dönmək feilinin çönmək kimi tələffüzü Naxçıvan dialektində geniş işlənən variantdır. Şəhriyarın şeirlərində çox işlətdiyi, eyni zamanda Culfa şivələrində geniş işlədilən leksem olan çönmək feili fonetik baxımdan maraq doğurur. Bu sözdəki ç-laşma hadisəsinin tarixi olduqca qədimdir. Altay dilinin şimal dialektində bu günədək saxlanılan t~d>ç səs uyğunluğundan bəhs edərkən Elbrus Əzizov qeyd edir ki, məsələyə müxtəlif mövqelərdən yanaşan dilçilər bu hadisəni oğuz, qıpcaq, oğuz-qıpcaq dillərinin, sabir-xəzər tayfalarının dil elementi kimi dəyərləndirirlər.

Şəhriyarın Azərbaycan türkcəsində yazdığı şeirlərində baxısan<baxırsan, qılıc<qılınc, sora<sonra, saralı<saralır, calı<calır, günüzlər<-gündüzlər kimi sözlərdə r, n, d samitlərinin, nec oldu<necə oldu, əmqızının<əmiqızının, əmoğlu<əmioğlu, səlqəli<səliqəli, qap-bacanı<qapı-bacanı, Hacəlu<Hacı Əli sözlərində ə, i, ı saitləri, bayramlığın<bayramlığını, sınanların<-sınanlarını, ayağın<ayağının kimi sözlərdə ı, ın şəkilçilərinin düşməsi hadisələrinə rast gəlirik. Sora<sonra, əmqızının<əmiqızının, əmoğlu<əmioğlu, səlqəli<səliqəli, qap-bacanı<qapı-bacanı, bayramlığın<bayramlığını, sınanların<-sınanlarını kimi nümunələr Culfa şivələrində məhsuldar işlənir. Bütün bunlarla yanaşı Şəhriyar yadıcılığında sözün əvvəlində və ortasında səs artımı (İrza, qıssaboy) hadisəsinə də təsadüf edilir.

Şairin yaradıcılığında assimilyasiya hadisəsi bir çox hallarda müşahidə olunur. Culfa və

Təbriz şivələri üçün xarakterik olan tam irəli assimilyasiyanın növlərindən biri nd>nn onnan, sənnən, mənnən, yarımçıq irəli assimilyasiyanın növlərindən olan tl<td çatdadı, qatdadı, tam geri assimilyasiyanın növlərindən biri rl<ll çönüllər, sönüllər, sürünüllər, uçallar, açallar, qaçallar, qazanıllar, baxıllar, yandırıllar, yaxıllar və s. kimi nümunələr Şəhriyar yaradıcılığında geniş işlənmişdir:

**Burda şirin xatirələr yatıblar,**
**Daşlarıylan başı başa çatıblar,**
**Aşnalığın daşın bizdən atıblar,**
**Mən baxanda qavzanıllar, baxıllar,**
**Bir də yatıb yandırıllar, yaxıllar.**

Geri dissimilyasiyanın ç>ş növündə d samitinin ç samitinə təsiri nəticəsində onun parçalanmasına səbəb olur və nəticədə geri dissimilyasiya baş verir. Dissimilyasiyanın bu növünə demək olar ki, bütün dialekt və şivələrdə, o cümlədən bir sıra türk dillərinin dialektlərində rast gəlmək mümkündür. Məhəmmədhüseyn Şəhriyarın şeirlərində geniş şəkildə işlədilən qaşdım, uşdu, köşdü, qaşdıq, keşdi kimi sözlər Culfa şivələrində geniş yayılmışdır və demək olar ki, onun səciyyəvi cəhətlərindən biri kimi götürülə bilər.

Şairin şeirlərində feilin arzu şəklində verilmiş görmiyəydim, gedəydim, oxuyaydım, solmuyaydı, olmuyaydı, dolmuyaydı, noleydi, boğulaydın kimi sözlər Culfa şivələrində görmüyərdim, gedərdim, oxuyardım, solmuyardı, olmuyardı, dolmuyardı, nolardı, boğulardın şəklində işlədilir.

Şəhriyar yaradıcılığında çox sıx rast gəlinən oxurdu (oxuyardı), toxurdu (toxuyardı), soxurdu (soxardı), suvardı (suvayardı), boyardıq (boyayardıq), çırtdardıq (çırtlayardıq), çatdardıq (çatlayardıq), oxur (oxuyur), uyub (uyuyub), sondan (sonradan) kimi sözlərdə şəkilçilədə ixtisarlar müşahidə olunur ki, bu kimi bəzi nümunələr Culfa şivələrində, əsasən, yaşlı nəslin nümayəndələrinin nitqində müşahidə olunur (suvardı, çırtdardıq, çatdardıq).

M.Şəhriyarın şeirlərində çox geniş işlənmiş tapammıran, görsəmməsək, atammaz, yatammaz, qatammaz tipli sözlərdə isə qeyri-qəti gələcək zamanın inkar forması bu şəkildə işlənmişdir və demək olar ki, Naxçıvan qrupu dialekti, o cümlədən Culfa şivələri üçün səciyyəvi bir hadisədir. Yəni Culfa rayonunun kənd şivələrində qeyri-qəti gələcək zamanın inkarında -mar, -mər, -maz, -məz şəkilçilərinin işlənmə arealı olduqca genişdir.

Qeyd etmək lazımdır ki, qeyri-qəti gələcək zamanın inkar şəklində işlənən -manam (-maram), -mənəm (-mərəm), -manığ (-marıx), -mənig (mərix') şəkilçilərinin tarixi olduqca qədimdir. Belə ki, XX əsrə qədər ədəbi dilimizdə I şəxs inkarında həm -manam, -mənəm, həm də -man, -mən şəkilçiləri işlənmişdir.

Culfa şivələri üçün spesifik olan I şəxs təkdə -mar,- mər şəkilçisinin -mam, -məm forması Cənub dialektində, xüsusən Şəhriyarın yaradıcılığında geniş istifadə olunmuşdur. Yazılı abidələrimizdə də rast gəlinən bu şəkilçinin işlənməsi dilimizin qədim dövrləri ilə bağlıdır.

-mam, -məm şəkilçisinin işlənməsi ilə bağlı H.Mirzəzadə qeyd edir ki, -man, -mən şəkilçisi iki tərkib hissədən – inkarlıq əlaməti olan -ma, -mə və şəxs şəkilçisinin ixtisar edilmiş şəkli olan m<n-dan ibarətdir. Tərkibin birinci tərəfi -ma, -mə, -m dövrümüzə qədər dildə öz varlığını saxlamış, ikinci tərkib hissəsi isə dilimizdə n deyil, m şəklində işlənmişdir.

Azərbaycan dilinin dialekt və şivələrində, eləcə də Təbriz dialektində həm söz köklərində, həm də köklə şəkilçi münasibətlərində iki sait arasında r və n səslərinin düşməsi hadisəsinin geniş yayılmasını nəzərə alsaq, -man, -mən formasını -maram/-mərəm, -manam/-mənəm şəkilçisinin ixtisar olunmuş şəkli hesab etmək olar.

Şəhriyarın yaradıcılığında rast gəldiyimiz və Culfa şivələrində, əsasən, orta və yaşlı nəslin sıx işlətdiyi deynə<deginən, boğginən, ovginən, doğginən kimi sözlər olduqca maraqlı tarixə malikdir. Dilimizdə artıq arxaik hesab edilən və feilin əmr formasının şəxsə görə ifadə edilməsinin şəkli əlaməti kimi çıxış edən -gil, -ğıl XVIII

əsrin əvvəllərinədək əmr formasının ikinci şəxs təkinə artırılmışdır. Bəri gəlgil başım baxtı, evim taxtı (Kitabi-Dədə Qorqud). XVII əsrin ikinci yarısından sonra -gilən, -ginən yazı dilində işlənmişdir. Bir müddət -gil, -ğıl -gilən, -ginən ilə paralel işləndikdən sonra XVIII əsrdən başlayaraq yazı dilindən tamamilə çıxır və -gilən forması normalaşır. Bu xüsusiyyət Bakı dialektində daha çox müşahidə olunan bu sonluq Culfa şivələrində, əsasən, orta nəslin sıx işlətdiyi təkid bildirən şəkilçidir.

Bu xüsusiyyət Meğri şivələrində də var.

**Deynə mənim şair oğlum Şəhriyar,**
**Bir ölümdür, qəm üstsndə qəm qalar.**

Azərbaycan dilinin bəzi dialekt və şivələrində II şəxsdə -ıb, -ib, -ub, -üb şəkilçili feillərin hamısı zaman etibarilə nəqli keçmişi bildirir. Bu məqam Şəhriyarın yaradıcılığında bir çox hallarda qarışıbsan, barışıbsan, pozubsan, qazıbsan, yazıbsan, çatıbsan, atıbsan, satıbsan kimi nümunələrdə öz əksini tapmışdır: Bu xüsusiyyət bu gün də Culfa rayonunun Yaycı kənd şivəsində işlədilir.

Qeyd etmək lazımdır ki, Şəhriyar şeirlərində sinema, mığnatis, vulkan, brilyan, muzikin, Rəfayel kimi alınma sözlərdən məharətlə və yerli-yerində istifadə etmişdir ki, bunlar da onun dilinin axıcılığna heç bir xələl gətirmir:

**...Kənd-kövşənin payızları, yazları,**
**Bir sinema pərdəsidir gözümdə,**
**Tək oturub, seyr edirəm özüm də.**
**Zöhrənin qəsri brilyan, hasarı incidi, yaqut...**

Belə sözlərə Naxçıvan dialekt və şivələrində, eləcə də Culfa şivələrində, hətta Türkiyə türkcəsinin dialekt və şivələrində də rast gəlmək mümkündür.

Şairin yaradıcılığında rast gəldiyimiz mazı matı, qovurtmaqc, qıyha, şişək, züvəndə, köylün, tilit sözləri Culfa şivələrində mazamat, qavıt<qovut, qiyyə, şşəx›, zivəndə/zuvanda, goynun (Xan., Əl., Sal., Ər., Xan./Yay., Gül., ə.k) şəklində, habelə şıllaq ata (ə.k.), şətəl (Xan., Sal., Şur.), çərçi (ə.k.), qəzil, tilit, dadaş (Mil., Bəy., Ər.), əmmə (Lək., Tey.) sözləri bu gün belə istifadə olunmaqdadır.

Apardığımız araşdırmadan məlum olur ki, Şəhriyarın dilindəki fonetik hadisələr – sait və samit dəyişmələri, səs artımı, assimilyasiya, dissimilyasiya və bir sıra leksik vahidlər Culfa şivələrində eynilə mövcuddur və ya oxşarlıq təşkil edir. Bütün bu bənzərliklər və onların qədim dövlərə gedən tarixi köklərinin araşdırmaya cəlb olunması günümüzdə dialekt və şivələrdə yaşadılan ünsürlərin vaxtilə ədəbi dil səviyyəsində işlənərək mühüm mövqeyə malik olduğunun ortaya çıxarılmasına imkan yaradır. Hər halda V əsrə aid edilən ç-laşma hadisəsinin izlərinin bu gün dilimizin dialekt və şivələrində yaşadılması Azərbaycan dilinin nə qədər qədim tarixi köklərə malik olmasının bariz göstəricisidir.

Məqalədə ixtisarla verilmiş kənd adları:
Bəy. – Bəyəhməd
Göy. – Göydərə
Xoş. – Xoşkeşin
Sal. – Saltaq
Əl. – Əlincə
Gül. – Gülüstan
Mil. – Milax
Şur. – Şurut
Ər. – Ərəzin
Xan. – Xanəgah
Tey. – Teyvaz
Yay. – Yaycı



## ARİF QARAMANLI

### MƏNƏ BİR HƏ DESƏ O
(qəzəl)

Gülə bənzər bu qızı öz canıma can edərəm.
Mənə bir hə desə o, canımı qurban edərəm.

Vüsala yetməyib o, sanki susuz gül kimidir,
Eşqə həsrət canına eşqimi dərman edərəm.

O gülə göz dikəni baxmağa gözsüz qoyaram,
Onu bu dünyaya da baxmağa peşman edərəm.

Kimsə cürət eləyib məndən edə bilməz onu,
Olsa, ol kimsəni mən al qana qəltan edərəm.

Mən o güldən ötəri cəng edərəm əğyar ilə,
Haqq-hesab çəkmək üçün cəngimi elan edərəm.

Döyüşə dəvət edib cəng yerini bildirərəm,
O yeri cəngim ilə əğyara meydan edərəm.

Bilirəm hə deyəcək, hiss edirəm sevdiyini,
Sevgilim olsa, onu canıma canan edərəm.

Onu qəlbən sevirəm, çox xoş olar sevsə o da,
Mən onu ömrü boyu ömrümə mehman edərəm.

Arifəm, sevdiyimi bir sevirəm kəlməsinə
Başıma tac bilərəm, eşqimə sultan edərəm.

### BƏRİ BAX
(qəzəl)

Görüşə gəl demisən, gəlmişəm, ey gül, bəri bax,
Dediyin yerdəyəm, ay qız, geriyə dön, geri bax.

Bu gecə yatmamışam, gözlərim açmış səhəri,
Adın almış canımı, ey dilimin əzbəri, bax.

Könlümün sevdiyisən, sevgi pərim olmalısan,
Bədənim lərzə gəlib eşqin ilə, ey pəri, bax.

Ürəyim sevdalanıb, gözlərimə sevgi dolub,
Baxışım nur çiləyir, könlümün eşq dilbəri, bax.

Həyat eşqim tükənər, bil, sənə mən yetməzisəm,
Ürəyim sənlə vurur, ey ruhumun məhvəri, bax.

Gözlərim gördü səni, bil, səni könlümdü sevən,
Sevənin bərk döyünür, sevgili yar, eşq piri, bax.

Canım əldən gedəcək vəslin üçün, sevgili yar,
Vüsal eşqindən olub Arifin hər dərd-səri, bax.

### DƏRD İLƏ CƏNG EYLƏSƏM
(qəzəl)

Dərd ilə cəng eyləsəm, eşq dərdimə qalxan olar.
Sonda eşq xəncər çəkər, dərd qanına qəltan olar.

Çökdürər eşqim qəmi, qalmaz qəmimdən bir əsər,
Eşq məramım güc gələr, qəm yerlə bir yeksan olar.

Cismim eşq meydanıdır, ruhum-canım meydan sular,
Qəm-kədər cövlan edib oynatsa at, peşman olar.

Qəmlərim aşkardadır, gizlin qəmim yoxdur mənim,
Hər nə dərd çəksəm də mən, çəkdiklərim pünhan olar.

Ehtiyac yoxdur mənə, bir kimsə qılsın çarəmi,
Yarla bir olmaq mənim hər dərdimə loğman olar.

Kimsə əmr etməz mənə, ya bir qərar, fərman verə,
Yalnız öz dildarımın dur gəl sözü fərman olar.

Hər kəsin öz dərdi, öz dərmanı var, ey qafilim,
Bil, xətasızdır canım, eşq Arifə dərman olar.

**SEVGİLİMİ YAD ELƏDİM**
(qəzəl)

Xeyli vaxt görmədiyim sevgilimi yad elədim,
Ona baş çəkmək ilə könlünü çox şad elədim.

Hey məni arzulayırmış mənə həsrət qalanım,
Onun eşq dərd-sərinə eşq ilə imdad elədim.

Ruhunun eşqə olan ehtiyacı istək olub,
Canının istəyinə, halına hər zad elədim.

Eşqə həsrət qalan hər can sıxılar, bərbad olar,
Viran olmaqda olan könlünü abad elədim.

Sökülən can evini bərpa edib hörgülədim,
Dara düşmüş yarımı qüssədən azad elədim.

Sevdim öz Leylisayaq dilbərimi eşqim ilə,
Belə Məcnunsayağı sevgim ilə ad elədim.

Yarımın qüssəsini eşq ilə yox etdim o gün,
Arifəm, mən demərəm ki, onu icad elədim.

**ALAGÖZLÜM**
(qəzəl)

Könlüm sevənimsən, ürəyimsən, alagözlüm,
Aşiq yarınam, eşq mələyimsən, alagözlüm.

Sənsiz günümün hər anı qəm-qüssədir, ey yar,
Ömrüm boyu hər an gərəyimsən, alagözlüm.

Sənsən gözümün göz giləsi, gözdə görərim,
Sən göz görərim, göz bəbəyimsən, alagözlüm.

Mən bal arısı, sənsə çiçək, xoş qoxuyursan,
Sən gül şirəli gül ləçəyimsən, alagözlüm.

Ətrinlə sənə valehəm, ey gül, onu bil ki,
Sən gül qoxulu gül-çiçəyimsən, alagözlüm.

Gülsən, a gülüm, gül ləçəyindən şirə çəkdim,
Sən ballı şanım, bal pətəyimsən, alagözlüm.

Eşqsiz yaşamaz, məhv olar, Arif Qaramanlı,
Sən sevdalı arzum-diləyimsən, alagözlüm.

**GƏNCƏLİ QIZ**
(qəzəl)

Yaradan tək yaradıb, yox tayın, ay gəncəli qız,
Bu gözəllikdə, inan, yox sənə tay, gəncəli qız.

Sənə həsrət qalıb o Gəncə çayı, çay kənarı,
Həsrətindən quruyub, axmır o çay, gəncəli qız.

Qızarıb göydə Günəş, bəlkə də səndən utanıb,
Öz gözəllik nurunu aləmə yay, gəncəli qız.

Gün batır, şər qarışır, nur çiləyir ay camalın,
Ağ üzündən utanıb çıxmadı Ay, gəncəli qız.

Dünya-aləm yığışıb hüsnünə baxsa deyəcək,
Yox belə qəmzə ilə qaşları yay gəncəli qız.

Hüsnünün aşiqiyəm, gül camalından qoy öpüm,
Yanağından öpüş olsun mənə pay, gəncəli qız.

Arifəm, yox demə gəl, aşiqin olmuş biriyəm,
Naz ilə etmə belə arzumu zay, gəncəli qız.

**BİLMƏZ**
(qəzəl)

Gözəl-göyçək doğulmuş yar nə cür can olduğun bilməz,
Gözəl can olduğundan da o, ceyran olduğun bilməz.

Gözəl bir yar olan dilbər canı can aldığın bilmir,
Bu bilməzlikdən olmuş ki, o, canan olduğun bilməz.

Yaranmış bir gözəllikdən el-aləm mat-məəttəldir,
Gözəl məxluq elin, xalqın bu heyran olduğun bilməz.

Gözəl vəslə yetən dəmdə soruşsan ki: "Nə vaxtdır bu?"
Çaşar eşqin səfasından, nə zaman olduğun bilməz.

Gözəl şeytan olur qafil, bu məxluqdan bir az gen dur,
Gül əndam olduğundan da o, şeytan olduğun bilməz.

Sevənçün dünya meydandır, rəqibi vəslə yetməkdir,
Bunu ondan soran olsa, nə meydan olduğun bilməz.

Məhəbbətdən, gözəllikdən yazan şair, Arif, kimdir?
Deyib, eldən onu sorsan, qəzəlxan olduğun bilməz.



## SEVDA İBRAHİM

**BAYRAMIN MÜBARƏK OLSUN**

Cənnətin mələyi, gülü, çiçəyi,
Ay ana, bayramın mübarək olsun.
Yaradan yaradıb səni bənzərsiz,
Ay ana, bayramın mübarək olsun.

Dünyanın ən zərif, ən incəsisən,
Mənimçün həyatda sən birincisən.
Əlçatmaz sevgisən, nursan, incisən,
Ay ana, bayramın mübarək olsun.

Yuxu yatmayırsan, hər an oyaqsan,
Evin istisisən, yanan ocaqsan,
Balana sipərsən, arxa, dayaqsan.
Mərd qadın, bayramın mübarək olsun,
Ay ana, bayramın mübarək olsun.

**DÜNYA**

Atanı övladdan ayrı salansan,
Mən sənin nəyini sevim, a dünya?
Ananın fəryadı göyə ucalır,
Mən sənin nəyini sevim, a dünya?

Həyatı şəfəqli günəş sanarsan,
Tək-tənha qalıb halına yanarsan.
Keçmişi kədərlə, qəmlə anarsan,
Mən sənin nəyini sevim, a dünya?

Arzular qanadsız mələyə bənzər,
Yalnız xəyallarda, qəlblərdə gəzər.
Bəzən küskün olar, özündən bezər,
Mən sənin nəyini sevim, a dünya?

**RUH KİMİ GƏZƏN İNSANAM**

Qəhər boğur gecə-gecə,
Qəmli-qəmli yatım necə?
İllərimi verib heçə
Boylanıb süzən insanam,
Ruh kimi gəzən insanam.

Buludlar kimi dolmuşam,
Çox incə, kövrək olmuşam.
Xatirələrlə qalmışam -
Özümü üzən insanam,
Ruh kimi gəzən insanam.

Nə dost bilir, nə də qohum,
Tutulubdur əlim-qolum.
Axtarıram çıxış yolun -
Acıya dözən insanam,
Ruh kimi gəzən insanam.

Ürəyimin başı yaram,
Sinəmdə dərd daşıyıram.
Səhvən dedim yaşayıram -
Həyatdan bezən insanam,
Ruh kimi gəzən insanam.

Bir gün gözüm yumulacaq,
Hamı məni unudacaq.
Bir cüt sətirlər qalacaq -
Misralar düzən insanam,
Ruh kimi gəzən insanam.



## ELGÜN İNCƏLİ

**ALLAH BİLİR**

Görən hələ bu ocaq
Nə vaxtacan yanacaq?
Nə zaman ağardacaq
Saçımı Allah bilir.

Səhv bilib qınayırsan,
Pis bilib yanıyırsan.
Sən üzdən tanıyırsan,
İçimi Allah bilir.

Odur duyan çağrımı...
Necə yanır, bağrımı,
Göynərtimi, ağrımı,
Acımı Allah bilir.

Kim yalan, kimdi gerçək,
Gələcək göstərəcək.
Bəndə hardan biləcək? -
Suçumu Allah bilir.

Elgün, nəyin həllidi? -
Şeir bir təsəllidi...
Doğum günün bəllidi,
Köçünü Allah bilir.

**HAQQIDIR**

Çox olan nə görürsənsə,
Hamısı azın haqqıdır.
Minbərdə çəkilən əzan,
Dilin, boğazın haqqıdır.

Yaxşı-pisi irdələmək
İnsanlarda olur tək-tək.
Ağıllı söhbət eləmək
Ağlı tarazın haqqıdır.

Bağçılıq bağban işidir,
Ovçuluq cavan işidir.
Dil tökmək oğlan işidir,
Naz etmək qızın haqqıdır.

Ocaq-ocaq gəzirsənsə,
Şərdən uzaq gəzirsənsə,
Alnı açıq gəzirsənsə,
Ağ olan üzün haqqıdır.

Anılmağın, aranmağın,
Məclislərə çağrılmağın,
Elgün, eldə tanınmağın
Sədəfli sazın haqqıdır.

**DESİNLƏR**

Bu şerimə, bu sözümə,
Ustadlar qiymət desinlər.
Nə doğrudu, nə yanlışdı,
Olanı, əlbət, desinlər.

Danışanda sərin danış,
Dərin düşün, dərin danış.
Gözəl danış, şirin danış,
Sözünə şərbət desinlər.

Bədəməllər bizdən haşa,
Əməlləri dağa-daşa...
Elgün, ömrü elə yaşa,
Öləndə rəhmət desinlər.



HƏSƏN HÜSEYNLİ
"Yarımada" qəzetinin baş redaktoru

# POLAD MƏMMƏDOVLA ÜZ-ÜZƏ

Polad Məmmədov tanınmış qələm sahibi olsa belə, onun yazdığı şeirlər haqqında mühakimə yürütmək mürəkkəb və məsuliyyətli işdir.

Onun lirik yaradıcılığında olan özünəməxsusluq, bədii ifadə və təsvir vasitələrinin zənginliyi, sadə və anlaşıqlı olması diqqəti cəlb edən göstəricilər sırasındadır.

**Əlim qabar, alnım tərli olsa da,**
**Uşaqlıq illərim dağda qalsa da,**
**Bəyəndiyim güllər qışda solsa da,**
**Neçə bahar qarşılaşdıq üz-üzə.**

– Bu şeir parçası zəhmətkeşlikdən, təbiətə bağlılıqdan, vətənpərvərlik hissindən xəbər verir.

Yuxarda qeyd olunan bəndin sonuncu misrasından göründüyü kimi, ömürdən gedən yaşın bahara bənzədilməsinin xüsusi yeri var. Bu detalı nəzərə alaraq kitabın adının "Üz-üzə" olmasını qərarlaşdırdıq.

**Ahıl çağı ürək də kövrək olur,**
**Xatirələr yada düşür, göz dolur.**
**Ay Polad, ömür ayaq üstə solur,**
**Dayaq da durmur əl ələ, diz dizə.**

– Bu kövrək misralarda şair qocalığın əlamətlərini necə də incə hisslərlə ifadə edib. Ancaq şair qardaşıma onu deyim ki, qocalıq ucalıqdır. Ucalıq da Allahdan gəlir. Allah uzun ömür versin!

**Hər zamanın olur öz ab-havası,**
**Can de, şirin danış, Polad, qadası.**
**Dünyada tək xoş əməldi qalası,**
**Həqiqəti deyən dilimdir, dilim.**

– Şairin bu şeirində həqiqəti təsvir etməsi, hər günün öz hökmü olmasıyla yanaşı, insanlara qayğıyla yanaşaraq düz danımaq tövsiyyə olunur.

**Ömrümə şırım açdı bəxt kotanı,**
**Bəs mənim alın yazım, görən, hanı?**
**Üzmə aşiqi, gəl yaxından tanı,**
**Küsüb hamıdan aralı gəlmişəm.**

– Şair dostum burada bəxtindən gileylənərək əsas istiqaməti sevgiyə yönəldib. Burada şairin dərdi sağalmaz yaraya çevrilib.

**Deyən, həsrətin nisgili şirindi,**
**Aşiqi məcnun eyləyən dilindi.**
**Polad, vətənin hər yanı elindi,**
**İndi bilmirəm haralı gəlmişəm.**

– Son iki misrada vətən-torpaq sevisi ön plana çəkilib. Dilimizdə işlənən "haralısan?" sözü bütöv vətən ifadəsində cəmləşib.

Polad Məmmədovun şeirləri haqqında çox yazmaq olar. Oxucuları yormamaq üçün yazımı tamamlayıram.

Sonda şairimizə tükənməz ilham, iti qələm, ən əsası, oxucu sevgisi arzulayıram.



# ŞƏFƏQ ÜFÜQ

## QƏLB

Sən mənim qəlbimə
Yol tapdınmı ki? -
Mən sənin qəlbində
Ömürlük qalam.

Sən mənim sevgimə
Sevgi qatdınmı? -
Mən sənin sevgini
Ömürlük udam.

Könlümü hər zaman
Sənə bağladım.
Sevgimi hər zaman
Sənə saxladım.

Mən sənin oduna
Yandım-yaxıldım.
Sən mənim közümə
Kül də olmadın.

Amma ki hər zaman
Udan sən oldun.
Mənsə gizli-gizli
Susub ağladım.

## BƏXTƏVƏR

O bir zamanlar mənə
Naz eyləyən bəxtəvər,
Səbr eylədim, gözlədim
Mən də bu vaxta qədər.

İndi mən naz edirəm,
Sən nazımı çəkirsən.
Nə üçün etdiyimi
Özün yaxşı bilirsən.

## AL, GƏTİR

Bilirsənmi mənə nə al? -
İndiyədək almadığın
Bir az sevgi, bir az da naz.
Hərəsindən al bir az.

Al, nə olar,
Al da, gətir.
Aldığını gözlərində
Saxla, gətir.

Amma gülmə, lağ eyləmə,
Bu qıza dəli söyləmə.
Gətir, görüm aldığını
Görəcəmmi gözlərində?

## BACIM OLSAYDI

Bir bacım olsaydı, heç vaxt dərdimi
Anama deməzdim, ona deyərdim.
Ürəyimdən keçən fikirlərimi
Təkcə man onunla bölüşdürərdim.

Bir bacım olsaydı, heç vaxt anamı
Qoymazdım mənimçün əziyyət çəkə.
Köməyimə çağırardım bacımı.
Deyərdim, qoy, anam baxa, sevinə.

Bir bacım olsaydı, ya məndən kiçik,
Ya da böyük olsun -- yenə sevərdim.
Yaradardıq hər an ikimiz birlik,
Bir bacım olsaydı, mən heç bezərdim?

Bir bacım olsaydı... Demirəm daha...
İndi gecdi artıq bunu söyləmək.
Sözümə gülürəm, sonra Allaha
Üz tutub deyirəm -- Keçdi bu dilək.

## İSTƏDİM

Mən səndən sevgimə
Cavab istədim,
Sən mənə dağ boyda
Nifrət göndərdin.
Mən sənə nifrəti
Yox et söylədim,
Sən həmin nifrəti
Kinə döndərdin...

Çalışdım mən sənə
Sevmək öyrədim;
Mərhəmət və insaf,
Gülmək öyrədim.
Bu fani dünyanın
Heç olduğunu,
Tanrının əbədi
Ucalığını
Hər an bilmək öyrədim...

Bir azca qoy üzün
Gülümsər olsun,
Qəlbində sevgiyə
Bir az yer olsun.
Sözlərin bal kimi
Lap şirin-şəkər,
Ədəb-arkanın da
Sözlə bir olsun...

## AY

Gecə boyu bir girdə ay
Sanki bizi izləyir,
Biz getdikcə o da gedir -
Hərdən batır buludların arasında,
Hərdən olur ulduzların sırasında...
Bəzən elə bilirsən
İşıl-işıl parıldayır.
Qaranlığın zülmətində
Yolumuza işıq yayır.
Bizim ilə o gizlənpaç oynayır...
Necə gözəl mənzərədi -
Sirli nağl aləmidi,
Göy üzü bir əfsanədi.
Düşüncələr məni məndən alıb
asimana səfər edir,
Məni səmaya yüksəldir...

## MƏN DƏ İNSANAM

Qalmışam çarəsiz,
Qalmışam naçar.
Allahım mənə də
Bir qapı açar.
Qapıdan gözümə
Bir işıq saçar.
Onda görərəm ki,
Kiməm, nəçiyəm -
Mən də bir insanam,
Dəmir deyiləm...

Mən də bir insanam,
Canım, qəlbim var.
Qəlbimdə nə qədər
Dərdim-qəmim var.
Sənin söylədiyin
Acı sözün var.
Məcburam onları
Çəkim canıma -
Mən də bir insanam,
Dəmir deyiləm...

Həsəd aparıram,
Xoş söz deyənə.
Nə olar, xoşbəxtlik
Üzümə gülsə.
Sevdiyim məni də
Bìr başa düşsə.
Onda bilərəm ki,
Kiməm, nəçiyəm -
Mən də bir insanam,
Dəmir deyiləm...

## QƏLBİMƏ DƏYMƏ

Qəlbimə dəymə mənim,
Qəlbim yaman kövrək olub.
Ağr sözdən-söhbətlərdən
Qorxur, yaman ürkək olub.

Ehtiyacı da var hər an
Bircə kəlmə xoş söz duya.
Xoş sözləri o hər zaman
Nə ola, qəlbimə qıya.



TUTU ƏSGƏRQIZI

# YAZILI DAŞ

(hekayə)

**Bəlkə mən də yazım yazını daşa,**
**Amma nə saf sevgi, nə səfa gördüm.**
**Yazsam, dilə gəlsə, dillənsə daş haa,**
**Dillənməsə, özumü istefa gördüm.**

Səhər idi. Hələ də yerimdə uzanıb hamının oyanmasını səbirsizliklə gözləyirdim. Səhəri, demək olar ki, dirigözlü açmışdım. Birdən nənəmin "Uşaqlar, gecdir, qalxın!" deməsini eşidib sevincimdən tez yatağımdan qalxdım.

Bir neçə gün bundan qabaq atam məni nənəmgilə yola salanda demişdi ki, əmin səni dağların qoynuna – Çalbayır yaylağına kəklikotu yığmağa aparacaq və orada bitən dərman bitkiləri ilə də tanış edəcək. Buna görə elə sevinirdim ki…

Deməli, atamın mənə öz uşaqlıq xatirələrində söhbət açdığı xoş, mənzərəli yerləri görəcə, kəklikotu yığacaqdım. Həyəcanla gedəcəyim yerləri xəyalımda canlandırırdım ki, bu vaxt nənəmin "Gəlin, gəlin, hamı süfrəyə. Allah verən nemətlərdən bir tikə yeyin, ac getməyin!" cümləsi məni şirin xəyallarımdan ayırdı. Heç yemək istəmirdim. Nənəmin ürəyincə olsun, məndən nigaran qalmasın deyə, az da olsa, yedim. Onu da deyim ki, nənəmgilə tətil günlərində gəlib qalan vaxtlarda həmişə o əmilərimə deyərdi: "Bu uşaq bizə əmanətdir, qardaşınızın gözünün ilkidir, ona daha çox qayğı göstərin, ay bala!" Doğrusu, o zaman bu sözlərin mənasını anlamasam da, öz uşaq düşüncəmlə başa düşürdüm ki, mən onlara daha çox əzizəm və bu hiss mənə xoş gəlirdi. İndi də hamının nənəsindən yaxşı, mənim qayğıkeş, xeyirxah, əziz, mehriban Ağca nənəm, adəti üzrə, arxamızca bir qab su atdı və əmimə bərk-bərk tapşırdı: "İmamverdi, sən Allah, uşaqlardan muğayat ol, əsas da Züleyxadan. Qız heç yanı tanımır, itib eləyər. Qardaşına nə cavab verərik?" Sonra da o biri nəvələrinin üzündən, mənim isə onlardan fərqli olaraq, saçlarımı xüsusi nəvazişlə sığallayıb alnımdan öpərək yola saldı.

Yolboyu əmim bizə yaylağın əsrarəngiz təbiətindən, sərin bulaqlarından, şəfalı bitkilərindən söz açdı və kəklikotunu göstərərək onun yığılma qaydasını öyrətdi. Artıq mən də bizimlə gedən əmim uşaqları, bibim uşaqları və digər qonşu uşaqları kimi kəklikotunu tanıyır və onları bir-bir dərib nənəmin mənə həvəslə tikdiyi pambıq parçadan olan naxışlı torbama yığırdım.

Çox sevinirdim. Kəklikotunu axtarıb tapmaq, onu yığmaq, həqiqətən, maraqlı və əyləncəli idi. Hələ onu yığarkən bitkinin ətirli, gözəl qoxusunun adama necə xoş təsir etdiyini duymağın daha da gözəl olmağını demirəm…

Hərdən uşaqlardan geri qalır,hərdən də onlardan qabağa gedərək torbanı tez doldurmağa çalışırdım. Birdən bibim qızı Xatirə ucadan qışqırdı: ”Xına! Xına! Xına tapdım, uşaqlar,buraya gəlin!”

Mən tez onun yanına qaçdım. Xatirə inamla bitkinin xına olduğunu və onu yaxşı tanıdığını bizə başa salmaq istəyirdi. İlk baxışdan bu bitkinin xına olduğu ağıla gəlməzdi. Çünki adi görünürdü – daşın üstündə yapışmış şəkildə mamırabənzər, yarısaralmış, yarıyaşıl olan kiçik otlara bənzəyirdi.

Biz onun başına toplaşaraq heyrətlə tamaşa etməyə başladıq. Qız əlindəki dolu su qabından daşın üstünə beş-altı damcı su tökərək yerdən tapdığı daş parçası ilə onu qarışdırmağa başladı. Bir neçə dəfə bu hərəkəti təkrar etdi, bitki tamamilə qəhvəyi rəng aldı və sonra həmin qarışıqdan götürüb ovuclarına yaxdı, qurumağını gözlədi. Bir neçə dəqiqə keçəndən sonra əllərini yudu. Nə görsək, yaxşıdır? Xatirənin ovucları qırmızı rəngə boyanmışdı! Bütün uşaqların həsədlə onun əlinə baxdığını görən Xatirə birdən uca səslə bizi çağırdı: “Nə durmusunuz, gedin, siz də axtarın, mənim kimi əziyyət çəkin, tapın, öyrədim də sizi, daha xınalı daş da tapıb göstərməyəcəm ki!”

Başqa vaxt olsaydı, bibiqızının bu cür kobudluğundan inciyər, onu danışdırmazdım. Çünki mən kobudluğu, qəlb qırmağı, elədiyi yaxşılığı başa vurmağı çox pis xüsusiyyət sayırdım. İstəməzdim ki, insanlar bir-biri ilə bu cür davransınlar. Amma indi elə çox da acığım tutmadı, ondan küsmədim də.  Axı, necə olsa, o mənə və uşaqlara xına bitkisini tanıtmışdı. Sadəcə sağ ol deyərək kənara çəkildim.

Daxilimdə özünəinam və cəsarət hissi yarandı və qətiyyətlə axtarışa başladım. Özözümə danışır, mütləq, mən də tapacağam deyə düşünürdüm. Uşaqlardan necə uzaqlaşdığımı belə hiss etmədim. Uzaqdan görünən digər daşlardan böyük olan bir qaya parçasına yaxınlaşdım, onun üstündəki saralmış otlar məni cəlb etdi. Sevincək halda düşündüm ki, yəqin bu xınadır. Əlimlə otları daşların üstündən təmizlədim. Xına deyilmiş… Çox məyus oldum və birdən daşın üstündə yazıları oxuyub xeyli təəcübləndim. Orada iki ad yazılmışdı, adlar mənim atamla anamın adı ilə eyni idi.

Yadıma düşdü ki, atamla anamın gəncliyi bu dağlarda, bu xınalı daşlar olan yaylaqlarda keçmişdi, onlar bir-birlərini burda sevib ailə həyatı qurmuşdular.Onların adınının daş üzərində yazıldığını atamdan eşitmişdim. Mən gözlərimi atamla anamın adı yazılan daş parçasına zillədim. Birdən valideynlərimçün darıxdığımdanmı, ya uzaqlara düşüb itdiyimdənmi, ya da xına tapıb əlimi boyaya bilmədiyimdənmi?.. kövrəlib hönkür-hönkür ağladım.

Qorxudan, həyəcandan əlim-ayağım titrəyirdi, geriyə belə çevrilib baxa bilmirdim. Səssəmir yox idi. Anladım ki, azmışam. Bu vaxt Ağca nənəmin “Uşaq heç yanı tanımır, itib eləyər” kəlməsi qulağımda səsləndi. Qəhər məni boğdu. İstədim qayıdam, cəsarətim çatmadı. Təkrar atamla anamın adı yazılan daşa tərəf baxdım. Sanki bir az sakitləşdim. Yazılı daş mənə çox doğma göründü. Elə zənn etdim ki, valideynlərim yanımdadır. Bunları düşününəndə göz yaşlarım qurudu və ürəyimə bir rahatlıq gəldiyini duydum. Birdən əmim əlini çiynimə qoyaraq: “Qorxma, qızım, mən buradayam, heç əmi səni tək qoyar? Uzaqdan səni izləyirdim” deməsi məni düşüncələrdən ayırdı.



## ELVİN ELXANOĞLU

### ƏZİZ ŞUŞA

Əziz Şuşa, sən azadsan,
Torpağında yağı gəzmir.
Dağlarının zirvəsində
Daha qara yellər əsmir.

Səni azad etmək üçün
Bil ki, dastan yazılıbdı.
Əl uzadan düşmənlərin
Məzarları qazılıbdı.

Bundan sonra Xarıbülbül
Qorxa-qorxa açmayacaq.
Qədim Şuşa qalasına
Düşmən ayaq basmayacaq.

Gövhərağa məscidindən
Ucalacaq əzan səsi.
Daşaltısı, Cıdır düzü -
Müqəddəsdi hər bölgəsi.

Əlbəttə ki, gözəl Şuşa
Qarabağın incisidi.
Mədəniyyət sahəsində
Dünyanın birincisidi.

Gözəl Şuşa, sən azadsan,
Sağalacaq yaraların.
Artıq sənə qovuşacaq,
Yaxınların, doğmaların.

Mədəniyyət paytaxtıdı,
Beşiyidi musiqinin.
Vətənidi Natəvanın,
Bülbül, Nəvvab, Üzeyirin.

Yenə yarışlar olacaq
Tarixi Cıdır düzündə.
Yenidən qurulacaqdır
Məktəbin də, muzeyin də.

İsa bulağı gözündən
Daha qan-yaş tökməyəcək.
Bir də Şuşa əhalisi
Yurdlarından köçməyəcək.

Üzeyirin, Natəvanın,
Bülbülün ruhu şad oldu.
İgidlərin sayəsində
Gözəl Şuşa azad oldu.

Allah rəhmət etsin bütün
Canlarından keçənlərə,
Şəhadətə ucalaraq
Cənnətinə köçənlərə!

### ZƏFƏR GÜNÜ

İllərlə səbr edib dözdü bu xalqım,
Bilirdi bu həsrət bir gün bitəcək.
Qarabağ düşməndən azad edildi,
Azərbaycan, zəfər günün mübarək!

Bilsin şəhidlər və bilsin qazilər:
Tökülən o qanlar olmadı hədər.
44 günə oldu bu böyük zəfər -
Qarabağ bizimdi, hamı biləcək,
Azərbaycan, zəfər günün mübarək!

Qanla tarix yazdı şanlı ordumuz,
Zəfərlə taclandı milli ruhumuz.
Özünə qayıtdı cənnət yurdumuz -
Artıq Qarabağım çiçəklənəcək,
Azərbaycan, zəfər günün mübarək!

Dastan yazdı hər zabitin, əsgərin,
Dağıtdı düşmənin postun, səngərin.
Qarşında diz çökdü mənfur düşmənin -
Hər zaman qarşında tir-tir əsəcək,
Azərbaycan, zəfər günün mübarək!

Var xalqımın müzəffər sərkərdəsi,
Qılıncdan itidi onun kəlməsi.
Bəs eyləyər bircə kəlmə deməsi -
Dəmir Yumruq yenidən birləşəcək,
Azərbaycan, zəfər günün mübarək!

Minlərlə şəhidlər, bunca qazilər,
Nə də gördüyümüz o faciələr...
Nə qədər üstündən keçsə də illər -
Heç vaxt yaddaşlardan silinməyəcək,
Azərbaycan, zəfər günün mübarək!

Elxanoğlu deyir – Gəlin, səbr edək,
Otuz il dözmüşük, beş il də dözək.
Yenə də düşmənlər ağıllanmasa,
Ordumuzu İrəvanda görəcək -
Azərbaycan, zəfər günün mübarək!

## ANAMIZIN QƏDRİNİ BİLƏK

Ananın yerini kim verə bilər?
Gəlin anamızın qədrini bilək.
Bizi anadan çox kim sevə bilər?
Gəlin anamızın qədrini bilək.

Yuxusuz gecələr görüb gözləri,
Qoruyub həm gecə, həm gündüzləri.
Bətnində gəzdirib axı bizləri,
Gəlin anamızın qədrini bilək.

Bizi canından çox istəyər ana,
Canı ağrısa da, gizləyər ana.
Hər gün yolumuzu gözləyər ana,
Gəlin anamızın qədrini bilək.

Bilin ki, hər evdə çiçəkdi ana,
Bütün kainata bəzəkdi ana.
Axı müqəddəs bir mələkdi ana,
Gəlin anamızın qədrini bilək.

Bircə acı sözdən sınar ürəyi,
Bir soyuq baxışdan donar ürəyi.
Ən zərif ürəkdi ana ürəyi.
Gəlin anamızın qədrini bilək.

Cənnət ilə qoşa çəkilir adı,
Anasız həyatın bilinməz dadı.
Bu dünya amansız, fani dünyadı,
Gəlin anamızın qədrini bilək.

Laylası bu gün də qulağımdadı,
Gəncliyi gözümün qabağındadı.
Göz yaşım süzülüb yanağımdadı,
Gəlin anamızın qədrini bilək.

İllər gəncliyini alır ananın,
Ağ saçlar, yerini alır qaranın.
Necə ki gec deyil, vardı zamanın,
Gəlin anamızın qədrini bilək.

Həsrəti ağırdı, çəkənlər bilər,
Anasız göz yaşı tökənlər bilər.
Məzarına bir gül əkənlər bilər,
Gəlin anamızın qədrini bilək.

## ATADI

Həyatın ən çətin sınaqlarında
Övladın dadına çatan atadı.
Ailəsi çətinlik görməsin deyə,
Gecəni gündüzə qatan atadı.

Hər bir çətinliyə sinə gərsə də,
Nə qədər əziyyət, zülm görsə də,
Səndən bütün dünya üz döndərsə də,
Hər zaman dəyişməz qalan atadı.

Zəhməti özünə peşə biləcək,
Canı ağrısa da, üzü güləcək.
Öl desən yolunda bu gün öləcək,
Övladı yadına salan atadı.

Ailəsi başını uca edəndə,
Övladın xeyirli övlad görəndə,
Oğul, qız toyunda arzu deyəndə
Sevincdən gözləri dolan atadı.

Hər oğul böyüyüb ata olacaq,
İllər gəncliyini ondan alacaq.
Zamanla qocalıb yaşa dolacaq,
Hər zaman müqəddəs olan atadı.

Elvinəm, böyük sözü dinləmişəm,
Atamı, anamı əziz bilmişəm.
Anama gözümün nuru demişəm,
Başımın tacı hər zaman atadı.



**XƏYALƏ HƏMZƏLİYEVA**
Sumqayıt şəhər Evdə Fərdi Təhsil Məktəbinin müəllimi

# BAQİLİK VƏ BƏQA AŞİQLƏRİ

Baqilik ölməzlikdir. Baqilik dedikdə, əbədiyyət aləmi nəzərdə tutulur. Əbədiyyət aləminə doğru yönələnlərin isə bircə adı var: bəqa aşiqləri... Bu aşiqlər dünyanın faniliyini dərk edir, kamil varlıq nümunəsi olmağa çalışır, tutduqları yolda amalları uğrunda mübarizə aparır və bəqa mülkündə rahatlıq tapmaq üçün əbədiyyət aləminə qovuşurlar. Belə insanların həyatı ölümlərindən sonra başlayır.

27 sentyabr 2020-ci ildə başlanan və 30 illik həsrətə son qoyan Vətən müharibəsində torpağın bir parçasına çevrilən Xüsusi Təyinatlı Qüvvələrin “Əfsanəvi tabor” komandasının 13 qəhrəmanı da haqq sevgisini və ilahi əmanəti özündə sığışdıran, haqqı ən kamil tanıyan insanlardır. Camal, Elyar, Kamil, Xəyyam, Beyrək, Tərzan, Sübhan, Şəhriyar, İlkin, Ramiq, Həmid, Elton, Kərim kimi mübarizlər üzərində gəzdikləri torpağın bağımsız olması üçün rəşadətləri ilə mənəvi dərslər öyrətdilər, ölümləri ilə ölümsüzləşdilər. Həzrət Əlinin ibrətamiz kəlamlarından birində deyildiyi kimi: “Gözəl bir əməl gözəl bir çöhrədən daha uzunömürlüdür”. Bu qəhrəmanların da zaman keçdikcə nurlu simaları unudula bilər, amma təqvimə tarix yazan xarakter və əməlləri əsla...

Bəqa aşiqlərinin yolu ilə gedən əfsanələrin ekstermal şəraitdə apardıqları döyüş üslubu və taktikası gələcək nəsillər üçün önəmli və əvəzolunmaz bir mənbə hesab olunacaq. Onlar vətən üçün, xalq üçün ləyaqətli döyüşçü, vətənpərvər bir vətəndaş adını qazandılar.

Əməlləri ilə tarixi təkrarlayan “Əfsanəvi tabor” qəhrəmanları xalqın yaddaşında dərin iz qoydular. Artıq xalq onları şəxsi adlarından daha çox ləyaqət rəmzi sayılan əməlləri ilə: son damla qanına qədər döyüşüb əsir düşməmək üçün qumbaranı sinəsinə sıxan Kərim kimi, ermənıyə erməni dilində geri çəkilmək əmrini verən “Hadrut fatehi” Camal kimi, səmimiyyəti ilə son günə qədər əsgərləri arasında komandir təsiri bağışlamayan Elton kimi, qələbə sevincini ailəsinə ilk müjdə etmək sözünü verən İlkin kimi, getdiyi hər bir toy şənliyində bayraq hədiyyə aparan bayraq sevdalısı Tərzan kimi, erməni polkovnikini boğaraq öldürən Elyar kimi, “Yaşma”nın ilk “qaranquş”larından olan “Sarı Komutan” ləqəbli Kamil kimi, qapısına bayraq yaraşacağını əzəlindən dilinə gətirən Sübhan kimi, tabutuna sığmayan Xəyyam kimi, qəhrəmanlıq dastanının qəhrəman adlısı Beyrək kimi, adı gələndə belə düşmənin qorxduğu “Boz Qurd” ləqəbli Şəhriyar kimi, nitqi və əməlləri ilə “Aristokrat” adını alan Həmid kimi, Şuşanın azad olunduğu gün şəhadət şərbətini dadan Ramiq kimi tanıdı.

Tanrının dərgahında mələklər tanrının möhtəşəm yaratdığı hər bir şeyə görə əbədi səcdədə olur. Tanrı dərgahında uca məqamı qazanan və bizə o səcdə ləzzətini bu dünyada daddıran bu bəqa aşiqləri bayrağımızın müstəqil dövlətlərin bayraqları ilə bir sırada dalğalanmasının əsas səbəbkarları oldular.



# NƏHAYƏT MUSABƏYOVA

## QOCA ÇİNAR

Öz əhdinə vəfalıdı uca çinar,
Saf eşqimin sirdaşıdı qoca çinar -
Mən yanından keçən zaman həmən çinar
Yırğalayır budaqların, çəkir haray...
Bilirəm ki, bu çinar da xəbər alır səni məndən,
Bu çinarın kölgəsində görüşərdik səninlə mən.

Mən o yerdən keçən zaman çinar yenə
Yol üstündə saxlayaraq dedi mənə:
Neçə ildi mən görürəm səni yalqız,
Söylə görüm – Yarın hanı, ay vəfasız?
Fikrə daldım, çinar yenə xəbər aldı səni məndən,
Bu çinarın kölgəsində görüşərdik səninlə mən.

Ötən günlər qayıdaydı bir də geri,
Çinar bizə saxlayaydı görüş yeri.
Əl gəzdirib saçlarına hərdən-hərdən
O bənövşə gözlərinə baxardım mən.
Çinar baxıb həzz alardı bu görüşdən,
Bu çinarın kölgəsində görüşərdik səninlə mən.

## İYDƏ ÇİÇƏKLƏRİ

Təbiətin qoynunda
Gözəl bir iydəli bağ -
Bir sevgilim, bir də mən,
Yoxdu kimsədən soraq.

Əsdikcə həzin-həzin
Səbayel küləkləri,
Ətir saçır həryana
İydənin çiçəkləri.

Yada salırıq bir-bir
Şirin xatirələri.
Oxşayır saçlarımı
Sevgilimin əlləri.

Yenə açıb hər yanda
İydənin çiçəkləri.
Mən sənsiz düşünürəm
Sənlə keçən günləri...

## VİCDANIN SƏSİ

Söz verdinsə birinə,
Onu yetir yerinə.
Aldatma sən heç kəsi,
Eşitsən vicdan səsi.

Vicdanın varsa əgər,
Etmə heç vaxt bəd əməl.
Eşit, bir onu dinlə,
Vicdan gedir səninlə.

Əgər olsan inadkar,
Yoxdu sənə etibar.
Nə istəsən edərsən,
Əyri yolla gedərsən.

Başqasını sanma gəl
Həyatda heç vaxt qanmaz.
Qanmaz sənin özünsən,
Vicdanından utanmaz.

## QƏDRİMİ BİLMƏDİ

Acı sözlərlə mənə
Bir axşam üsyan etdin.
Səhvini düşünmədən
qapını çırpıb getdin.

Bir zaman peşman olsan,
Qapımı döymə daha.
Məni bəhanə etdin
Özündəki günaha.

Getdin, demək, yaxşı yol,
Nə etdim, halal olsun.
Amma saf məhəbbətim
Sənin gözünə dursun.

Elə bildin sənsizlik
Məni yıxıb əzəcək?
Sən qədrimi bilmədin,
Bir gün bilən gələcək...

**XATİRƏLƏRDƏ**

İndi bu nəğməni dinləyəndə mən
Bilirsənmi nələr keçir qəlbimdən?
Ötən günlərim də xatirələrdə
Bir-bir gəlib keçir gözüm önündən.

Bir bahar axşamı, hava saf, təmiz,
Sevənlərin qəlbi sanki bir dəniz.
Yasəmən ətirli gül bağçada biz
Sevirəm sözünü dedik ikimiz.

Bir bahar axşamı yenə biz qoşa
Göz-gözə dayanıb etdik tamaşa.
Mənə bu nəğməni pıçıldadın sən,
Qəlbimə həkk etdim bu nəğməni mən.

Bu xatirə nəğmə mənimdi, mənim,
Xatirən də şirin, ləhcən də şirin.
Bu nəğməni mənə sən pıçıldadın,
Dilin də şirindi, nəğmən də şirin.

**QAYTAR MƏHƏBBƏTİMİ**

Deyirsən ki, əzizim,
Qaytar məhəbbətimi.
Söylə - Solğun məhəbbət
Sənə gərək olarmı?

Gül-çiçəktək ətirli
O təmiz məhəbbətim
Öz ətrini itirmiş,
Sənə gərək olarmı?

Söylə - Necə qaytarım
Sənin məhəbbətini?
Qaytarsam, daha gecdi,
Sənə gərək olarmı?
Belə məhəbbət heçdi,
Sənə gərək olarmı?

**DÖNÜB GETDİN**

Ayrılanda söylədiyin sözlərin
Ürəyimi oda saldı, dağladı.
Varlığımı əsir etdi gözlərin,
Gedib-gələn yollarımı bağladı.

Unut dedin, de – Unutmaq asanmı?
Sən mənimçün unudulmaz olmusan.
Sevib sonra belə atmaq asanmı?
Yox. Əbədi ürəyimdə qalmısan.

Unut-unut sözlərindən üstümə
Elə bil ki ildırımlar çaxıldı.
Qəm karvanı gəlib durdu qəsdimə,
Könlüm evi birdəfəlik yıxıldı.

Dönüb getdin, mənə fikir vermədin,
Xoş günləri varlığımdan qopardın.
Sənə olan sədaqəti görmədin,
Axtarsaydın, ürəyimdə tapardın.

Qəm yükünü sinəm üstə götürdüm,
Arzularım saraldılar, soldular.
Elə bilmə təkcə səni itirdim,
Gedişinlə məni məndən aldılar.

**BİR KƏLMƏ**

Bir daha görüşə gəlmə dedim mən,
Kaş deməz olaydım bircə kəlməni.
Sənə gəlmə dedim, gəlmədin, ancaq
Mən görüş yerində axtardım səni.

Yaman qəribliyə saldın sən məni,
Mən gözləyən oldum, sən gəlməz oldun.
Heç belə vəfasız bilməzdim səni,
Bircə səhv eylədim və unuduldum.

Bilməzdim bu qədər dəymədüşərsən,
Kaş deməz olaydım bircə kəlməni.
Sənə gəlmə dedim, gəlmədin, ancaq
Gecə də, gündüz də gözlədim səni.



ƏLİ RZAZADƏ

# GECƏ GƏLƏN ƏSGƏR

(hekayə)

Görəsən, keçən ilki qışla bu ilki qış arasındakı ən böyük fərq nədir? Keçən il də qar belə lopa-lopa yağmırdımı? Yox, yox, deyəsən, onda az-az, həzin-həzin yağırdı. Özü də, səhv xatırlamıramsa, keçən il yerdə də bu qədər qar qalmamışdı, nənəm demiş, "torpağın nəfəsinə dəyən kimi" əriyib yox olmuşdu. Daha nə olmuşdu keçən qış? Daha nəyin xatirəsiylə ovunmuşdum, nəyi dərd eləmişdim özümə? Heç onu da bilmirəm…

Yəqin, elə buna görə keçmişdə olan hadisələr bizə əfsanələr, rəvayətlər kimi gəlib çatıb, çünki dəqiqliyiylə, olduğu kimi, ayı-günü, vaxtı-vədəsi heç kimin yadında qalmayıb. Məsələn, elə bizim kəndimizin adının niyə Çəmənli olduğunu kim bilir? Yaydan-yaya göz işlədikcə ləpələnən əlvan çəmənlərə görəmi? Bəs, alimlərin hər gün televizordan bağırdığı "iqlim dəyişikliyi" nin yolu heç bizim kəndə düşməyib ki? Min ildi bu çiçəklər, bu çəmənlər heç dəyişilməyib ki?

…Bu fikirlərlə açmışdım daha bir səhərimi. Mənimçün Tanrının günü dan ağarmamışdan əvvəl başlayırdı; yuxudan durur, bir çapma stəkan kəmşirin çayla qəşəng bir çoban dürməyi yeyirəm, sonra da özümü neçə illik "çörək ağacıma"-maşınıma çatdırıram, yenə nənəm demiş, "başına dönüb-dolanıram", yola çıxmağa hazır olanda da yayda nazik pencəyimi, qışda da mürəkkəb rəngli sırıqlımı çiynimə salıb yola düzəlirəm. Ətrafdakı dörd kənddə məni gözləyən sağıcılardan südü toplayıb geri-Çəmənliyə qayıdıram. O dörd kəndi rayon mərkəziylə birləşdirən yeganə yol kəndimizin ətəyindən-dağın çaya baxan yamacından keçir, özü də dümdüz yox ha, dolana-dolana, nazlana-nazlana… Bu da nənəmin sözüdü, yolu nazlandıran nənəm…Bu gün yaman çox xatırladım nənəmi, Allah ölənlərinizə rəhmət eləsin, rəhmətlik yadıma hədura düşmür, düşəndə də mütləq yaxşı xəbər eşidirəm. Görək, günə hələ indi başlamışam…Ya Allahın adı…

Hər gün getdiyim yolu bir də ona görə xoşlayıram ki, mən yolda olanda ağarır dan üzü. Heç bəzəyib eləmirəm, elə olduğu kimi deyirəm: Tanrının günü üzümə açılır mənim. Mən nazlı dolayların başına çatanda sürəti azaldıram, ordan da üzüaşağı asta-asta enirəm, Etibar kişinin dəmir komasına çatanda dayanıram, ayağımı kabinənin dəmirinə qoyub aşağı enəndə fərqinə varıram ki, gözüm ayağımın altını seçir. Günə günəşdən əvvəl başlamağın xeyri də şərindən çox olur; yol-iz səssiz, hava daha təmiz, qulağıma dəyən hənirlərin müəllifi təbiət…

Bu gün dünənkinə baxanda bir on dəqiqə gec çatmışam dolayların başına; təkərləri zəncirləmişəm ki, qarlı yolda sürüşməsin. Amma yenə də, bu dekabr səhərinin ayazındakı doğmalıq

məni yadırğamayıb, elə həmənkidi sanki… Həmənkidimi? Yox, həmənki ola bilməz! Axı, dünən qar bu boyda deyildi, indi axşamdan necə başlayıbsa, bir hovur içini çəkib dincəlməyib, günortayacan belə yağsa, dizə çatacaq. Birtəhər rayon mərkəzinə çatım, yükümü ölkənin ən böyük süd fabrikinə təhvil verim, boş bidonları da götürdüyüm yerlərinə səliqəylə yığım, -sabah səhər yiyələrinə qaytarıb dolu götürməliyəm- sonra ya Allah, üzüyuxarı da asta-asta qalxaram, olmaz, Etibar kişinin komasında azca ləngiyib bir az da onu danışdırıb eynini açaram. Adam görəndə sevinir yazıq, o günü mənə deyir ki:

-Sağ olasan, ay Çəmənli balası, sən olmasan, elə danışdığım bu koma, bu başı dumanlı dağlar, ya da şırıltısı gələn çay olar.

Həmişə mənə beləcə deyir: "Çəmənli balası". Hərdən düşünürəm ki, görəsən, adımı bilirmi? Əşşi, bilməsə də olar, adama adam lazım olanda adın nə fərqi olur ki? Onsuz da bu dünyada Etibar kişi üçün bircə adın mənası qalıb. O da Şuşadı. Şuşa…

Yeganə oğlu I Qarabağ savaşına könüllü yollanmışdı. Uzun müddət xəbəri çıxmadı. Yadımdadı, həmin ərəfələr Etibar kişi gecələr də dolayların tən ortasında yerləşən yanacaqdoldurma məntəqəsində qalırdı, evinə-yamacın o üzündəki Çaylı kəndinə getmirdi. Deyirdi:

-Qəfil xəbər gələr uşaqdan…

Sovet vaxtından işləyən yanacaqdoldurma məntəqəsindəki dəmir koma belə yarandı gözümüzün qabağında; hələ onda heç kim güman etmirdi ki, Etibar kişi təkliyinə yuva qurur burda, elə bilirdik, bir gün dolayların aşağısında bir əsgər görünəcək, Etibar kişi də şələ-küləsini yığıb bu əsgərin yanına düşüb evinə gedəcək. Amma o gün heç gəlib çatmadı… Əksinə, bir gün Etibar kişi gözə dəymədi, yanacaqdoldurma məntəqəsi günlərlə bağlı qaldı. Neçə gün çəkdi, bilmirəm, aşağı-yuxarı gedən maşınlardan sürücülərin narazılıqları bir-birinə sarmaşıb dəmir komanın damındakı bacada ulayan küləyə qarışdı:

-Hardadı, ayə, bu kişi?

-Dünən də yoxuydu…

-Çaylıdan gələn yoxdumu? Bir evinə dönən, bir ağız haylayan oldumu?

-Oldu, oldu. Evində də yoxdu, külfəti təkdi, elə o da nigarandı.

-Bəs, hanı, ayə, bu kişi? Yağlı əppək olub yoxa çıxmadı ha?!

-Harda olsa, gələr, bu boyda camaat ona umuddudur, qoyarmı camaatı yanacaqsız?!

Doğru deyirdilər, ətraf kəndlərin gələn-gedəninin hamısı Etibar kişinin yanacaqdoldurma məntəqəsinə ümidliydilər; ya burda vurmalıydılar yanacağı, ya da aşağı-rayon mərkəzinə enməliydilər. Təbii ki, ünyetəndən əlçatan daha yaxşıydı.

Çox keçmədi əlçatanamızın qapısının bağlı qalması, bir səhər Etibar kişini yenə dəmir komanın qapısı ağzında gördüm. Amma mənə elə gəldi, kişi bu bir neçə gün içində, elə bil, azı iyirmi il geri düşüb, sanki, sınıxıb, boyu da balacalaşıb. Səbəbini soruşmamışdım, heç neçə gündü harda olduğuyla maraqlanmağa da cürət eləməmişdim. Ta ki, bir həftə sonra Çaylıdan olan tarix müəllimiylə rayon bazarında qarşılaşanadək Etibar kişinin "sirrinin" nə olduğunu bilməmişdim. Müəllim danışmışdı ki, Etibar kişi oğlundan xəbər öyrənməyə gedib. Hospitalda yatan yaralı əsgərlərdən biri ona teleqram vurub, təcili yanına gəlməyini istəyib. Etibar kişi də tələsib, heç kimə xəbər eləmədən yola çıxıb, bir də nəfəsini hospitalda dərib. Həmin əsgərlərin əksəriyyəti Şuşanın müdafiəsində Etibar kişinin oğluyla çiyin-çiyinə döyüşübmüş. Şəhərin erməni daşnakları tərəfindən işğalından bir gün əvvəl naqafil atılan bir gülləyə tuş gəlibmiş yazığın oğlu. Yoldaşları da onu elə orda-Şuşada dəfn ediblər… Ağır döyüşlərdə yaralanan əsgərlər uzun müddət hospitalda yatırlar, ta ki, özlərini-sözlərini biləndə Etibar kişiyə oğlundan bir xəbər verməyə tələsirlər… Onlar söylədikləri xəbərlə kişinin ürəyinə su səpəcəklərini düşünürlərmiş bəlkə də… Mən ki Etibar kişini elə görmüşdüm, əksinə, suyu qurumuş ağaca dönmüşdü. Ana ürəyi isə heç dözməmişdi, xəbərin gəlməsindən az sonra Etibar kişinin ömür-gün yoldaşı bu dünyadan birdəfəlik küsmüşdü, nisgilini də köksünə yığıb yer üzünə vida sözü söyləmədən torpağın altına köçmüşdü… Ondan sonra Etibar kişinin qa-

raltısı Çaylı yolundan da əskik olmuşdu; üzünü dəmir komasının əyri pəncərəsinə söykəyərək ayları illərə calamış, illəri də ömür karvanına yük eləmişdi. Hərdən səhərin alatoranında məni əyləyib rayondan şey-şüy almağı tapşıranda elə bilirdim, üzümə bu dünyanın ən böyük kədəri, ən asan təsəllisi baxır. Doğrudan da, yaşamaq üçün necə asan təsəllilər tapırıq… Eh… Çətini ölməkdi, a kişi… Çətini dərdinə, nisgilinə təslim olub bu dünyadan gözünü çəkməkdi…

"Şuşa" kəlməsini bir də Vətən müharibəsi başlayandan sonra Etibar kişinin dilindən eşitmişdim. Özü də şövqlə…Həvəslə…Bir az da qürurla… Hər dəfə rastlaşanda çallaşmış qaşlarını yuxarı qaldırır, neçə illərdi parıltısı sönmüş gözlərini uzaqlara dikir, ucadan deyirdi:

-Bax, görərsən, uzağı, bir-iki günə rədd eləyəcəklər erməniləri Şuşadan gözünə döndüklərim! Rədd eləyəcəklər ey… Gözdə-qulaqdayam, Şuşa işğaldan azad edilən kimi qolumu qaldırıb oynayacağam, oğul toyunda oynamaq kimi oynayacağam özü də! Oğlum ordadı mənim, a Çəmənli balası! Oğlum azad olacaq ey, oğlum… Şuşa mənim oğlumdu…

-Hamımızın oğludu, a kişi!

-Ona qalsa, Laçın da qızımdı, Kəlbəcər də nəvəmdi. Amma oğul bel sümüyümdü, a dərdbilməz!

Elə beləcə də demişdi mənə Etibar kişi: "Dərdbilməz". Qəribə-qəribə sözləri hardan tapırdı, dilində muncuğu sapa düzən kimi bir-birinə yaraşdırıb necə cümlə düzəldirdi, bunu da bircə özü bilirdi, bir də Yaradanı! Mən nə karəydim ki, bu hikməti anlayam? Tövbə, tövbə… Hələ neçə il əvvəl, Etibar kişinin laçın vaxtında ağsaqqallar deyirdilər ki, "özünüzü Etibarın dilinin itiliyindən gözləyin". Neçə iliymiş, dərd onun dilinin itiliyini kütləşdiribmiş, indi, Vətən müharibəsində hər gün gələn zəfər xəbərləri kişini "diriltmişdi", dilini də, dilçəyini də özünə qaytarmışdı.

Hələ oktyabrın əvvəlində-kəndimizdən dörd igidi cəbhəyə yola salanda Etibar kişinin o qəribə davranışını demirəm. Axşamdan məktəbin direktoru Xanoğlan müəllim qapıya gəlmişdi, obaşdan kəndimizdən dörd igidi-Teymuru, Anarı, Füzulini və Şahini rayon mərkəzinə hərbi komissarlığa çatdırmalı olduğumuzu demişdi. Obaşdan kəndin çıxacağında məni gözləyəcəkdilər. Səhər Xanoğlan müəllimlə birgə dörd aslan parçasını maşına götürəndə hamısının üzündə bir sevinc parıldayırdı. I Qarabağ savaşından illər sonra doğulanların haqq savaşını bu cür həvəslə, ehtirasla gözləməyi də bir ayrı qüruruydu. Demək, aradan keçən bu ağrılı illəri, bu qaysaq bağlamamış yaraları olduğu kimi anlada bilmişdik bizdən sonrakılara…Demək, sevgimizi, doğmalığımızı, sevincimizi daşıdığımız kimi dərdimizi də daşıya bilmişdik gələcəyimizə… Bu da hər oğulun işi deyil ha!

Elə Etibar kişi də ayrı cür əhvaldaydı o gün. Hardan xəbər tutmuşdu, bilmirəm, əlində su dolu iri bir mis parç komasının qabağında dayanıb bizi gözləyirdi. Düzü, alaqaranlıqda anşırdammadım ki, gözlərində gördüyüm o parıltıya yaş qarışıb, ya yox, bircə ondan əminəm ki, tanıdığım gündən bu yana ilk dəfəydi bəbəklərində işıq vardı… Maşını düz onun qənşərində saxlamışdım. Yaxınlaşıb maşına qalxmışdı, bircə-bircə igidlərin boynunu qucaqlayıb alınlarından öpmüşdü, yerə düşəndən sonra da səssizcə əliylə "get" işarəsi vermişdi. Maşın tərpənər-tərpənməz mis parçdakı suyu arxamızca səpmişdi. Dolayların aşağısına çataçatda isə yuxarıdan haraylanan bir səs dan üzünə oxunan duaya dönmüşdü:

-Şuşanı əsirlikdən qurtarmamış qayıtmayın ha! Şuşa amanatı!

Yola salmışdıq dörd igidi, dörd düşmən toxmağını…Və onlar elə düşmənin başını əzən toxmağa dönmüşdülər… Sonra da ürəyimizdəki qüruru nisgillə doğmalaşdıra bilmişdilər… Oktyabrın sonunda gün fərqiylə üçünün-Teymurun, Anarın və Füzulinin bayrağa bükülü nəşi gəlmişdi kəndə… Düşmən tapdağı altındakı torpaqlarımızın hər qarışının azadlığını əmanət etdiklərimizi torpağa əmanət edəndə gözümün yaşını gödəkçəmin qoluyla silib camaatın içinə göz gəzdirmişdim; Etibar kişi yox idi… Hər üç dəfndə də gözümə dəyməmişdi. Amma bilirdim ki, oralardadı, yəqin ağlamağını kimsə görməsin deyə hardasa daldalanmışdı… Neçə ildi övlad itkisinin gözünü bağladığı göz yaşı bulağının qa-

bağını da elə eyni çəkidəki dərd aça bilərdi…

Şahindən isə heç xəbər çıxmırdı… Müharibə bitdi, zəfər günü gəldi çatdı. Şuşanın azadlığını isə uşaqdan-böyüyə hamı bir ayrı cür yaşadı… Məncə, yaşamaq da hər keçən günə aid edilməməlidir, bu sözün də öz dəyəri var ki, o dəyərini anladığın anların, günlərin adına yaraşmalıdır. Şuşanın azad edildiyi gün kimi… Müharibənin bitdiyi zəfər günü kimi… Bax, həmin günləri sözün əsl mənasında YAŞADIM! Xalq olaraq YAŞADIQ!

Bu yaşantının arxasında Etibar kişinin ağrısı da vardı, belini əyən övlad itkisiylə həmahəng köksünü qabardan Şuşa qələbəsi də… O gündən bəri hər dəfə rastlaşanda məni elə ürəklə salamlayır ki:

-Nətəhərsən, ay Çəmənli balası?

-Yaxşıyam, sən neynirsən?

-Canımı sazlayıram, Şuşaya gedəcəyik axı.

-Gedərik, gedərik, azca hava açılsın.

-Hansı havada desən, gedərəm ey… Di gəl, sənin bu amanat maşınına belim bərk döy, böyrü üstə yıxılıb qalar Şuşa dağlarında.

-Yox, a kişi! Sən də söz danışdın ha! Neçə ildi bayram demədən, seyran demədən bu qarlı-buzlu dolayları çıxan bu qara maşın döymü?!

-Şuşa yolu hər yola bənzəməz! Yaxşısı, öyünməkdənsə yazı gözlə, maşını da arada gətir bir o yan-bu yanına keçim, dəmir-dümürünü yoxlayım. Sənə nə var, bir də gördün kefin kəsdi, bu qara maşını elə bu dolayın ortasındaca qoyub getdin.

Aşağı-yuxarı günaşırı söhbətimiz məhz bu axarda davam edirdi, həmişə də mən axırda ürəkdən bir şaqqanaq çəkir, maşınıma minib üzüyuxarı kəndə sarı götürülürdüm. Hiss edirdim ki, Etibar kişinin də eyni açılır bu cür söhbətlərlə. Onu da bilirdim ki, hər adama belə ərk eləmir, belə ürək qızdırıb söhbətin başına çatı salıb dolandırmır. Bu da bir ayrıca xoşuma gəlirdi, nə yalan deyim…

…Bu dekabr səhərində də Etibar kişi qabağıma çıxdı. Amma bu dəfə halında bir qəribəlik vardı. Həmişə komanın yarıaçıq qapısının ağzında durar, arxasından vuran işıqda əlini yelləyər, rayona enən maşınları saxlayardı. İndi isə düz maşının qabağına qaçmışdı, özü də bunu elə qəfil eləmişdi ki, bir anlıq maşının altında qalacağını fikirləşdim. Özümü toplayıb maşını saxladım, başımı kabinənin aynasından çıxarıb bağırdım:

-Neynədiyindi, ay evi yıxılmış?! Demirsənmi, özünü də bədbəxt edərsən, məni də!

-Sən də özünə xoşbaxt deyəndə, gərək xoşbaxtlar yıxılıb ölsün! Bir aşağı düş görüm!-Bunu deyib Etibar kişi komaya sarı qaçdı.

Maşından düşüb mən də onun arxasınca yönəldim. Amma komaya bir-iki addım qalmış içəridən başını çıxarıb çımxırdı:

-Maşından düş dedim, dalımca gəl demədim! Orda dur!

-Bıy, a kişi, nolub?

-Bir toxta deyirəm, gəlirəm indi…-Bunu deyə-deyə qapının arxasındakı asılqana keçirdiyi kostyumun döş cibini eşirdi.

Handan-hana axtardığını tapdı deyəsən, ovcunu işığa tutub baxdı, rahatlıqla nəfəs alıb başını tez komanın içinə doğru uzatdı. Bilmirəm mənə elə gəldi, yoxsa doğrudan da, Etibar kişi astaca nəsə pıçıldayıb başını yellədi? Yox, bu gün kişiyə nəsə olduğu dəqiqdi. Allah eləməmiş, birdən huşu gedər ha?! Qocalıqdı da, vəfası yoxdu ki, adam urvatını axır günəcən saxlasın…

-Al, say görüm neçədi? –Etibar kişi içəridən çıxıb ovcundakı pulları mənə uzatdı.

Götürüb saydım:

-Qırx iki manatdı.

-Azdı…-Bir az fikrə getdi, dedi:-Gözlə, indi gəlirəm. Kitabın arasına qoydum, deyəsən, dünənki on manatı…Yadım qurusun…-Söylənə-söylənə yenə içəri keçdi, bu dəfə qapını arxasıyca çəkib bərk örtdü.

Havanın ayazı sırıqlının boynundan içəri dolurdu, yaxalığımı qaldırdım, pulu cibimə qoyub əllərimi bir-birinə sürtdüm. Birdən mənə elə gəldi ki, dəmir komanın əyri pəncərəsində bir yox, iki kölgə var. Sağ əlimin arxası ilə gözlərimi ovuşdurub təzədən aynaya baxdım; yanılmamışdım. Həqiqətən də, içəridə iki nəfər vardı.

-Sabah-sabah kim ola? Hələ kişi də onu məndən gizlətməyə çalışa…

-Gəlirəm, darqursaq olma!-Etibar kişi qapını açıb bu sözləri deyəndə anladım ki, fikirləşdiy-

imi ucadan demişəm.

Özümü o yerə qoymadım:

-Donduq ki soyuqdan! Bir stəkan çay da verən olmadı ki, bala, heç olmasa eşikdə iç, komaya keçməyinə day izn yoxdu!

-Diliacılıq eləmə ha! Söz deyərəm, dəymişin dura-dura kalın tökülər!

-Özünü maşının altına atmağın bəs döy, indi də üstümə "xox" gəlirsən?!-Hiss edirəm ki, şaqqanaq çəkməyimə az qalıb. Sözlərin ən sərtlərini seçirəm beynimdə…

-Mən ha?! Sən sürdüyün maşının altında qalıb öləm ha?! Ayə, mən hər sənin kimisinin maşının altında qalıb ölmərəm. Adım-sanım var!

-Əcəl gələndə ada-sana baxır, eləmi?! –Daha özümü saxlaya bilmirəm, qəhqəhəm qarlı havada buz şaqqıltısı kimi səslənir.

Etibar kişi bu dəfə də ovcundakı on manatı uzatdı:

-Oldumu əlli iki?

-Hə…

-Di yaxşı, dediklərimi bircə-bircə alarsan. Yadında qalarmı? Yoxsa içəridən kağız-qələm gətirimmi?

-A kişi, sən bu gün lap özünə yad olmusan ha! Neçə ildi burdan keçirəm? Heç bircə dəfə tapşırdığını əskik almışam? Artıq almışam ki, əskik yox.

-Çəmənlidəniydin eləmi?

-Hə…Guya bilmirsənmi?

-Bir də soruşanda ayıbın artır?

-Paho… Di tez elə, nə almalıyam denən, gün bir boy qalxacaq indicə.

-Səni gözləyir gün, narahat olma, sən rayona çatmayınca boyunu göstərməyəcək.

-Niyə? Müqaviləmmi var?

-Yox, sən kimsən ki, Allahın günü səninlə şərt kəssin? Mən tapşırmışam!

İkinci dəfə uğunuram. Daha nəsə deməyə dilim tutmur. Etibar kişi zənnlə üzümə baxır:

-Gülməyini qurtaranda de, alacaqlarını sayım.

-De…De gəlsin…-Dərindən bir nəfəs alıb belimi düzəldirəm.

-Deməli, belə, bir dəst isti corab, yaxşı şirnilərdən də bir-iki kilo… Yaxşısından ha, ağıza qoyanda mağıl bir şey dadsın.

-Baş üstə!

-Sonra… Bazarda hansı meyvə varsa ondan al, qonaq qabağına çıxası olanından.

-Bıy… Qonağın var?

-Sözümü kəsmə! Hələ siyahı uzundur.-Bunu hündürdən desə də, sonra səsini alçaldır:- Bir qutu da əməlli siqaret…

-Siqaret?

Daha nəsə demək istəsəm də, demirəm, sözlərimi uduram. Məni susmağa vadar edən Etibar kişinin ürkəkcəsinə komanın pəncərəsinə dəyib qayıdan baxışlarıdı… Bu baxışlarda doğma hüznlə yanaşı, bir qədər də özündən razı qalmış adamın rahatladığı ifadə var. Sözü çevirirəm:

-Siqaret var bir manat, var iki manat… Hansından?

-Hansı yaxşıdı ondan. Özü də çalış, bu gün o, nəydi adı, Əzəmətin kababxanasına-zada üz tutma, bu gün də naharını öyünün altında Allah verəndən elə.

-Qeydimə elə qalansan, bir yaxşı soğançalı qayğanaq elə mən dönənə.

-Onu sabah…Sabah… Bu gün tez qayıt gəl, yubanma. Evində yumurta tapılmayan kəndçiyə kəndçi deməzdik biz o vaxt. Yoxundusa, qayıdanda yumurta verərəm, amma qayğanaq sabah.

-Yaxşı-yaxşı. Xəsisə dedilər çayı neçə qəndlə içirsən? Dedi, evimdə bir, qonşuda üç qəndlə.

Bu dəfə ikimiz də güldük. Etibar kişi əlini kürəyimə vurub başıyla yola işarə elədi. Maşına atlayıb işə salıram, dolayın birini burulandan sonra qeyri-ixtiyarı çevrilib komaya baxıram. Bacasından çıxan tüstüdə də bu sirr var sanki… Özü də bu sirr ömründə dodağı siqaret sümürməmiş bir qocanın "siqaretin ən yaxşısından al" deməsi qədər düşündürücüdür. Düşündürücü… Bizə düşünməyi öyrədənlər də elə qocalar deyilmi? Qoca… Yox, ən yaxşısı ululalarımızın ehtiramla dilə gətirdiyi "ağsaqqal" kəlməsidi. Nə gözəl deyiblər ey… Bir şeyi də anlayıram bu gün: nə qədər ki, bizdən böyüklər var həyatımızda, demək, hələ hardasa uşaqlığımızla aramızda bir körpü var. Yanında uşaq olduqlarımız birbir həyatımızdan yox olduqca böyüyürük, ahıllaşırıq, ixtiyarlaşırıq…

Yadıma Şahin düşür… İki aydır xəbər-ətər çıxmayan Şahin. Ən son kimsə internetdən bir şəklini tapmışdı, Şuşanın girişindəki "ŞUŞA" yazısının qarşısında əlində avtomat dayanıb gülümsəyirdi. İndi o şəkil bütün onu tanıyanların telefonundaydı. Elə mənim də… Hərdən açıb-baxır, bu boyda, bu buxunda bir igidin bir qar dənəsi kimi naməlumluqda "yoxa çıxdığını" ağlıma sığdırammırdım. Necə yəni bu yekəlikdə adamdan bir səs çıxmır?! Bir "gördüm" deyən tapılmır?! Ürəyimdə bir də o qorxu var ki, I Qarabağ müharibəsində itkin düşənlərin adının yanına yazıla Şahinin adı… Allah eləməsin, Allah eləməsin…

Şəhid olmuş üç igiddən birinin-Füzulinin nənəsini gördüm bir neçə gün qabaq, Mətanət nənəni… Arvad dilində "şükür" ilə səhəri açır, axşamı yola salırdı: "Şükür kəræminə, İlahi! Balamın meyidini rahatca torpağa basdırmaq nəsibimiz oldu! Kimin balası sağdı, sağ gəlsin, şəhid olub, gətirib torpağa verə bilsin…"

Bildim ki, sonuncu cümlə Şahinə aiddi… Görən, hardadı axı? Müharibə bitəli bir ay olur, sağdısa, niyə bir dəfə zəng eləmir evlərinə? Heç olmasa, əsgərlərlə görüşə gedənlər, əsgər payı aparanlar barı çoxlu şəkillər çəkdirə, baxaq, o şəkillərdən birindəsə çıxa Şahinin gülər üzü qabağımıza…

…Rayon mərkəzində də, elə geriyə qayıdanda da eləcə Şahin gəlib dururdu gözümün qabağında. Elə bil, ürəyimə nəsə dammışdı. Amma nə? Hardan biləydim… Buna ağlım çatmaz, yox, bu, Yaradanın hikmətidi, bəndə işi deyil…

Etibar kişinin komasına çatıb maşını saxladım. Mən kabinədən düşməmiş kişi başımın üstünü aldı:

-Noooldu? Şəkiyə ipəyə gedən gəldi, Çəmənli balası gəlmədi…

-Bir günortan xeyir, a kişi! Şükür elə, hələ Şəkiyə gedib ipək dalınca, Çinə getsəydi, qayıtmazdı.

-Niyə? Yolda sənə rast gələrdi, çənənin altına salardın?

-Sənə söz çatdıranı ildırım vursun, Etibar kişi!

-İldırım da hədura adam vurmur ha, onun da bir urvatı olur!

Gülə-gülə əlimdəki iri kağız torbanı ona uzadıram. O da tələsik torbanı götürüb komaya tərəf dönür. Əlimi cibimə salıb pulun qalığını çıxarıram:

-A kişi! Pulun qalıb ey…

-Gözlə…Gözlə…-deyə-deyə içəri keçir. Qapı yenə çırpılır.

Pulu ovcumda tutub komaya tərəf bir-iki addım atıram. Qulağıma dəyən səs o qədər tanışdır ki…Amma nə dediyini anşırdammıram. İçəri keçmək istəmirəm, sabaha söz verib Etibar kişi, nədirsə, bu sirr belə üstübağlı qalmayacaq. Əyilib sol əlimə bir az qar götürüb ovxalayıram. Uşaqlıqdan adətimdi, fikirli olanda həmişə ovcumda nəyisə ovxalayıram.

-Gəl, səni yola salım.-Etibar kişi qolumdan tutub üzü maşına tərəf dartınır.

Yan-yana maşına çatırıq, əlimdəki pulu uzadıram, sakitcə götürüb pambıqlısının yan cibinə dürtüşdürür. Baxışlarını uzaqlara dikib, gözlərini də qıyıb. Deməli, nəsə fikirləşir. Özü də bu nəsə elə-belə şey deyil ha, uğrunda bütün fikirlərini köhlən edib çapmağa dəyər. Söhbətə cığırı mən salıram:

-Neçə kilometr qalıb?

-Nə? Nə kilometri?

-Heç… Gördüm gözlərin yol çəkir, dedim yəqin, rayon mərkəzinə yaxınlaşarsan.

-Oxşama oxşamışına… Sonra deyərlər, Etibar kimi dili itidi.

-Səndən də nəsə öyrənməliyəm ya yox?

-Gör nə deyirəm. Axşam hava qaralanda yavaşca bu qara maşını üzüaşağı yellə, sənə sözüm olacaq.

-Gecəmi?

-Hə…

-Gecənin şəri çox olur, kişi!

-Bəni-adəmin xeyir əməli üçün gecəylə gündüzün fərqi yoxdur, Çəmənli balası. Bunu da yaz öyrəndiklərinin yanına. Di cəld ol, atıl maşına, düz öyünün altına get, qayğanağını ye. Axşama gözləyirəm, biləsən.

-Qayğanaq sənin boynunadı, axşam olsun, sabah olsun, fərq eləməz.

-Di yaxşı, yumurtasız evin yiyəsi, axşama.

Dincəldinmi?

Gülə-gülə maşına əyləşirəm. Bir də kəndin girəcəyində Xanoğlan müəllimi görəndə dayanıram:

-Günortan xeyir, müəllim!

-Bu vaxtın xeyir!

-Hara belə?

-Heç… Ürəyim darıxdı, elə bu qarın üstündə bir-iki iz salım dedim.

-Atıl, aparım qapıya.

-Gəzə-gəzə qayıdaram, başına dönüm. Eynim açılar bir az da. Bu qarı da, kəraminə qurban olduğum, hər il eyni ölçüylə paylamır bəşərə.

Təzədən maşını işə salıram. Bilirəm ki, Xanoğlan müəllimi də kəndin çıxacağına qədər çəkib gətirən fikrin, düşüncənin içində Şahinin adı var.

* * *

…Səhərin alatoranında enməyə başladığım dolaylar axşamın qaranlığına könül verəndə bir ayrı aləm olurmuş… Gör ha, neçə ildi səhər enib, günorta qalxıram bu yamacı. Heç gör, bir dəfə də olsun ağlıma gəlibmi ki, axşamın halı nətəhərdi? Adətkərdə olmaq da bir dərddi insana, pərakəndə olmaq da…

Maşını saxlayıb həyəcanla komaya tərəf addımlayıram. Axşamın qaranlığı qatılaşdıqca koma da fərqli dəyir gözümə, elə bil, hansısa qış nağılının düz ortasındayam, hansısa qara meşənin dərinliyində bir nurani qocanın hikmət dolu komasının astanasındayam…

-Gəldin, Rüstəm?

Etibar kişi elə həlim səslə məni çağırır ki, özüm məəttəl qalıram. Həm də fərqinə varıram ki, ilk dəfədi adımı onun dilindən eşidirəm. Cavab vermədən içəri keçirəm və qarşımda dayanan adamın kimliyini dərk etməyim bir neçə an çəkir. Bircə kəlmə söz "ah" kimi qopur sinəmdən:

-Şahin!

Qollarımı açıb qucaqlayıram. O da qollarını açır, amma kürəyimə bircə əl dəyir… Gözümü hərləyəndə görürəm ki, Şahinin sol qolunun dirsəkdən aşağısı yoxdur. Bu dəfə onu daha bərkdən qucaqladım, bağrıma basıb hönkürdüm. Nə qədər keçdi bilmirəm, Etibar kişinin hökmlü səsi qəhərimin üstünə səpildi:

-Toxtayın görüm. Yekə-yekə kişilərdi, hönkürtülərinə bax.

Şahinin gözlərinə baxdım, qıpqırmızı idi, anladım ki, ağlamaqdandı… Kim bilir, nə vaxtdan, nəyə ağlayır bu igid? Bir anlıq beynimdən keçirdim ki, söhbətin məcrasını dəyişməsəm, yenə qəhərimə yeniləcəyəm. Üzümü Etibar kişiyə tutdum:

-Səhər tezdən deyəydin, indiyə bir yerdə ağlayıb qurtarmışdıq.

-Mən ha? Mənim gözümdən yaş da çıxmayıb. Şuşanı azad eləyən igidin qabağında ağlamaq olmaz! O, mənim oğlumu azad eliyib e! Oğlumu… Şuşamı… Mən ancaq gedib orda ağalayaram, o da ta sənin kimi boynumu bükə-bükə yox, belə başımı dik tutub ağlayaram.

Etibar kişi çənəsini yuxarı qaldırıb qollarını yana açdı. Onun bu şax duruşu da məni gülümsətdi. Şahinin çiynindən tutub taxta kətilin birini göstərdim. Oturdu, mən də bir kətil götürüb qənşərində yerimi rahatladım. Nə soruşacağımı, nə deyəcəyimi beynimdə götür-qoy eləyirdim. Etibar kişi də bir əlli soğan soyur, bir əlli də balaca küpədən yağ çıxarıb tavaya salır, hərdən də masaya boşqab-çəngəl daşıyırdı. Özümü toparlayıb Şahinə nəsə deməliydim, bilirdim, amma nə? Bax, ən çətini deyiləsi o sözü tapmaq idi…

-Bilirəm, Rüstəm. İndi düşünürsən ki, niyə burdayam. Niyə kəndə, evimizə getmirəm… -Şahin asta-asta söhbətə başladı, deyəsən, mənim söz əlində naçar qaldığımı duymuşdu: – Axı, kəndə necə gedim?! Yadında bizi hərbi komissarlığa apardığın gün? Bir öncəki axşam hamımız Füzuligilə yığışmışdıq. Mətanət nənə bir-bir hamımız üçün dua oxudu, sonra da üzünü mənə tutub dedi: "Ay Şahin, canım sənə qurban, Füzuli bir az cansızdır, özün bilirsən. Elə uşaqlıqdan yel əsəndə əyilib qovaq şüvülü kimi. Ürəkdi, durmur, döyüşə getməliyəm dedi, dincəlmədi, day bizə də uğurlamaq qalır. Nolar, bir-birinizə fikir verin, bu, ayrı, amma Füzulidən muğayat ol, başına dönüm". Hələ Füzulinin balaca, məktəbdə oxuyan bacısı necə ağladı o axşam… Elə ona görə də döyüş bölgəsində Fü-

zuliylə eyni dəstədə vuruşacağımı biləndə çox sevindim. Gözüm üstündə olacaqdı nə də olsa. Amma… Fələyin say hesabı bizimkiylə düz gəlmir, ay Rüstəm… Həmin gün… Füzuliylə yan-yana döyüşürdük. Qəfil hücuma keçmişdik. Başını itirmiş düşmən əsgərləri elə gözlərini yumub havaya atəş açırdılar. Bir də onu gördüm ki, Füzuli məni keçib irəli cumdu. Elə bil, Allah ona məxsusi bir cəsarət əta eləmişdi o anda. Elə yüyürürdü, zənn elədim, əlinə keçən düşməni bir həmlədə əliylə parçalayacaq. Ağzımı açıb "Dayan!" deməyə macal tapmadım, elə bir partlayış səsi eşidildi ki, dünya yerindən oynadı sandım. Yıxıldım. Üstümə tökülən torpağı çırpıb ayağa qalxanda gözüm birinci Füzulini axtardı. Al-qan içindəydi… Nəfəs almırdı…

Şahinin səsi titrədi, başını aşağı saldı. Sonra yeganə əliylə masadakı siqaret qutusunu qabağına çəkdi, bir siqaret çıxarıb ağzına qoydu, başını mənə tərəf uzatdı. Alışqanı götürüb siqaretini yandırdım, ayağa durub ikiaddımlıq komanın içində var-gəl eləməyə cəhd etdim. Etibar kişi əlindəki yumurta qabıqlarını qapının dalındakı paslı vedrəyə atmaq üçün əyilmişdi, başını qaldıranda gördüm ki, yanaqlarında yaş parıldayır, amma dodaqlarını bir-birinə bərk sıxıb. Mən də qəhərimi uddum, özümü toxtadıb qayıdıb yerimdə oturdum. Şahin yarımçıq siqaretini nəlbəkisinə basıb söndürdü, içini çəkdi. Hiss elədim ki, ağlayır… Belə bir anda hansı sözü desəm yaxşı çıxardı, görəsən? Bilmirəm… Əslində, heç ağzımı açası halda da deyiləm, bir hənir eləsəm, yenə hönkürəcəyimdən qorxuram. Susmalıydım… Şahin içindəki o yığın dərdin bir damcı yüngülləşməsi üçün danışmalıydı… Mən də dinləməliydim… Eynən səbir daşı kimi…

-Sağ qaldım mən… Sona qədər döyüşdüm, Şuşaya da qalxdım döyüşə-döyüşə. Amma elə hey Mətanət nənənin səsi qulağımda cingildədi: "Füzulidən muğayat ol…" Qulağımdakı bu güyültüylə Şuşaya qalxırdım… Sonra necə oldu, bilmirəm, bir də gözümü hospitalda açdım. Sən demə, Şuşanın içində qarşıma mərmi düşüb, sol qolumu dirsəkdən aşağı aparıb. Dostlarım dedilər ki, qolumu çox axtarıblar, tapa bilməyiblər. Özü də bunu elə günahkarcasına söyləyirdilər ki… Dedim, eybi yox, nə oğullar canını qoydu torpaq uğrunda, bir qol nədi ki dərdini çəkim?! Əksinə, təsəllim bildim, özüm şəhid olmasam da, qolum şəhid oldu. Sonra da Teymurun, Anarın şəhid olduğu xəbərini eşitdim hospitalda. Ürəyim gəlmədi kənddə kiməsə zəng edib "mən sağam" deyəm. Adama deməzlərmi, onlardan nəyin artıqdır ki, sağ qayıtdın? Utandım… Teymurun ailəsi, Anarın ailəsi gəldi gözümün qabağına, necə çıxım onların üzünə? Deyim, baxın, mən sağ qayıtmışam?! Hələ Mətanət nənə… Gələmmirdim, Rüstəm, neçə vaxtdı, yolu əlimə alıb Çəmənliyə tərəf gələmmirdim. İki gün qabaq yuxuma gəldi Füzuli, "nənəm səni gözləyir"-dedi. Birtəhər buracan gəldim, burdan yuxarı qalxammadım… İndi bilmirəm, hər şəhid ailəsinə dərdmi olacağam, yoxsa təsəllimi? Qalmışam naçar…

-Şəxsən mənim üçün indiyə qədər tapa bilmədiyim təsəllim, ürək rahatlığımsan, bala!- Etibar kişi ötkəm səslə bunu deyib qayğanaq çəkdiyi boşqabları masaya düzdü:- Di başlayın, bir-iki qismət alın, sonra da yol başlayaq! Bilirəm, indi hamı-bütün Çəmənli səni gözləyir, bala. Hamısının boyunu görmək istədiyi gedəni sənsən. Sən də ki… Yolun gedər-gəlməz ha deyildi, Şuşayaydı, getdin də, gəldin də! Mənə də cığır açdın, oğlumu azad elədin! Bu gecə qara maşın üzüyuxarıdı, amma hava açılan kimi üzü Şuşaya gedəcəyik… Di tez olun, soyutmayın görüm. Ya Allahın adı…

Yanağımdan axan yaşları silməyə belə cəhd eləmədən təndir çörəyini əlimlə tikələdim, hər tikəni bir loxmalıq eləyib Şahinin boşqabının kənarına düzdüm, bundan sora ömrü boyu çörəyini loxmalamağa bir köməkçiyə ehtiyacı olacaqdı, tək qolla ona çətin olacaq…

…O axşam qara maşında Çəmənliyə iki nəfər girdi: mən və Şahin… Amma maşını birinci Mətanət nənənin qapısında saxladım…



## ASİF ŞAHİNOĞLU

### ŞƏHİD ANASI

Üzüntü, qəm-kədər çökdü ölkəyə,
Ananın çiyninə böyük yük gəldi.
Bayrağa bükülmüş oğul tabutu
Və üç-dörd cüt əşyası gələ bildi.

Ana oğlu üçün fəryad qoparır,
Qol açıb oynayır toy havasında.
- Bu nədi ağ kəfən geyib gəlmisən?!
Səni gözləyirdim bəy libasında!

- Şəhidlər ölmürlər, ay əziz anam,
Əbədi dünyanın insanlarıdı.
Dərdin çəkilməzdi, bilirəm, ana,
Təsəllin keçmişin xoş anlarıdı.

Ananın gözündə yaş quruyarmı?!
Döyünən qəlbiydi axı övladı.
Qapıdan asdığı nişan lentini
Məzarı üstündə daşa bağladı.

Bu yükü üstünə götürən qadın
Dözmədi əzaba, qəddi büküldü.
Cavan bir ananın qara saçına
Fikirdən, həsrətdən ağlar töküldü.

Qəbrinin üstünə hərdən baş çəkər,
Məzardan soruşar: Axı nə edim?
Torpaq da soyuqdu oğluma qarşı,
Bu halda evimə mən necə gedim?!

- Ana, mənə görə narahat olma,
Allahım cənnəti bəxş edib mənə.
İndi Rəbbimdən bircə istəyim var:
Olduğum məkanda qovuşum sənə.

### SEVGİSİZ ŞƏHƏR

Həqiqi sevgilər qalıb, görəsən,
Tənhalar yaşayan qoca şəhərdə?
Bəlkə kor olmuşam, görə bilmirəm
Gizli sevgiləri uca şəhərdə?

Əgər olsaydı, mən də hiss edərdim,
Şairin hissləri çox dərin olur.
Əfsuslar olsun ki, o dərin hisslər
Bilmədən daşlaşmış qəlblərə dolur.

Yox! Daha əminəm, sevgi qalmayıb,
Bələdəm Qubanın hər döngəsinə.
Ən gözəl şeirində yer alan qadın
Zamanla yar olur bir özgəsinə.

Birinin qəlbinə yar olan gözəl,
Birinin qəlbinə yarə bağlayır.
Sevməyi Qubada öyrəndim deyə,
Məsum baxışları ürək dağlayır.

Quba sevgililər şəhəri deyil,
Sadəcə bu yerdə sevənlər qalır.
Küçəsin, məhləsin gəzən cananın
Yerişi ayrılıq izlərin salır.

Dedilər – Namə yaz Qubadan, şair,
Asif dastan yazar sevən qovuşsa.
Nə yazsam, bilirəm dəyişməz heç nə,
Ölmüşdü deyərsiz, məni soruşsa.

**VAXTSIZ QOCALDIM**

Yaş üstünə yaş gəlincə düşündüm,
Həyat məni ucaltdıqca ucaltdı.
Hər saatı yalan imiş zamanın,
Dərd şairi qocaltdıqca qocaltdı.

Beynimdə dövr edir ötən illərim,
Dərdim-sərim nədi, vallah, bilməzdim.
Əgər bilsəydim ki, əzab çəkəcəm,
Ana qucağından yerə düşməzdim.

İllər ötüşdükcə böyüdüm artıq,
Baxırsan, heç bir şey əvvəlki deyil.
O qədər ağırdı dünyanın yükü,
Adam yaşamaq istəmir elə bil.

Dünyadan usanmış yorğun şairin
Yazdığı misralar təsəllisidir.
Həyatda şairin ən bəxtəvəri
Ölməmiş ölümdən yazan kəsidir.

Cavabsız suallar yatır beynimdə,
Ölümdən yazmağa hələ zaman var.
Qəlbim durmadıqca susmaz qələmim,
Orda məskən salıb həsrət, intizar.

Vəsiyyət edirəm... Bir gün öləndə
Başdaşım üstündə belə yazarsız:
Həyata keçməyən mərhum arzumun
Qəbrinin yanında qəbir qazarsız.

**ANA FƏRYADI**

- Min bir əziyyətlə oğul böyütdüm,
Vaxtsız fələk məndən balamı aldı.
Hələm geyilməmiş bəylik forması
Evdə çarpayının üstündə qaldı.

İnanın, təsəllim o formasıdı,
Balamın qoxusun ondan alıram.
Geri dönüşünün xəyalın qurub
Hər gün köynəyinə ütü salıram.

Yox ölməyib, oğlum sağdı, şəhiddi,
Onun ruhuyla hər gün danışıram.
Yuxularda görüşürəm deyə mən
Gecə-gündüz yatmağa çalışıram.

Deyirdim – Qayıtsın, toyunu edim,
Tabuta çevrildi ana duası.
Elə bil bir nəfər məni çağırdı:
Gəlsin xələt versin bəyin anası.

Kaş ki mən öləydim sənin yerinə,
Allah öz ömrümü sənə verəydi.
Olmazdı ayağı, olmazdı qolu,
O da hamı kimi diri gələydi.

Onu Allah verdi, Allah da aldı,
Haqqın dərgahında gözəldi yeri.
Əlimdən nə gəlir, necə gəl deyim?
Artıq nə etsəm də, qayıtmaz geri.

**YAŞAYAN ÖLÜYƏM**

Yaşayan insanlar hər gün ölərmiş,
Cismiylə sağlamdı, ruhu məhv olub.
Həsrət də bezibdir artıq əlimdən,
Onun da səbrinin kasası dolub.

Gəl hərdən nəzər sal mənim halıma,
Gör ki, sevgin məni nə günə salıb.
Gəzdiyin o yola hər gün baxıram,
Bir zaman gəzirdin, indi boş qalıb.

Səni soruşmağa bəhanə gəzir,
O yol da darıxıb səndən ötəri.
Danışa bilsəydi, belə deyərdi:
Hanı sevdiyinin ayaq izləri?

Cavab tapanmıram söyləyim, deyim,
Məndə sənin kimi çox nigaranam.
Suallar verib duz basma yarama,
Onsuz da dərindən dərindi yaram.

Qoca bir çinar var yolun üstündə,
Görüb halımı söz deyir sevgidən.
Söyləyir – Üzülmə, kədərli şair,
Nə vaxtsa qayıdar bu yolu gedən.

Bu yollar, bu daşlar, hətta ağaclar
Şahiddi, inanır nakam sevgimə.
Eşqimi hiss etmirsə qəlbin sənin,
Ürəyin daşdandı, məndən incimə.



**ŞAHNAZ ŞAHİN**
Azərbaycan Yazıçılar Birliyinin üzvü

# ZÖHRAB MEHDİNİN SÖZ DÜNYASI

Söz İlahi tərəfindən insana əta edilən nemətdir. Özündə Tanrının gücü olduğundandır ki, söz geniş təsir imkanlarına malikdir. Sözün ilahi qüdrətini bilmədən ona yaxın düşmək olmaz. Qızıl naşı əldə necə görünürsə, sözün də naşı dilində taleyi eynidir. Söz xammaldır, yaxşı usta onu yonub, cilalayıb ortaya sənət əsəri qoyursa söz də xoşbəxt olur, onun ustası da...

Zöhrab Mehdinin çapa hazırladığı şeirlər kitabı onun oxucusuna ikinci töhfəsidir. Kitabın elektron versiyası qarşımdadır. Bu kitabda cəmləşən şeirlər mövzü etibarilə müxtəlif, onun həlli baxımından da əsasən uğurludur.

Vətən, torpaq, Qarabağ ağrısı Zöhrabın da daxilindən bir fırtına kimi keçir. "Şəhid köynəyi" şeirində canı ilə vətənə canverən şəhidləri uca, əl çatmaz bir zirvə hesab edir:

**...O, bir talismandı... yada göz dağı,**
**Keçirdin altından bu gün vətəni...**

Sevgi, həsrət, ayrılığı özünəməxsus tərənnüm edir Zöhrab Mehdi. "Sənsizlik" şeirində saf su kimi ömrünə axıb dolan sevgisiylə durulanan aşiq sonda ayrılığı da, bu acını ona yaşadan sevgilisini də lənətləyir...

Olduğu yerdə görünməkdənsə, özü olmadığı zaman görünməyi, yada salınmağı daha üstün hesab edir. Şair ömrü yaşamaq bir ömrə həm də ağac, çiçək, böcək və s. ömrü də sığışdırmaqdır. Kainatın dərdi, dünyanın var olması, bizi əhatə edən aləmdə yaşayan bütün digər canlıların həyatı üçün məsuliyyət hissi var şairin, bu üzdən də:

**Nəyim var; bircə candır,**
**Tanrım, bu canımı da yandır,**
**Zülmətlərə şam elə sən...**

– deyir.

Payız fəsillərin ən kövrəyidir, adamların getdikcə payızlaşması isə şairi kədərləndirir. Zaman kimi üşütməyib ki... Ötən vaxtın arxasınca kim nəfəsi qarala-qarala qaçmayıb ki...




Zöhrab da elə! Amma o, sabahı daha gözəl düşünür, pessimizmə qapılmır. Bir an kimi gəlib keçən ömrün incə, kövrək yerindən keçir Zöhrab Mehdi. Onun qəfildən sınıb qırılmasından narahatdır...

İnsan ömrü boyu özünü yaratmağa çalışır, buna nail olanlar da var, olmayanlar da. Zöhrab da öz şair ömrünü şəxsiyyətiylə eyniləşdirməyə çalışır və deyəsən nail olur da. Yoxsa, "Səni özünə çevirdim..." deyə bilməzdi...

Bu həyatda hər şey keçicidir, bütün göy cisimləri, yer, külli-aləmdə nə varsa hər şey... Zöhrab isə bu keçiciliyin sonunda hər şeyin "eyni bətndən keçməsi"ni əminliklə pıçıldayır qulağımıza...

Sentimentallıq, duyğusallıq şairi tərk etmir. Həyat, yaşamaq həmişə şirindir, amma hansısa zaman aralığında bunu daha dərindən duyub anlayır insan. Belə vaxtlarda həyata daha möhkəm bağlanır şair. Keçib gəldiyi yolları bir də təhlil edir, özü özünə hesabat verir, etdiyi səhvlərindən öyrənir, doğrularıyla qəlbi rahatlıq tapır.

**...Heçdən gəldim, heçə keçdim,**
**Neçə döngə, küçə keçdim.**
**Nə vaxt, hardan, necə keçdim,**
**Qayıdıb başdan baxaram...**

Mən də Zöhraba yaradıcılıq uğurları arzulayıram və onu da, oxucularını da təbrik edirəm.



# FÜZULİ ABDULLAYEV

## KEÇƏN GÜNLƏR

**Kürdəmirin Carlı kəndinə ithafən...**

Əziz dostum, səfər eylə bu kəndə,
Gəl gedib seyr edək bizim yerləri.
Gəzək addım-addım hər qarış yerin,
Dalaq xəyalına keçən günlərin.

Gəl bir bardaş quraq yaşıl çəməndə,
Gəlsin dilə telli sazda sinəmdə.
Açaq söz boxçasın, söz süfrəsində
Dalaq xəyalına keçən günlərin.

Gör nə gözəl yaradıbdı Yaradan,
Bu kəndi unutma san də heç zaman.
Udaq havasından, içək suyundan,
Dalaq xəyalına keçən günlərin.

## ACI XƏBƏR

**mərhum Cəlil Əliyevə ithafən...**

Səhər tezdən sökülməmiş dan yeri,
Bir acı xəbərlə açdım səhəri.
Dedilər – Bir cavan köçüb həyatdan,
Əbədi getdi o bu kainatdan.

Qaldı ürəyində neçə arzular,
Açılmamış bağçasında lalalar.
Gənclik illərində həyatı bitdi,
Yumub gözlərini məzara getdi.

Nə edim? Əlimdən gəlməyir heç nə,
Allahdan min rəhmət diləyim sənə.
Sənintək insanın qiyməti qaldı,
Sonsuz bir hörməti, izzəti qaldı.

## MÖCÜZƏVİ SƏHƏR

Açılaydı bir al səhər,
Yox olaydı qüssə, kədər.
Qərq olaydı cahan nura,
Kaş sevinəydi körpələr.

Ürəklərdə min arzular,
Əl çatmayan o xəyallar -
Nə olaydı, bir gün səhər
Gerçək ola bütün bunlar.

Daim üzlər gülər qala,
Göz yaşını sevinc ala.
Kaş həmişə həyatımız
Başdan-başa şadlıq ola.

## SEVGİ YOLU

Sevgi çətindi, qurumur göz yaşım,
Bu yolda bəlalar çox çəkib başım.
Olsa da əvvəli yanar od kimi,
Sonunda bir ovuc küldü, qardaşım.

Neçə cavanları çöllərə saldı,
Məcnunu Leylisiz dillərə saldı.
Eşq adlı ovsun ürəklər qocaltdı,
Sonunda ağ dəni tellərə saldı.

De görüm – Sevgidə kimlər qazandı,
Kim yolu tam getdi, kim tez dayandı?
Bu dediklərimi unutma, qardaş,
Sevən üraklərdə dərdlər qalandı.



# GÜLSƏNƏM MAQSUDOVNA

Yaxın keçmişdə Əli Kərim adına Sumqayıt şəhər Poeziya Evində Özbəkistanın bir qrup ədəbiyyat adamları ilə iki ölkə arasındakı ədəbi əlaqələrə əsaslanan görüş keçirilmişdi. Görüşdə filologiya üzrə fəlsəfə doktoru Gülsənəm Maxsutovnanın ölkə başçısı Şavkat Mirziyoyevin xalqa müraciətindən təsirlənərək qələmə aldığı şeir dinləyicilər tərəfindən müsbət qarşılanmışdı. Həmin şeir də daxil olmaqla, özbək şairin əlavə şeirlərini də Azərbaycan türkcəsində "Xəzan"ın oxucularına təqdim edirik...

## VƏTƏN ƏZİZDİ

Ölkə rəhbərimiz cəsarət ilə
Xalqını səslədi nurlu sabaha.
Dedi – Xoş əməllə, şücaət ilə
Yeni Özbəkistan qurulur daha.

Qürurlu, fədakar, xeyirxah olun,
İnsanlar sizlərdən qoy olsun razı.
Vətənə sədaqət eşqiylə dolun,
Gözündə qalmasın yurdun murazı!

Bu səsdən titrədi qəlbim elə bil,
Dilimə söz gəldi, əlimə qələm.
"İnsana məhəbbət, yetərli təhsil" -
Bunu mən hər şeydən vacib bilirəm.

Gənclərlə yüksələr xalqın dastanı,
Ədəbli-ərkanlı olanlar anlar.
Bəxtinə gün doğar Özbəkistanın,
Bizim sabahımız onlardı, onlar.

Qadına hörmət var, bəllidi yeri,
Qurub yaratmaqdı onun xəyalı.
Yaşlı qocaların dilləri şirin,
Əli şəfalıdı, ağzı dualı.

İnsanlar yaşaya xoşbəxt, mehriban,
Kaş ki arzuları murada yetə.
Cənnətə oxşaya yurdum hər zaman,
Canımdan əzizdi, ömrümdən ötə.

"Vətənmi əzizdi, ömürmü əziz?"
Sorsalar, durmadan deyərəm həmən:
Ömür ötəridi, bir qonağıq biz,
Əzəli-əbədi Vətəndi, Vətən!

## GECƏ GÖZƏLLİYİ

Gecə zülmət deyib xoşlamaz adam,
Can atdım ondakı hikməti biləm.
Hüzurdan, dinclikdən güc alıb müdam,
Sabahkı həyata başlayar aləm.

Ulduzlar sayrışar göz eyləyərək,
Kefli çəyirtkələr cırıldamaqda.
Otların ətrini yaydıqca külək,
Çiçəklər məst olub kefdə, damaqda.

Bir dəli duyğuyla göyə baxıram,
Ay-ulduz nurundan qamaşır gözüm.
Sanki buludlarla qoşa axıram,
Göy günbəz altında süzürəm özüm.

Nəğmətək çay axıb gedər yanımdan,
Sular şırıl-şırıl, meh aram-aram.
Gözə yuxu getməz həyacanımdan,
Gecə gözəlliyi etmiş məni ram.

Gecə zülmət deyib xoşlamaz adam,
Can atdım ondakı hikməti biləm.
Hüzurdan, dinclikdən güc alıb müdam,
Sabahkı həyata başlayar aləm.

**Çevirən: Nadir AZAYOĞLU**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair**



## HƏSRƏT BAYRAMOĞLU

**BAXIŞ O BAXIŞ DEYİL**

Sən gələndə unutdum
Zaman alan illəri.
Ömür vəfa etməyib,
Qara dönüb telləri.
Heç özüm də bilmirəm
Necə sevmişəm ki, mən?
İndi mən o deyiləm,
Səni dəlitək sevən...
İndi fərqi yoxdu ki,
Unutmuşam, əzizim.
Sevda çiçəklərini
Qurutmuşam, əzizim.
İndi özgə könüldə
Yol açmısan, bilirəm.
Satıldığın qəlblərə
Yaraşmısan, bilirəm.
Daha unut illəri,
Fayda verməz bir daha.
Əl açıb gecə-gündüz
Yalvaraq ki, Allaha:
"Bu dünyada üz-üzə
gətirməsin o bizi".
Çünki üzlər dəyişib,
Naxış o naxış deyil.
Sevən gözlər dəyişib,
Baxış o baxış deyil!

**AYIRIB ƏLLƏRİMİZİ**

Sən gələndə gec oldu,
Daha o adam deyildim.
Mən şah kimi sevərkən
Nökər eşqə əyildim...
Gedirsənsə, get, gülüm,
Gözün yolda qalmasın.
Sənə bir diləyim var:
Heç bir zaman sevmə ki,
Tanrı səni
Heç mən hala salmasın.
Zaman çox dəyişdirib
Səni, məni, həm bizi.
Bizi bir yazan Allah
Ayırıb əllərimizi...

**BİLƏNLƏR KİMİ**

Günahım nə idi? Bilmirəm hələ,
Cavab ver səbəbin bilənlər kimi.
Saxta gülüşləri öyrətdin mənə
Ağlaya-ağlaya gülənlər kimi.

Ayrılıq nə çətin olurmuş belə,
Xəyalın canlanır gözümdə hələ.
Yaşayır deməzlər ayrı kəslərə
Yaşaya-yaşaya ölənlər kimi.

Soruşub, sorğuya çəkmə sevgimi,
Qara torpaqlara əkmə sevgimi.
Nə olar, ey rəssam, çəkmə sevgimi
Məcnuntək, Kərəmtək sevənlər kimi.

**QARŞILAŞARIQ**

Düşüb izlərinə gəlirəm indi,
Qəlbimdə axtardım, qalmayıb izi.
Yol alıb getmisən, yol da sənindi,
Bizdən soruşmadı ayıran bizi.

Qəlbim istəmədən sənə yox dedi,
Özgə könüllərdə bəlkə biz varıq.
Nakam sevgilərdə birinci idik,
Ayrı ürəklərdə qarşılaşarıq.



**SƏKİNƏ NAĞIZADƏ**
Filoloq

# AŞIQ MURAD ÇOBANOĞLU VƏ TÜRK DASTANÇILIQ ƏNƏNƏSİ

XX əsr Doğu Anadolu mühitinin yetişdirdiyi saz-söz sənətinin görkəmli simalarından biri də Aşıq Murad Çobanoğludur. Doğu Anadolunun Qars vilayətində doğulub-boya başa çatan Aşıq Murad Çobanoğlu yalnız Anadoluda deyil, bütün türk dünyasında tanınan bir el sənətkarıdır.

Aşıq Murad Çobanoğlunun zəngin və çoxşaxəli yaradıclığının mühüm istiqamətlərindən birini onun dastanları təşkil edir. Onun fərdi yaradıcılıq məhsulu olan "Nəcib və Telli", "Cünun və Dərdli Sultan", "Əhməd ilə Mehmet", "Həmid Xan və Mələk Sultan" kimi dastanları vardır. Bu dastanlar içərisində "Nəcib və Telli" dastanı öz xüsusiyyətlərinə görə digərlərindən fərqlənir. Məzmun və ideya baxımından olduqca maraqlı olan bu dastanda vətənpərvərlik, birlik, məhəbbət, dost xəyanəti və s. kimi motivlər süjet xəttinin əsasını təşkil edir.

Ümumiyyətlə, dastanda Nəcib ilə Tellinin saf məhəbbəti, bir-birlərinə qovuşması, Nəcibin vətəni qorumaq üçün hərbi xidmətə getməsi və bu zaman kəsiyində başlarına gələn müsibətlər, Qara bəyin xəyanəti, Nəcibin ölümü və s. maraqlı epizodlarda təsvir olunmuşdur. Bundan əlavə dastandakı Ağa Dədə, Qara Bəy, Sırma və Həmid paşa "obrazlarının dili ilə təqdim olunan poetik fikirlər dastanın mahiyyətinin aydınlaşdırılmasına, məzmunun aydın təqdim edilməsinə səbəb olan amillər kimi dəyərləndirilməlidir".

"Nəcib və Telli" dastanı türk dastançılıq ənənəsi ilə sıx bağlıdır. "Koroğlu" dastanı ilə "Nəcib və Telli" dastanında "qardaşlıq" ideyası oxşar motiv kimi diqqəti cəlb edir. "Koroğlu" dastanının Azərbaycan variantının "Mahru xanımın Çənlibelə gəlməyi" qolunda Giziroğlu Mustafa bəyin Koroğlu ilə Hasan paşanın qırx min əsgərini Toqat keçidində qanına qəltan etməsindən, Giziroğlunun sonra Gizir qalasına qayıtmasından və yeddi yüz yetmiş yeddi dəlisini də götürüb Çənlibelə gəlməsindən, onların şərəfinə Çənlibeldə qırx gün məclis qurulmasından, Koroğlu ilə Giziroğlu Mustafa bəyin şəhadət barmağını kəsib qanını bir-birinə sıxıb qan qardaşı, dost olmasından" bəhs edilir. "Mahru xanımın Çənlibelə gəlməyi" qolunda oxuyuruq: "Hey dəlilərim! Biz yeddi min yeddi yüz yetmiş yeddi dəli idik. İndi Giziroğlu Mustafa bəyin 777 dəlisi də oldu bizim canbir qardaşımız, - deyib bayaqdan Misri qılıncı çıxardı qınından.

Giziroğlu Mustafda bəy də bir himə bənd imiş kimi Giziri qılıncı çıxardı qınından. Hər ikisi şəhadət barmağını yaralayıb qanını sıxdılar bir-birinə".

Eyni motivlə biz "Nəcib və Telli" dastanında da rastlaşırıq. Belə ki, Nəcib ilə Qara Bəy bir qəhvəcidə görüşüb tanış olduqdan sonra baş barmaqlarını kəsərək qan qardaşı olduqları – ikisindən birinin başı dara düşəndə bir-birlərini köməyə çağırmaları, "kim kimi çağırmasa onun əli onun yaxası" olması barədə əhd-peyman bağlayırlar: "Barmaqlarını kəsib qan qardaşı olurlar. Qanlarını içib qan qardaşı olurlar". Bu epizodlar bir-biri ilə oxşar səciyyə daşısa da, fərli xüsusiyyətlərə də malikdir. "Mahru xanımın Çənlibelə gəlməyi" qolunda Giziroğlu Mustafa bəylə Koroğlunun qardaşlığı nə qədər sarsılmazdırsa, ikinci dastanda bu qardaşlıq xəyanət və düşmənçiliyin qurbanı olur və dastan faciəvi sonluqla yekunlaşır.

Aşıq Murad Çobanoğlu dastanları ilə "Koroğlu" dastanı arasındakı oxşarlıq təkcə bununla bitmir. Aşığın düzüb-qoşduğu "Cünun və Dərdli Sultan" dastanı orijinal məzmunu, yüksək sənətkarlığı etibarı ilə "Koroğlu"nun müstəqil bir qolunu xatırladır, desək yanılmarıq. Dastanda Koroğludan, onun qəhrəmanlığından, yardıma ehtiyacı olanlara göstərdiyi köməkdən, Cününa yardım edərək ailəsinə qovuşdurmasından söhbət gedir. Məlumdur ki, "Koroğlu"nun bir qolu "Aşıq Cünun" adlanır. "Cünun və Dərdli Sultan" dastanında Cünun əsas hadisələrin mərkəzində durursa, "Aşıq Cünun" qolunda bu funksiyanı Koroğlu yerinə yetirir. "Aşıq Cünun" qolunda Cünun Koroğlunun çox sevdiyi aşıq kimi eli-obanı gəzərək Koroğlunu olan hadisələrdən və gözü tutduğu igidlərdən xəbərdar edən bir obraz kimi təqdim edilir. "Cünun və Dərdli Sultan" dastanında da Cünun bir el sənətkarı kimi Koroğlunu valeh edir. "Cünun və Dərdli Sultan" dastanı "Həmzənin Qıratı aparması" qolu ilə də müəyyən oxşarlıqlara malikdir ki, bu da maraqlı məqamlardandır. Hər iki dastanda Koroğlunun aldadılması, əsir düşməsi, əsirlikdən dəliləri sayəsində xilas olması buna misal ola bilər. Lakin bu cür oxşar və fərqli məqamların olmasına baxmayaraq Aşıq Murad Çobanoğlu yaratdığı "Cünun və Dərdli Sultan" dastanında əsil bir Koroğluşünas kimi çıxış edərək eposun dərin qatlarına enməyi bacarır. Dastanda rast gəldiyimiz Eyvaz (Ayvaz), Dəmirçioğlu, Ərəb Reyhan və s. kimi obrazlar diqqət çəkir. Bundan əlavə dastanda Koroğlunun dəliləri "Əsabalı, Timurlenk, Xəndək Atlamaz, Loxma Sığmaz, Qəbrə Sığmaz, Allahdanqorxmaz, Quldanutanmaz, Kəndinibilməz" kimi təqdim olunur. "Cünun və Dərdli Sultan" dastanında Koroğlunun əsl adı Ruşan Ali kimi təqdim olunur:

**Ruşan Ali bax əsərə,**
**Yazılanlar gəlir sərə,**
**Bir gün sırtını bu yerə,**
**Vurarlar xəbərin olmaz.**

"Koroğlu ilə Dəli Həsən" qolunda Koroğlu özünü belə təqdim edir:

**Adımı soruşsan, bil, Rövşən olu,**
**Atadan, babadan cinsim Koroğlu;**
**Mənəm bu yerlərdə bir dəli, dolu,**
**Gündoğandan ta günbatan mənimdi.**

Ümumiyyətlə, "Cünun və Dərdli Sultan" dastanında yeni bir Koroğlu obrazı ilə qarşılaşırıq. Aşıq Murad Çobanoğlu Koroğlu obrazını yeni bədii çalarlarla zənginləşdirmişdir. "Cünun və Dərdli Sultan" dastanında Korğlunun dərviş qiyafəsində eli-obanı gəzərək gələcəkdən xəbər verməsi, evli olan igidləri dəlilərin sırasına qəbul etməməsi və s. buna misal ola bilər. Dastanın bir yerində oxuyuruq: "Koroğlunu üç işarəti vardı: Qəhvəni qozla içər, qəhvədən sonra qəlyanını çıxardar tütününü çəkər, üçüncüsü isə, düşməni duranda, onun yerinə oturardı".

Bütün bu oxşar və fərli cəhətlər onu göstərir ki, Aşıq Murad Çobanoğlu qədim türk dastanlarına, eləcə də Azərbaycanda geniş yayılan das-

tanlara yaxından bələd olmuşdur. Dediklərimizi əyani şəkildə sübüt etmək üçün müəyyən məqamlara diqqət yetirməyi məqsədəuyğun sayırıq. Belə məqamlardan biri də aşığın simvolik adlardan istifadə etməsidir. Məlumdur ki, həm türk, həm də Azərbaycan aşıq yaradıcılığında “qara” məfhumu mənfi obrazların xarakterlərinin açılmasına xidmət edir. Qara Vəzir (“Alı xan”, “Abbas və Gülgəz”, “Qurbani”, “Tahir-Zöhrə”), Qara Keşiş (“Əsli və Kərəm”), Qara Paşa, Qara Pəhləvan (“Koroğlu”) və s. kimi obrazlar mənfi və qara qüvvələri təmsil edirlər. Kökü mifologiyaya dayanan bu rəmzi-simvolik məna demək olar ki, dastanlarda hadisələrin gedişatı üçün açar rolunu oynayır. Aşıq Murad Çobanoğlu da ənənəyə sadiq qalaraq Qara bəy obrazı yaratmaqla gələcək hadisələr  üçün zəmin yaradır. Adlarını yuxarıda qeyd etdiyimiz digər obrazlar kimi Qara Bəy obrazı da haqq-sayı itirən, şəri təmsil edən bir obrazdır. “Əsli və Kərəm” dastanında Qara keşişin xəyanəti, əhdinə xilaf çıxması nəticəsində sevgililərin faciəvi sonluğunun şahidi oluruqsa, eləcə də “Nəcib və Telli” dastanında Qara Bəyin namərdliyi nəticəsində eyni sonluğu müşahidə edirik. Belə ki, “Nəcib və Telli” dastanında Nəcib Qara Bəyə güvənir, hərbi xidmətə gedəndə öz ailəsini, canından çox sevdiyi Tellini Qara Bəyə əmanət edir. Qara Bəy isə əhdinə dönük çıxır, dostunun sevgilisi Telliyə göz dikir, onu zorla evinə gətirir. Dostunun xəyanətini bilən Nəcib bu dərdə dözə bilmir və ölür. Nəcibin – “yanan cavan”ın ölümü Kərəmin ölümünü xatırladır. Hər iki qəhrəmanın nakam məhəbbəti, dərdə düçar olub ölmələri dərin kədər və təəssüf hissi doğurur. Dastanın sonunda isə Tellinin yanıqlı bir dillə Nəcibin məzarı yanında oxuması insanda “təsirli duyğular oyadır, onu ovutmaq, qəminə şərik çıxmaq istəyənlər dərdin böyüklüyünü sanki bir daha dərk edirlər”:

**Qərib yarım, muradını almadı,**
**Gənc ikən yanan cavana baxın.**
**Qarış-qarış ot bitmiş məzarında,**
**Gənc ikən yanan cavana baxın.**

Nəcibin bacısı Sırma ilə qarşılaşması maraqlı epizodlardandır. Ailəsindən xəbər bilmək üçün öz elinə qayıdan Nəcib çeşmə başında bacısı Sırma ilə qarşılaşır. Bacısını tanıyan Nəcib ondan eli-obası barədə xəbər alır. Lakin qaralar bağlayan Sırma dərddən pərişan olduğu üçün qardaşını tanıya bilmir:

**Bilməm əsgər bilməm, sana nə olmuş?**
**Söylə əsgər qardaşımı gördünmü?**
**Sənində gül bənzin saralmış, solmuş,**
**Söylə əsgər qardaşımı gördünmü?**

Eyni motivə “Kitabi-Dədə Qorqud” dastanının “Baybörənin oğlu Bamsı Beyrək boyu-”nda da rast gəlirik. Məlumdur ki, əsirlikdən qayıdan Beyrək bulaq başında bacısı ilə qarşılaşmış və bacısı onu tanıya bilməmişdi:

**Ay ozan! Qarşıda uca dağları**
**Aşıb gəldikdə, keşdikdə sən**
**Büyrək adlı bir igidə rast gəldinmi?**
**Ay ozan, gördünsə, söylə mənə!**
**Dərdli başım qurban olsun, ozan, sənə!**

Oxşar epizod “Aşıq Qərib” dastanında da mövcuddur. Qəribin öz bacısı ilə qarşılaşması, bacısının qardaşını tanıya bilməməsi eyni səhnəni xatırladır.

Bunları ümumiləşdirərək deyə bilərik ki, Murad Çobanoğlunun “Cünun və Dərdli Sultan”, “Nəcib və Telli” dastanları klassik ənənələr üzərində yaranıb formalaşan gözəl sənət nümunələridir. Qarşılaşdırılan epizodlar, aparılan müqyisələr klassik eposçuluq ənənələrinin zənginliyi Murad Çobanoğlunun dastan yaradıcılığında uğurla mühafizə və əks olunmuşdur.



# MURAD ZİYA

## SEVGİDƏN KÜSDÜM

Mən də arzular, xəyallar qurdum,
Səmada uçan azad bir quşdum.
Sen oldun bir qəddar cəllad -
Puç etdin arzularımı,
Puç etdin xəyallarımı,
Qırdın qanadlarımı,
Qırdın, dünya...
Hərdən gecələr ağladım,
Bəzən səhərə kimi
Göz yaşımı silən olmadı.
Öz həyatımla,
Öz taleyimlə
Barışdım -
Küsdüm özümdən,
Küsdüm həyatdan,
Küsdüm insanlardan...
Tənhalıqla dostlaşdıq,
Doğma oldu mənə tənhalıq -
O oldu məni başa düşən,
O oldu məni anlayan...

## ÖMÜR YOLU

Arzular çox,
Ömür qısa.
Həyat mübarizə -
Çalışırsan,
Vuruşursan...
Həyatda qalmaq üçün,
Yaşamaq üçün
Həyat nərdivanını pillə-pillə qalxirsan.
Zirvəyə çıxmaq üçün
Hərdən yıxılırsan,
Körpə uşaq kimi ağlayırsan...

## MƏLƏK QADIN

Həsrət qalmışam sözünə,
Düşmüşəm eşqin izinə.
Nur saçırsan yer üzünə,
Gözü gözəl olan qadın.

Bu dünyanın mələyisən,
Tər ətirli çiçəyisən.
Aşiqinin gərəyisən,
Gözü gözəl olan qadın

Sevdiyimsən, əzizimsən,
Sən mənim ruh əkizimsən.
Mavi gözlü dənizimsən,
Gözü gözəl olan qadin.

## BAŞQASINI SEVƏ BİLMƏRƏM

Eşqin əmanətdir, ölə bilmərəm,
Könül versələr də, ala bilmərəm.
Sənsiz ağlayaram, gülə bilmərəm,
Səndən başqasını sevə bilmərəm.

Ürəyim sənindir, qorxma, al, götür,
İstərsən sən yaşat, istərsən öldür.
Ən gözəl ölüm də sənli ölümdür,
Səndən başqasını sevə bilmərəm.

Həyatımda sən olmusan, ol yenə,
Varlığın ən gözəl hədiyyə mənə.
Ay mənim gözəlim, aşiqəm sənə,
Səndən başqasını sevə bilmərəm.

### DÜNYANI NECƏ SEVİM?

Necə dünyanı sevim, məgər mənə qalacaq?
Hələ qara mərmərdən başdaşı da olacaq.
İnsan övladı bir gün ölümünü dadacaq,
Torpağın üzü soyuq, qohumlar unudacaq.
Dünya bir pəncərədir, gələn-gedən baxacaq,
Üçü, cümə, yeddisi, qırxı, ili çıxacaq.
Pərvaz edib ruhu da göylərə ucalacaq,
Doğmalar iki-üç gün saçın-başın yolacaq.
Ay ötüb il keçəcək, bir əsr də bitəcək,
Məzar daşı yox olub toza dönüb gedəcək.

### HƏYATA VƏFA YOX

Deyirlər – Nə yaman qocaldın, şair,
Qara saçlarına bəyaz dən düşüb.
Buludlara bənzər dolmusan, şair,
Yağış əvəzində yaş gözdən düşüb.

Ürəyindən sil, at kədəri, qəmi,
Etibarsız dünya ağladıb səni.
Həyata vəfa yox, bir gülsün üzün,
Bir gözəl olmadı qəlbinin təni.

Tənhalıq qəlbimi axtarar, tapar,
Köksümün içində fırtına qopar.
Açılan çiçək də bir zaman solar,
Şair üçün dünya dar məzar olar.

### HARDASAN SƏN?

Yollara baxıram oğrun-oğrun,
Əsir külək, gəlmir ətrin, qoxun.
Xatirələr dolu sağım-solum,
İzinə həsrətəm, hardasan sən?

Sən gedəni mənəm ölmüş şair,
Arzusu qəfəsdə sönmüş şair.
Qəm, kədər evinə dönmüş şair,
Gözünə həsrətəm, hardasan sən?

Vüsal gəlsə, hicran bitər artıq,
Əllərim əlinə dəyər artıq.
Qəmgin olan şair gülər artıq,
Sözünə həsrətəm, hardasan sən?

### SƏN FƏRQLİ QADINSAN

Sən fərqli qadınsan -
Milyon qadın içində
Sən güləndə dünya gülür,
Dünya var gözlərində.
Küləkdə çox sevir
Çiçək saçlarının ətrini.
Hər gün dayanmadan əsir
Ona toxunmaq üçün...
Sən fərqli qadınsan -
Qızıl günəş də boylanır
Buludların arasından
Səhər səni görmək üçün.
Ay da gecələr pəncərənə baxır
Mələk üzünü görmək üçün...
Sən fərqli qadınsan -
Bir şairin şam işığında
Düşünüb xəyal etdiyi,
Şeirində bəhs etdiyi qadınsan.
Bir az acı, bir az şirinsən,
Yaman tez küsürsən, tez inciyirsən.
Könlünü almaq da çətin,
Nazını çəkmək də çətin,
Səni sevmək də çətin...

### ŞEİR QADIN

Dalğalı qarışıq saçların,
Dolğun dodaqların var.
Gözlərin gözəldir,
Hər an parıldayır.
İncə səsin,
Cənnət gülüşün,
Mənalı baxışların
Ruhumu oxşayır...
Yasəmən ətirli şeir qadın,
Ən gözəl yazılmış şeir kimisən -
Sətir-sətir oxuyum səni...
Adın düşsün dildən-dilə,
Adın gəzsin eldən-elə,
Yasəmən ətirli şeir qadın...



**XALƏDDİN SIRAVİ**

# QALAN TƏSƏLLİLƏRDİ...

(esse)

Hər şey keçib gedir: qocalır, ölür və yenidən doğulur.

Bunu mən kənddə yaşayanda bağçamızda əkilən güllərə fikir verməklə hiss edirdim. Hələ o zaman çiçəklərə qayğı göstərdikcə, məyus baxışlarım məni düşündürürdü. İldən-ilə mövsümləri adladıqca, heç bir şeyin daimi qalıcı olmadığını anlayırdım.

Sanki bağçamızdakı qulluq etdiyimiz o solğun çiçəklərin baxışları da cismai əbədiliyin mümkün olmadığını öyrədirdi bizə.

Öləziyən çiçəklərin nə gözəllikləri, nə solğun baxışları həmişəlikdi.

Ömrümüz də elə o bahar çiçəkləri kimidi. Tez açdığı kimi, tez də solur.

İndi yaşlaşmışıq, yalnız yaddaşlarda iz buraxan ötürdüyümüz, gözlə gördüyümüz keçmiş xatirələrdi. Öləziyən o tozlu dar küçələr, kiçik cığırlar yadımdan heç çıxmır.

Müəllimlərimiz bizə deyirdi: “İnsanın doğulduğu yer onun ilk ana vətəni sayılır”.

Kəndimiz füsunkar təbiətə malik idi. Addım-addım hər cığırını tanıyırdım. Hər cığırında izim vardı.

O zamanlar qaynayan insanlar, coşqun həyat tərzi, istiqanlı uşaqlar var idi. Sank hər şey öləziyib, indi hər şey dəyişib. O yol həmən yol, o cığır həmən cığır deyil. İndi şəhərə bənzər asfalt yollar salınıb. Hazırda yaşananlar mənə darıxdırıcı gəlir.

Həyat elə solğun çiçəklər kimi dəyişib.

İnsanlar da dəyişir sanki, qocaldıqca simalar dəyişir. Yeniləri heç tanımaq olmur.

Hərdən kəndə yolum düşəndə istəyirəm o tozlu küçələri, o cığırlı keçidləri addımlayam.

Ancaq indi hər yer asfaltdı. Çox dəyişib kəndimizin küçələri, addımlamağa çəkinirəm, küçələrdən utanıram.

Bütün yaşadıqlarımız gözlərimizn önündən bir yuxu kimi gəldi keçdi.

Dildə deməsək də, o dövrün baxışları üçün darıxırıq.

Kənddən çıxdığım gündən 42 il ötür, az müddət deyil. Görün nə qədər insan simalarında dəyişikliklər mövcud olub.

İstər 40 yaşında, istərsə də 90 yaşındakı insandan soruş, yenə deyəcək: “Heyif keçən günlərdən...”

Keçən günlərin həsrəti, inanıram ki, öz yaşıdlarımın hamısında var.

Hələ də yurd yeri üçün darıxıram, hələ də köhnə insanlar, o köhnə illər, yurd yerində yaşayanlar insanlar üçün darıxıram...

Hələ də hörmət, izzət üçün darıxıram...

Hələ də gedənlər üçün darıxıram...

Hələ də tozlu yollar üçün, geniş küçələr üçün darıxıram...

Nə həmin illər qalıb, nə həmən mən. Qalan təsəllilərdi ancaq!



# MİR ASLAN

## XATIRLAYIN

Hamıya dost deyirdim,
Xatırlayın...
Hamıdan az yeyirdim,
Xatırlayın...

Növbəm gəncə gedirdi,
Zəif məni "didirdi".
Tapdıqlarım itirdi,
Xatırlayın...

Yüksəlişdən qaçırdım,
Pullu işdən qaçırdım.
"Şah gediş"dən qaçırdım,
Xatırlayın...

Nə verib, nə alırdım,
Kələkdən gen qalırdım.
Haqlıya əl çalırdım,
Xatırlayın...

Böhtana, şərə düşdüm,
Əzraillə görüşdüm.
Ləngidim, geri düşdüm,
Xatırlayın...

Arzularım "müf" getdi,
Almadım tərif, getdi.
Deməyin hərif getdi,
Xatırlayın...

## ƏLVİDA

Beş günlük dünyaya yoxdur etibar,
Çiçəyə əlvida, gülə əlvida.
Pisin, yaxşının da ağzı, dili var,
Ağıza əlvida, dilə əlvida.

Milyonlar yaşayır, vaxt çatır ölür,
Az adam yığdığın kimləsə bölür.
Ağac neyləsin ki, yarpaq tökülür?
Yarpağa əlvida, yelə əlvida.

Xatırla tarixdə iz qoyanları...
Görmədim çox sirri anlayanları,
İllərlə yaşayıb tam doyanları -
Doyana əlvida, ilə əlvida.

Əcəliylə ölən xoşbəxt sayılır,
Doğulandan yatan çətin ayılır.
Çox şey var küləklə, sellə yayılır -
Küləyə əlvida, selə əlvida.

Mir Aslan, nə gərək şişirtmə, yalan?
Dünya yaranışdan sinəsi talan.
Azacıq qurudu su, göldü qalan,
Quruya əlvida, gölə əlvida.

## TAPARDIN MƏNİ

Məhəbbət dağının zirvəsindəyəm,
Seyrində olsaydım, tapardın məni.
Günəşdən od almaq həvəsindəyəm,
sərində olsaydım, tapardın məni.

Sənsən səbəbkarı nəğmələrimin,
Duzu, mayasısan kəlmələrimin.
Sözə naxış vuran ilmələrimin
Zərində olsaydım, tapardın məni.

Hər kəs vurğunudur öz ellərinin,
dünyada tayı yox gözəllərimin.
Ustad Füzulinin qəzəllərinin
birində olsaydım, tapardın məni.

Necə də mən səni tanıdım çətin,
Zəngin aşiqlərə vardır rəğbətin.
Şahı seçilsəydim bir məmləkətin,
dərində olsaydım, tapardın məni.

Düşunmə Məcnunluq düşübdu dəbdən,
Guya eşq ağacı kəsilib dibdən.
Dinlə Miraslanı, səs gəlsə qeybdən:
“yerində olsaydım!” – Tapardın məni.

**OLSUN**

Kim ki sənə saxta sevirəm deyir,
Günahlara batır, xəbəri olsun.
Axı əsl aşiq deməz istəyir,
Gərək sevgi gizli, bəşəri olsun.

Yalanlar məhv edər mənəviyyatı,
Həqiqət bəzəyər cümlə həyatı.
Aldatmaq, tovlamaq – köhnə bayatı,
Kaş ki saf sevginin dəyəri olsun.

Bəzən unuduruq ürək deyəni,
Pis deyən olmasın, olsun yeyənin.
Ev yaşayanındır, paltar geyənin,
Dünyanın eşq dolu səhəri olsun.

İnan, sevgidə də “fayda” gəzən var,
Eşq yolunda min cəfaya dözən var.
Hətta şirin həyatından bezən var,
Düşünmə ki, bundan betəri olsun.

Saf sevgidir hər aşiqin dərmanı,
Tale yazan özü verər fərmanı.
Ay Miraslan, elə ye ki xurmanı,
Sonra deməsinlər: “Zəhəri olsun”.

**UNUTMADIQ**

Mən aldığım mis üzüyü
Barmağından çıxarmadı
sevdiyim qız...
Yeganə bəzək-düzəyi,
ucuz mirvari topasın
Əsla başıma qaxmadı
sevdiyim qız...
Demədi qonum-qonşuya,
nə qohum “xəbərbaşı”ya.
Ömür boyu sirrimizi
Kiməsə açmadı
sevdiyim qız...
nəydi müəllim maaşı,
Bazar, bahalığa qarşı?!
Heç vaxt üzü
qəzəb saçmadı...
sevdiyim qız
Bu gün yenə yanımdadı,
həmin istək canımdadı.
O zamandan illər ötüb,
yadımdadı -
nə o, nə mən unutmadım...

**ETİRAF**

Rəng də düzəltmişdim qoz qabığından,
Səni vəsf edirdim naxışlarımla.
Keçib evinizin düz qabağından
Salam göndərirdim baxışlarımla.

Sən isə xəlvəti gülümsəyirdin,
Sanırdım qəlbini fəth eyləmişəm.
Bəzən də yazıma ağız əyirdin,
Düşünürdüm yersiz mədh eyləmişəm.

Ah, nələr yazırdım tut ağacına,
Bıçaqla köksünü yaralayırdım...
Söyüdü bənzədib qumral saçına
Toxunmaqdan ötrü yol arayırdım.

Hərdən ulduzlarla edirdim söhbət,
Qərib axşamlardan kömək umurdum.
Deyirdim – Qaranlıq tez düşər əlbət,
Görüşə gəlmirdin, göz də yumurdum.

İndi o günləri necə unudum?!
Həm sirli, həm də ki xoş gəlir mənə.
Daha nə sən yoxsan, nə də o odum,
Kainat mənasız, boş gəlir mənə.



## KAMRAN RZAYEV

* * *

Gedin pıçıldayın qulaqlarına,
Hələ ölməmişəm, sağam söyləyin.
Dirikən gözündə öldüyüm kəsə
Bir qucaq dolusu salam söyləyin .

Deyin ki, bir nəfər darıxıb səndən,
Göynəyir burnunun ucu sən deyə.
Deyin ki, gecələr örtmür qapını,
Bir gecə çıxıb da gələrsən deyə.

Deyin ki, etməsin uşaqlıq daha,
Deyin, çıxıb gəlsin, bəs edər bu naz.
Deyin, insan onu bu cür sevənə
Axı bu qədər də laqeyd olmaz.

* * *

Bir kağız parçası
qırışıq halda
İçindən boylanan
susqun bir baxış...
sanki göz qırpmadan bircə anlıq da
İllərdir o yerdən mənə baxırmış...
Lal-dinməz,
danışmaz,
susqun və sakit
Səssizcə hayqırır baxışlar nəsə.
Bu sima yad deyil, mən bu baxışı
Sanki bənzədirəm tanış bir kəsə...
Gözləri, qaşları çox tanış gəlir,
İlahi, bu, odur,
bu, həmən qızdır.
Çox illər öncədən gələcəm deyib
Gedib qayıtmayan o vəfasızdır...
Bu qaşlar, bu gözlər, bu baxış, bu üz
Rəsmdə sevincdən gözləri gülür.
Adam bilə-bilə ki vəfasızdır,
Yenidən aldanıb sevməsi gəlir...
Kaş ki yaddaşımın ağlı olmazdı,
dəlilik edərdim, sevərdim yenə.
Kaş uşaq olaydım, məktəbdən çıxıb
Ardınca düşərdim, gedərdim yenə...
kaş dönə biləydim həmən günlərə,
Yenidən kiçicik uşaq olaydım.
Onu özgələrdən qorumaqdansa,
Dostum-yoldaşımdan uzaq olaydım...
İlahi, bir kağız nəyə qadirmiş ,
Gör mənə nə xəyal qurdurur indi.
Bir vaxtı ömrümdən yel kimi keçən
Əl boyda kağızda lal durur indi...
Bəlkə də toz imiş ən qatı düşmən,
Nə özgə, nə bir dost səbəb deyilmiş.
Köhnə bir kağızda şəkilə dönüb
Tozlanmaq bu eşqin qisməti imiş...

* * *

Gecələrim məhv olub,
Gecən xeyrə qalmasın.
Olmasın heç sevənin,
Görüm, yerim dolmasın.

Elə tək qalasan ki,
Tək ümidin mən olam.
Heç kim məhəl qoymaya,
Tüm qadanı mən alam...

Gedər yerin olmaya,
Çıxıb mənə gələsən.
Necə ki mən ölürəm,
Sən də mənçün öləsən...

* * *

Xəyallar qururam bərli-bəzəkli,
İçində daxmamız,
içində sən,
mən...
Gələn baharları gözləyəcəyəm,
Bu bahar da çıxıb geri gəlməsən...

Fəsillər yığılıb
Qalaq-qalaqdır,
Güdürəm bir fəsil gətirər deyə...
Qorxuram hansısa qışda gələrsən,
rüzgarlar geriyə götürər deyə...

Yaxşısı, sən elə bu bahar çıx gəl,
Gülü bəhanə et, çiçək gətir gəl.
Üstünə götürmə ayrılıq yükün,
Yolüstü həsrətin əlin ötür, gəl...

Gəl ki, çiçək açsın bu bahar könlüm,
Mən də xoşbəxt olum, mən də sevinim.
Bilmirəm ömrümə nə qədər qalıb,
Gəl ki, ölməmişdən mən də sevilim...

* * *

Sənə qarğış edirəm,
Edirəm ki, sevilmə.
Necə ki mən bilmədim,
Sən də dadını bilmə.

Elə tək qalasan ki,
Dostlaşasan təkliyə.
Saçlarından küsəsən,
Alışıb pintiliyə.

Toxunanın olmaya,
Ruhun qayğı görməsin.
Kimsə əlin tutmasın,
Kimsə saçın hörməsin.

Sən mənə çəkdiyintək,
Qəlbinə dağ çəkilsin.
Mənim kimi tüm arzun
Ətəyindən tökülsün.

Bir ümidə söykənib
Yaşayasan birtəhər.
Arabir gülsün üzün,
Barmaq sayı, bir qədər.

Getməyə yer olmaya,
Mən olam tək ümidin.
İndi qarğış edirəm,
Bir zaman arzum idin.

* * *

Sən özün bağışla məni, Allahım,
Qul-kölə olmuşam sənin quluna.
Mənə bəxş etdiyin hər ötən günü,
Hədiyyə edirəm onun yoluna.

Qorxuram ağlımı itirəm sonda,
Bu eşq dəliliyə aparır məni.
Qocalıq daddırır bu gənc yaşımda,
Saçım erkən-erkən ağarır mənim.

Yaman meylim çəkir soyuq torpağı,
Bir dəli ayrılıq keçir qəlbimdən.
Tanrı bu arzumu qəbul eyləsə,
Tez-tez qonaq olun, keçin qəbrimdən.

* * *

Misrada arayıb-axtarır səni,
Yolunu-izini bilməyən adam.
Sənli rəsmlərin tozunu silir
Əlini-üzünü silməyən adam.

Daha laqeyddir, daha ögeydir,
Daha çox yadlaşıb özünə adam.
Bir az tənbəllik var, bir az pintilik,
Təkcə yaxşı baxır sözünə adam.

Dərdini şeirdən-şeirə bölür,
Özünü hamıdan gizlədir adam.
Boş qalan yerinə gözütək baxır,
Gələni ayaqda gözlədir adam.

# YAZI DÜZÜMÜ

***REDAKTOR GUŞƏSİ***

-Ədəbiyyatın mətbuatla vəhdəti........................................................................................................................1

***PUBLISISTIKA***

**-Rüstəm KAMAL** - **"**Molla Pənah Vaqifin güzgüsü" ..................................................................................2
**-Vaqif YUSİFLİ** - **"**Həkim, şair, bəstəçi - bu Şahin Musaoğludur" ..........................................................9
**-Aslan BAYRAMOV -** "Deportasiya, yurd həsrəti və şəhidlik mövzularının bayatılarımızda psixoloji layı ................... 22
**-Aygün YAŞAR** - "Şair qizilgül əkir sözün bitdiyi yerə"........................................................................ 30
**-Kənan HACI -** "Bir daha şairlər güllələnməsin" ................................................................................... 35
**-Xaqani ABBASƏLİ -** "Halallığın poeziyası" ........................................................................................ 43
**-Nadir AZAYOĞLU -** "İzm"siz şair" .................................................................................................... 49
**-Leyla SƏFƏROVA** - **"**Şəhriyarin dilinin Naxçıvan şivələrində təzahürü............................................. 57
**-Həsən HÜSEYNLİ**- **"**Polad Məmmədovla üz-üzə................................................................................. 65
**-Xəyalə HƏMZƏLİYEVA** - **"**Baqilik və bəqa aşiqləri"...................................................................... 72
**-Şahnaz ŞAHİN** - **"**Zöhrab Mehdinin söz dünyası"................................................................................ 85
**-Səkinə NAĞIZADƏ** - **"**Aşıq Murad Çobanoğlu və türk dastançılıq ənənəsi" ..................................... 90

***POEZİYA***

**-Vasif SÜLEYMAN**- "Səyyah", "Solandı yanağın yaş olan yeri", "Bəlkə", "Beləcə", "Yaxşı unutdun",
"Balaca adaşıma", "Nadir Azayoğluna…" ..................................................................................................4
**-Fərqanə SƏFƏRLİ**- "Buğda", "Həsrət yükü", "Soyuqsan", "Var", "Vüsal həsrəti", "Bahar qız", "Dua çərpələngi",
"Yalan baxışlı", "Sən" xəstəliyi", "Ruhumun pərvanəsi", "Yasəmən itkisi", "Tənhalıq qulu"......................................6
**-Mirzəcan AĞABALAYEV**- "Darıxdırır adamı", "Sevgi yaşım", "Bu payız", "Vida əvəzi",
"Elə bir yer-gün ola", "Görünmür"...........................................................................................................12
**-Zöhrab MEHDİ**- "Göy dərdim", "Olmasın", "Ovuda bilmirəm", "Yuvarlağam", "Sən bir az fərqliydin",
"Addım atdım", "Getmişəm" ................................................................................................................. 20
**-Zülfü GƏNDƏBİLLİ**- "Ayrılıqlar", "Günəşin son şəfəqləri" ................................................................ 26
**-Şəlalə Şəfəq -** "Könlüm", "Məni boş ver", "Yaz məni", "Birlikdə darıxaq", "Dünya",
"Niyə gördüm axı səni", "O gün" .......................................................................................................... 27
**-Polad MƏMMƏDOV**- "Torpağı", "Qalmadı", "Üstə", "Olsun"............................................................ 29
**-Süleyman SƏRRAF**- "Məni görmədi", "Eşq bağı", "Növbə sənindi" ................................................... 32
**-Sənan ASLAN**- "Sonra get", "Xəzərim", "Yağışım" ............................................................................. 33
**-Mövlud AĞAMMƏD**- Qəzəllər............................................................................................................ 34
**-Saqi HƏŞƏN**- "Sevgilim", "Bilmirəm", "Nə vaxtsa", "Nəzər dəysin dərdimə", "Ayrılıq", "Getdi", "Axı" .................... 37
**-Günel AĞAZADƏ**- "Çətirsiz qadın", "Ədalətsiz dünya", "Özüməm də", "Yoxluq", "Xəyalımın rəngləri",
"Düşünən məzar"................................................................................................................................. 41
**-Sahibə YUSİF**- "Tənhalıq", "Çatmış**ıq** qocalığa", "Darıxdırır bir azda"............................................... 45
**-Rəşad AZƏRİ**- "Cənnətdən gələn şəhid məktubu", "Mən onun şeiriyəm", "Fədakar qadın", "Özümdən üzr
istəyirəm", "Zərif xanım", "Yalan", "Dünya", "Şair ürəyi", "Qədr gecəsi"................................................. 46
**-Xəyalə YAĞIŞLI**- "Qəlbi gözəl adamlar", "Qış olmasaydın" ................................................................. 48
**-Əlövsət HƏKƏRİLİ**- "Qızıma yazdığım II şeir", "Köçdün bu dünyadan", "Özbəkistan gözəli", "Şair Ramiz
Rövşənə", "Qağa", "Sevmək istədim", "Atam balası", "Ruhdan düşmədim", "Ümid qaldı payıza", "Dünyanın
sevinci" .............................................................................................................................................. 50
**-Mansur Sultan -** "Bir sevda ağlayır", "Kimə nə deyim", "Mən köz kimiyəm", "Ürəyim", "Nə günahı var?",
"Qayıt sevgimə", "Sən də gəl", "Dəniz aşiqi" ......................................................................................... 55
**-Arif QARAMANLI**- Qəzəllər................................................................................................................ 61
**-Sevda İBRAHİM**- "Bayramın münbarək olsun", "Dünya" "Ruh kimi gəzən insanam"................................ 63
**-Elgün İNCƏLİ**- "Allah bilir", "Haqqıdır", "Desinlər" ........................................................................... 64
**-Elvin ELXANOĞLU**- "Əziz Şuşa", "Zəfər günü", "Anamızın qədrini bilək", "Atadı" ................................ 70
**-Şəfəq ÜFÜQ**- "Qəlb", "Bəxtəvər", "Al, gətir", "Bacım olaydı", "İstədim", "Ay", "Mən də istədim",
"Qəlbimə dəymə".................................................................................................................................. 66
**-Nəhayət MUSABƏYOVA**- "Qoca Çinar", "İydə çiçəkləri", "Vicdanın səsi", "Qədrimi bilmədi", "Xatirələrdə",
"Qaytar məhəbbətimi", "Dönüb getdin", "Bir kəlmə" .............................................................................. 73
**-Asif ŞAHİNOĞLU**- "Şəhid anası", "Sevgisiz şəhər", "Vaxtsız qocaldım", "Ana fəryadı", "Yaşayan ölüyəm" ............... 83
**-Füzuli ABDULLAYEV**- "Keçən günlər", "Acı xəbər", "Möcüzəvi səhər", "Sevgi yolu"................................ 87
**-Gülsənəm MAQSUDOVNA**- "Vətən əzizdi", "Gecə gözəlliyi".................................................................. 88
**-Həsrət BƏHRAMOĞLU**- "Baxış o baxış deyil", "Ayırıb əllərimizi", "Bilənlər kimi", "Qarşılaşarıq"............... 89
**-Murad ZİYA**- "Sevgidən küsdüm", "Ömür yolu", "Mələk qadın", "Başqasını sevə bilmərəm", "Dünyanı necə sevim?",
"Həyata vəfa yox", "Hardasan sən?", "Sən fərqli qadınsan", "Şeir qadın"................................................... 93
**-Mir ASLAN**- "Xatırlayın", "Əlvida", "Tapardın məni", "Olsun", "Unutmadıq", "Etiraf"................................ 96
**-Kamran RZAYEV**- Adsız şeirlər............................................................................................................ 98

***NƏSR***

**-Əli BƏY AZƏRİ** - "Yurda qayıdış anketi" (hekayə) ............................................................................ 14
**-Sevinc RZA** - "Bazar səhəri" (hekayə) ................................................................................................ 39
**-Hümbət HƏSƏNOĞLU** - "Ən ləziz yemək" (hekayə) ............................................................................ 52
**-Tutu ƏSGƏRQIZI** - "Yazılı daş" (hekayə)............................................................................................ 68
**-Əli RZAZADƏ** - "Gecə gələn əsgər" (hekayə) ..................................................................................... 75
**-Xaləddin SIRAVİ** - "Qalan təsəllilərdi..." (esse)................................................................................... 95